RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 197 (9364) 13 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Atəşlə oynama, Paşinyan!

## Yeni savaşın alovu səni də, separatçılarını da çox pis yandıracaq

Bu üzdəniraq haylar anlamırlar ki, təxribat törətmək, atəşkəsi pozmaq və hətta yeni savaş bizə lazım deyil. Düşməni torpaqlarımızdan qovub ərazilərimizin suverenliyini təmin etmişik. İndi də yalnız öz iqtisadi qüdrətimiz hesabına hayların 30 ildə viran qoyduqları yurd yerlərimizi yenidən qururuq. Bizə, yeni savaş yox, sülh, təhlükəsizlik lazımdır. Elə Qarabağın erməni əhalisi də bunun tərəfdarıdır. Amma separatçılar, terrorçular çalışırlar ki, bölgədə sabitlik bərqərar olunmasın. Çünki İkinci Qarabağ müharibəsi 30 illik işğalla yanaşı, separatçıların silah-sursat və narkotik alverlərinə də son qoyub. Daha Qarabağ və Şərqi Zəngəzur narkotik alveri üçün tranzit məkan deyil. İndi bu ərazilər öz sahibinin ixtiyarındadır və orada yalnız Azərbaycan qanunları işləyir.

İrəvanın siyasi hakimiyyətinin sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləməsi fonunda separatçılara dəstək verməsi isə həqiqətləri ortaya çıxarır. Görünən odur ki, regionda maraqları olan bəzi dairələr Cənubi Qafqazda sabitliyin tərəfdarı deyillər. Bu səbəbdən də yenə Ermənistanı əllərində alət kimi oynadırlar.

→ 5

# Ölkəmizdə təhsil islahatları dövlətin qayğısı sayəsində uğurla davam edir

## Prezident İlham Əliyev Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də iki min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev dövlət başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdilər.

Qeyd edək ki, bu məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlət başçısının tapşırıqlarına əsasən hazırlanıb və uğurla icra olunub.

Məktəb binasının tikintisinə 2021-ci ilin fevral ayında başlanıb və bu ilin sentyabr ayında başa çatdırılıb. Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şəraitə malikdir.

→ 2



## AZƏRBAYCAN 105

# Şərəfli tale

"Azərbaycan" qəzeti millətin nə ilk, nə də son qəzeti idi. Məhz faktlara əsaslanaraq cəsarətlə demək olar ki, olduğu coğrafi məkanda, daxil olduğu mədəni bölgədə daim öz müdrik sözünü deyən, mədəniyyəti ilə ayrıca səhifə açan, tarixə sanballı alimləri ilə daxil olan Azərbaycan xalqı cəhalətlə mübarizədə həmişə öndə durub. Hələ 1875-ci ildə Həsən bəy Zərdabinin təsis etdiyi ilk milli qəzet olan "Əkinçi" ilə "Azərbaycan" arasında bir çox qəzet və jurnal doğulmuşdu, bacardığı qədər millətinə xidmət göstərmişdi.

"Azərbaycan" qəzeti yeni dövlətin parlamentinin rəsmi mətbu orqanı idi. Əgər digər mətbu orqanlarının işıq üzü görməsi üçün rus imperiyasının canişinləri icazə verməli idisə, onların istəyi ilə çapını dayandırmalı olurdusa, onların senzurasından keçirdisə, "Azərbaycan" qəzeti məhz müstəqil Azərbaycan Xalq Cümhuriyyəti ilə bərabər doğulmuşdu. Onu təsis edən elə əvvəlki qəzet və jurnallarda fəaliyyət göstərən, qələmi orada itilənən ziyalılar idi, ancaq bu dəfə onlar öz müstəqil Vətəninin xəbərini çatdırır, onun adından danışırdılar. Qəzetin 1918-ci il 7 dekabr tarixli 58-ci sayında Üzeyir bəy Hacıbəyli "Tarixi günümüz" məqaləsində yazırdı: "Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir. Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Xalq Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi. Bəs bu gün haman bu Azərbaycan Xalq Cümhuriyyətinin milli parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama yetir. Belə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid - parlamanımızdır. Və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsuli yolunda var qüvvəsilə çalışacaq və Vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır".

→ 7

# Azərbaycanın şərtləri yerinə yetirildi

## Ağdam-Xankəndi yolu ilə humanitar yardımın keçidi təmin olundu

Azərbaycan tərəfi bəyan etdi ki, ölkəmizin icazəsi olmadan ərazilərimizə yük maşınlarının keçirilməsi suverenliyə, ərazi bütövlüyünə qəsd cəhdləridir. Digər tərəfdən, Azərbaycan yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif etməklə özünün xoş niyyətini bir daha nümayiş etdirdi.

Ağdam-Xankəndi yolunun açılması ilə Qarabağa humanitar yükün çatdırılması Azərbaycanın növbəti uğurudur. Azərbaycan prinsipial və qətiyyətli mövqe nümayiş etdirərək yüklərin bu yoldan keçirilməsinə nail oldu.

→ 6

# Hayastanın torpağın altında gizlətdiyi cinayətlər

## Kütləvi məzarlıqların aşkar edilməsi erməni faşizmini ifşa edir

Belə məzarlıqların və meyit qalıqlarının axtarış-qazıntı işləri davam etdiyi müddətdə mütəmadi aşkarlanacağı gözlənilir. Sonradan azad olunmuş Birinci Qarabağ müharibəsi əsirlərinin xatirələrində yer alan fikirlər də əminlik yaradır ki, digər rayon və kəndlərdə olduğu kimi, hazırda Rusiya sülhməramlılarının yerləşdirildiyi ərazilərimizdə də belə kütləvi məzarlıqlar çoxdur. Rəsmi məlumatlardan o da aydın olur ki, azərbaycanlılar çox böyük amansızlıq və işgəncə ilə qətlə yetiriliblər. Skeletlərdə aşkarlanan müxtəlif işgəncə izləri, onların əllərinin və ayaqlarının məftil və ya kəndirlə bağlı olması kimi faktlar bunu sübut edir.

→ 11

# Mənfur erməni xisləti

## Bu sifətin sahibləri mina terrorunu davam etdirirlər



→ 6

# Paşinyan Rusiya ilə vidalaşmaq niyyətindədir

Azərbaycanın mövqeyi məlumdur, olduqca aydın, konkret və qətidir. Hər hansı statusdan söhbət belə gedə bilməz. Qarabağda yaşayan icma nümayəndələri ya Azərbaycan qanunları ilə yaşamalı, dövlətimizin reinteqrasiya təklifini qəbul etməli, Ermənistanın Qarabağda saxladığı qanunsuz silahlı dəstə tezliklə ölkəmizin ərazilərini tərk etməlidir. Yaxud da... yol açıqdır.

Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk.

→ 5

# Ermənistan törətdiyi təxribatlarla öz miskin sonunu yaxınlaşdırır

Ermənistan təxribatlarını regionda sülhün yaranmasında maraqlı olmayan Fransanın və digər qüvvələrin təsiri ilə davam etdirir. İşğalçı dövlət bütün dünyanın gözü önündə, heç nədən çəkinmədən bölgəni müharibə ocağına çevirməyə çalışır. Son günlər xarici ölkələrdən silah almaqla və sərhədə qüvvələr cəmləşdirməklə yeni müharibə təhlükəsi yaradan Ermənistan bu dəfə də ən böyük zərbəni özünə vurduğunu unudur.

Azərbaycan dövləti öz ərazi bütövlüyünü qorumaq məqsədilə bundan sonra da qətiyyətlə lazımi addımlar atacaq. Bunun üçün siyasi, iqtisadi, hərbi gücü var.

→ 5

# Qazaxıstan XİN: "Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstəyimizi bir daha təsdiqləyirik"

Qazaxıstan Azərbaycanın suverenliyinə və beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə qətiyyətli dəstəyini ifadə edib. AZƏRTAC xəbər verir ki, bu ölkənin Xarici İşlər Nazirliyinin bəyanatında deyilir: "Qarabağ ətrafında baş verən son hadisələrlə əlaqədar olaraq, Qazaxıstan Respublikası Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə qətiyyətli dəstəyini bir daha təsdiqləyir və bütün məsələlərin BMT-nin Nizamnaməsinə, beynəlxalq hüququn əsas norma və prinsiplərinə uyğun olaraq siyasi-diplomatik yolla həllinə tərəfdar olduğunu bildirir".

# Ölkəmizdə təhsil islahatları dövlətin qayğısı sayəsində uğurla davam edir

## Prezident İlham Əliyev Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib







*Əvvəli 1-ci səh.*

Yeni məktəbdə 74 sinif, 6 informatika otağı, məktəbəqədər 2 hazırlıq otağı, 8 otaqdan ibarət STEAM Mərkəzi, 2 idman zalı, 2 əmək otağı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika və biologiya kabinetləri, kimya laboratoriyası, kitabxana, yeməkxana və 400 nəfərlik akt zalı yaradılıb.

Prezident İlham Əliyev yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış oldu.




STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə aşılamaqla yanaşı, onlara mühəndislik səriştələri öyrədir.

Bu məktəbin STEAM Mərkəzi də elektron lövhələr, kompüterlər, 3D printerlər, müvafiq öyrədici qurğular, elektron komponentlər və dəftərxana ləvazimatları ilə təmin olunub. Burada həmçinin mühəndis emalatxanası, kiçikyaşlı uşaqlar üçün zona, təlim və robototexnika otaqları var.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər ölkələrin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Xırdalan şəhəri 11 saylı tam orta məktəbin ən müasir standartlara cavab verən binasının inşası da bir daha təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir.

## T.M.Ağababayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə Tofiq Məmmədəli oğlu Ağababayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 sentyabr 2023-cü il*

# İqtisadi Şuranın növbəti iclası keçirilib



**Sentyabrın 12-də İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2024-cü il və ortamüddətli dövr üçün müəyyən etdiyi prioritetlərin və hədəflərin əsasında hazırlanan 2024-cü və sonrakı üç il üzrə icmal və dövlət büdcələrinin proqnoz göstəriciləri, büdcə proqnozlarında istifadə olunan əsas fərziyyələr, büdcə qaydasının parametrləri üzrə hədəf göstəriciləri, 2024-2027-ci illərdə büdcə siyasəti, milli xərc prioritetləri, Böyük qayıdış Proqramının maliyyələşdirilməsi, Ortamüddətli Xərclər Çərçivəsinin parametrləri, ortamüddətli dövr üçün sosial-iqtisadi inkişaf proqnozları və digər cari məsələlər ətraflı müzakirə olunub.





İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun və əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzələri dinlənilib.

İclasın yekununda 2024-cü ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 319**

## QƏRAR

**Bakı şəhəri, 9 sentyabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında" 1992-ci il 30 aprel tarixli 239 nömrəli, "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində Fövqəladə hallarda əhalini mühafizənin əsas prinsipləri haqqında" 1992-ci il 28 dekabr tarixli 700 nömrəli, "Mülki müdafiənin təmin edilməsi haqqında" 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli, "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə normativ hüquqi aktlar barədə" 1998-ci il 14 dekabr tarixli 237 nömrəli, "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 8 iyun tarixli 108 nömrəli, "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 5 iyun tarixli 216 nömrəli, "2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 1 dekabr tarixli 370 nömrəli və "Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə"nin Nümunəvi forması"nın təsdiq edilməsi barədə" 2020-ci il 20 mart tarixli 102 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Müflisləşmə və iflas haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Mülki müdafiə haqqında", "Qrant haqqında", "Hidrometeorologiya fəaliyyəti haqqında" və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 809-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 30 aprel tarixli 239 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddələr 750, 756; 2005, № 6, maddə 541; 2009, № 2, maddə 144, № 9, maddə 738; 2014, № 1, maddə 57, № 6, maddələr 745, 747; 2019, № 1, maddə 153; 2022, № 4, maddə 390; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 iyul tarixli 244 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərara 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət orqanlarının fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə funksiyaları"nın "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti" hissəsinin mətnində "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi haqqında Əsasnamə"nin 17-ci hissəsində "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli 700 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 434; 2013, № 10, maddə 1193; 2021, № 9, maddə 1073) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin Əsas Prinsipləri"nin 4.2-ci bəndinin beşinci abzasında "verilişləri" sözü "proqramları" sözü ilə, 4.10-cu bəndinin ikinci abzasında "kütləvi informasiya vasitələrilə" sözləri "media ilə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 25 sentyabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 600; 2006, № 9, maddə 822; 2008, № 6, maddələr 584, 586; 2010, № 3, maddə 264, № 6, maddə 566; 2018, № 12 (II kitab), maddə 2736) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fövqəladə hadisələrdən müdafiə sahəsində əhalinin hazırlanması Qaydaları"nın 1.9-cu bəndinin dördüncü abzasında və 4.3-cü bəndində "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 14 dekabr tarixli 237 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 804; 2005, № 1, maddə 49; 2014, № 1, maddə 57; 2017, № 4, maddə 627; 2021, № 5, maddə 522) 2 nömrəli əlavə - "Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ödənişsiz və ödənişli məlumatların növləri"nin "Ödənişsiz məlumatlar" bölməsinin 6-cı hissəsində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553; 2015, № 12, maddə 1570; 2016, № 4, maddə 822; 2020, № 11, maddə 1412) ilə təsdiq edilmiş "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın 2.17-ci bəndində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 789; 2016, № 3, maddə 599, № 5, maddə 955, № 11, maddə 1958; 2017, № 1, maddə 118; 2019, № 3, maddə 527; 2020, № 11, maddə 1390; 2021, № 9, maddə 1064, № 11, maddə 1278) ilə təsdiq edilmiş "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nın 1.9-cu bəndində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 dekabr tarixli 370 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1569) ilə təsdiq edilmiş "2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 6.4.3-cü yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

7.1. "Tədbirlərin adı" sütununda "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə əvəz edilsin;

7.2. "İcraçılar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 363; 2021, № 4, maddə 395) ilə təsdiq edilmiş "Tibbi xidmətlərin göstərilməsi haqqında Müqavilə"nin Nümunəvi forması"nın 2.3.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin nümayəndə heyəti Bolqarıstanda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş ağacəkmə aksiyasında iştirak edib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Bolqarıstan Respublikasına rəsmi səfəri davam edir.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti Bolqarıstanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyasında iştirak edib. Parlament nümayəndə heyəti bu məqsədlə Sofiya şəhərində yerləşən Bakı küçəsinə gəlib. Burada yerləşən parkda spiker Sahibə Qafarova və nümayəndə heyətinin üzvləri ağac əkiblər.

*"Azərbaycan"*





# Bolqarıstanda Azərbaycan dili və mədəniyyəti Mərkəzi ilə tanışlıq







**Bolqarıstanda rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti Mərkəzi ilə tanış olub. Spiker Sahibə Qafarovaya mərkəzin fəaliyyəti haqqında geniş məlumat verilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Sədri mərkəzə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Milli Məclis tərəfindən nəşr olunmuş kitabları hədiyyə edib. Sahibə Qafarova mərkəz əməkdaşlarına və tədbir iştirakçılarına Ulu Öndərin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətləri haqqında geniş məlumat verib.

Milli Məclisin Sədri mərkəzə həmçinin "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitabı təqdim edərək Ermənistanın 30 illik işğalı zamanı şəhər və rayonlarımızda törətdiyi dağıntılar, vəhşiliklər barədə məlumat verib.

Daha sonra Milli Məclisin Sədri Azərbaycan dilini öyrənən bolqar tələbələrlə görüşüb.

Spiker Sahibə Qafarova mərkəzdə xatirə kitabını imzalayıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Bolqarıstanın Baş naziri ilə görüşüb





**Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 12-də Bolqarıstan Respublikasının Baş naziri Nikolai Denkov ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından məmnunluq qeyd edilib. Vurğulanıb ki, dost və strateji tərəfdaş olan ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq digər sahələrdə də uğurlu əməkdaşlıq üçün zəngin baza yaradır. Xüsusilə 2015-ci ildə Bolqarıstan və Azərbaycan arasında imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldib. Bildirilib ki, iqtisadi əlaqələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən biridir. O cümlədən ölkələrimiz arasında əlaqələrin əsas istiqamətlərindən biri də enerji sahəsində əməkdaşlıqdır.

Baş nazir Nikolai Denkov ikitərəfli əlaqələrin inkişafında parlamentlərarası əməkdaşlığın da vacibliyini vurğulayaraq, Milli Məclis sədrinin bu səfərinin münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. O, Bolqarıstanın Azərbaycanda nəqliyyat və logistika sahəsinin, nəqliyyat dəhlizlərinin inkişafında, o cümlədən əczaçılıq, informasiya texnologiyaları sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanda müxtəlif sahələrə investisiya imkanlarını, Azərbaycanın müasir nəqliyyat infrastrukturunu və tranzit ölkə kimi mühüm rolunu qeyd edərək, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu bildirib.

Görüşdə humanitar sahədə də əməkdaşlıq diqqətə çatdırılıb. Qeyd edilib ki, Azərbaycan və Bolqarıstan xalqları arasında təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlıq, qarşılıqlı əsasda mədəni tədbirlərin keçirilməsi kimi tədbirlər xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət edir.

Söhbət zamanı Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən sonra regionda yeni yaranmış vəziyyət haqqında məlumat verilib, Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "prezident seçkiləri"nə münasibət bildirilib. Vurğulanıb ki, Azərbaycan xalqı sülh və sabitlik istəyir. Münaqişə qurbanı olmasına baxmayaraq, məhz Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin bərqərar edilməsi, Ermənistanla münasibətlərin beynəlxalq hüququn normaları və prinsipləri əsasında normallaşması üçün sülh təşəbbüsü irəli sürüb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Bolqarıstan Milli Assambleyasının Sədri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Bolqarıstan Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının Sədri Rosen Jelyazkov ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə spikerlər arasında təkbətək görüş baş tutub. Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair müzakirələr aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib. Azərbaycan parlamentinin Sədrini səmimiyyətlə salamlayan Rosen Jelyazkov, bu səfərin iki ölkə, o cümlədən parlamentlərimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. O, Azərbaycan və Bolqarıstan arasında dərin dostluq əlaqələrinin olduğunu qeyd edərək, ölkələrimizin bir çox sahələrdə əməkdaşlığını diqqətə çatdırıb. Rosen Jelyazkov deyib ki, Azərbaycan və Bolqarıstan arasında intensiv diplomatik əlaqələr mövcuddur. Azərbaycan və Bolqarıstan prezidentləri arasında yüksəksəviyyəli əlaqələr münasibətlərimizə təkan verir. O, dövlət başçılarının qarşılıqlı səfərlərinin uğurlu nəticələrini qeyd edib.

Rosen Jelyazkov dövlətlərimiz arasında olan yüksəksəviyyəli münasibətlərin qanunverici orqanlar arasında da əməkdaşlığın daha da inkişafı üçün yaxşı imkanlar yaratdığını, parlamentarilərin, dostluq qruplarının təmaslarının önəmini vurğulayıb.

Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən spiker Sahibə Qafarova Azərbaycan Milli Məclisinin Sədri kimi Bolqarıstana ilk rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Azərbaycan və Bolqarıstanın dost və strateji tərəfdaş ölkələr olduğunu diqqətə çatdıran Milli Məclisin Sədri xatırladıb ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunub. Bu illər ərzində ölkələrimiz arasında münasibətlər davamlı şəkildə inkişaf edib. Sahibə Qafarova xüsusilə 2015-ci ildə Bolqarıstan və Azərbaycan arasında imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə qaldırdığını qeyd edib.

İkitərəfli münasibətlərin inkişafında siyasi yüksəksəviyyəli səfərlərin müstəsna rolunu vurğulayan Milli Məclisin Sədri deyib ki, ötən illər ərzində həm ikitərəfli səviyyədə, həm də müxtəlif tədbirlərdə iştirak çərçivəsində çoxsaylı yüksəksəviyyəli səfərlər və görüşlər olub. O, xüsusilə Prezident İlham Əliyevin Bolqarıstana ötən il və bu il reallaşan səfərlərini və Prezident Rumen Radevin cari ilin martında Azərbaycana səfərlərini qeyd edib. Spikerin sözlərinə görə, çox yüksək səviyyədə siyasi təmaslar ikitərəfli gündəliyin digər sahələrində əməkdaşlığın inkişafı üçün güclü əsas yaradıb. Bu mənada, iqtisadi və enerji sahələrində əlaqələr xüsusilə təqdirəlayiqdir.

Görüşdə iki ölkənin qanunverici orqanları arasında da əməkdaşlıqdan danışan Milli Məclisin Sədri deyib ki, Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərimizin qarşılıqlı fəaliyyətidir. Qarşılıqlı səfərlər bu əməkdaşlığın inkişafına təkan verir. Onun sözlərinə görə, parlamentlərimiz arasında müxtəlif beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlığın daha da inkişafı üçün yaxşı imkanlar var. Bu mənada, dostluq qruplarının birgə fəaliyyəti vacibdir. Onlar müntəzəm təmaslar, dialoq və fikir mübadiləsi ilə parlamentlərimiz arasında körpü rolunu oynayırlar. Sahibə Qafarova həmçinin parlament komitələrinin işi vasitəsilə parlamentlər arasında əlaqələrin daha da dərinləşdirilməsi imkanları barədə də danışaraq deyib ki, komitələrimiz hüquqi, iqtisadi, humanitar və digər sahələrdə qanunvericilik fəaliyyətində təcrübə mübadiləsi üçün əməkdaşlıq edə bilərlər.

Milli Məclisin Sədri Sahibə Qafarova görüşdə 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə və öz ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yeni yaranmış vəziyyət haqqında məlumat verərək bildirib ki, hazırda Azərbaycan öz imkanları hesabına işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri həyata keçirir, 8 şəhəri, yüzlərlə kəndi sıfırdan, yenidən tikir, qurur. O xatırladıb ki, işğal qurbanı olmasına baxmayaraq, sülhdən danışmağa başlayan və beynəlxalq hüququn 5 prinsipinə, o cümlədən bir-birinin ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına, qarşılıqlı hörmətə əsaslanan sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edən Azərbaycandır. Təəssüflər olsun ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı siyasi-hərbi təxribatlarını davam etdirir, hələ də 10 minlik silahlı qüvvələrini Azərbaycan ərazilərindən tam şəkildə çıxarmayıb. 2 ildən artıqdır ki, Ermənistan münaqişə həll olunduqdan sonra da Laçın yolundan qeyri-qanuni hərbi və digər fəaliyyətlər üçün ardıcıl olaraq sui-istifadə edib.

Milli Məclisin Sədri bir daha diqqətə çatdırıb ki, Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsinin yaradılması Azərbaycanın qanuni hüququdur və Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən də tanınmışdır. Ermənilərin sərhəd-keçid məntəqəsinə qarşı bir neçə dəfə təxribat törətməsinə baxmayaraq, Qarabağ bölgəsinin erməni sakinləri hələ də ondan maneəsiz istifadə edirlər. Ermənistanın "blokada", "ciddi humanitar böhran"la bağlı siyasi manipulyasiyaları, yüklərin daşınması üçün başqa yollardan istifadə etməkdən imtina etməsi və Azərbaycanın humanitar yardımından imtina etməsinin yeganə səbəbi Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qəbul etməməsi, Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına mane olmaqdır.

Görüşdə Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qeyri-qanuni, qondarma rejimin "prezident seçkiləri"nə də münasibət bildrən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, bu təxribatçı addım ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün, Azərbaycan Konstitusiyasının və qanunvericiliyinin, habelə beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Onun sözlərinə görə, beynəlxalq birliyin bütün üzvləri beynəlxalq hüquq çərçivəsində üzərlərinə götürdükləri öhdəliklərə uyğun olaraq, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş bu akta düzgün siyasi qiymət verməli, təcavüzkar separatizmə qarşı öz səslərini ucaltmalı və adı çəkilən qanunsuz fəaliyyətləri qəti şəkildə pisləməlidirlər.

Ermənistanın "blokada", "humanitar böhran" barədə yalan və əsassız iddiaları ilə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birbaşa hədəfə aldığını qeyd edən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, o, delimitasiya olunmamış sərhəddə və Qarabağ bölgəsində hərbi təxribatlar törətməkdə davam edir, Azərbaycan ərazisində qeyri-qanuni dislokasiya olunmuş 10 minlik silahlı qüvvələrinə texniki, hərbi və maliyyə dəstəyini davam etdirərək, əvvəllər əldə edilmiş razılaşmaları və normallaşma prosesini pozur. Ermənistanın yeganə məqsədi bütün mümkün vasitələrlə Azərbaycan ərazisində separatizmin mövcudluğunu davam etdirməkdir.

Milli Məclisin Sədri Ermənistanın silahlanması, rəsmi İrəvan tərəfindən sülhün əldə olunmasına qarşı təxribatları barədə geniş məlumat verib. Spiker Sahibə Qafarova deyib ki, əgər Ermənistan, həqiqətən də, sülh istəyirsə və Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edirsə, o zaman niyə sürətlə silahlanır? Yaxud Ermənistan kimi kasıb ölkə niyə 100 milyon dollarlıq silah alır?

Spikerin sözlərinə görə, Ermənistan əldə etdiyi silahlardan Azərbaycanın suveren ərazisinə qarşı istifadə edir. Bu isə onu deməyə əsas verir ki, Ermənistanın sürətlə silahlanması sülh perspektivlərini sarsıdır və region üçün yeni təhlükələrə gətirib çıxarır.

Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılmasına, suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında sülh sazişinin imzalanmasına sadiq qaldığını deyən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan həmçinin Qarabağ bölgəsinin etnik erməni sakinlərinin Azərbaycanın bərabərhüquqlu vətəndaşları kimi reinteqrasiyası üçün səylər göstərir. Onların bütün müvafiq hüquq və azadlıqları ölkəmizin Konstitusiyasında və Azərbaycanın qoşulduğu beynəlxalq mexanizmlərdə təsbit edilmiş şəkildə təmin ediləcəkdir.

Görüşdə Milli Assambleyanın Sədri Rosen Jelyazkov xatırladıb ki, 1945-ci ildən sonra yaradılmış dünya nizamında ərazi bütövlüyü əsas rol oynayan prinsipdir. Bu prinsipin pozulması asan həll oluna bilməyəcək konfliktlərin yaranmasına gətirib çıxarır. Azərbaycan və Bolqarıstan coğrafi baxımdan uzaq regionlarda yerləşsə də, bu regionlarda bənzər hadisələr baş verib. Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "prezident seçkiləri"ndən narahatlıqlarını diqqətə çatdıran Bolqarıstan spikeri deyib ki, bu"seçkilər" Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi haqqında bəyanatları ilə ziddiyyət təşkil edir. Hazırda mövcud olan vəziyyət, sadəcə, bəyanatların səsləndirilməsini deyil, uzunmüddətli sülhü təmin edəcək sazişin imzalanmasını tələb edir. Davranışlar səsləndirilən bəyanatlara uyğun olmalıdır.

O, ölkəsinin Azərbaycanın sülh planını dəstəklədiyini bir daha bəyan edərək ümid etdiyini bildirib ki, vasitəçilərin də iştirakı ilə aparılan danışıqlar nəticəsində tezliklə sülh sazişi imzalanacaq.

*"Azərbaycan"*

# Sofiya şəhərində "Naməlum əsgər" abidəsini ziyarət







**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Bolqarıstan Respublikasına rəsmi səfəri davam edir.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin spikeri sentyabrın 12-də Sofiyanın Aleksandr Nevski meydanında "Naməlum əsgər"abidəsini ziyarət edib.

Burada Milli Məclisin Sədrini Bolqarıstan Milli Assambleyasının Sədri RossenJelyazkov qarşılayıb. Azərbaycan nümayəndə heyətinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Milli Məclisin Sədri Sahibə Qafarova "Naməlum əsgər" abidəsinin önünə əklil qoyub. Sonra iki ölkənin dövlət himnləri səsləndirilib.

*"Azərbaycan"*

# Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Milli Məclisin Sədri Sahibə Qafarovaya məktub ünvanlayıb

**Bolqarıstan Milli Assambleyasının Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Həmid Həmid Milli Məclisin Sədri Sahibə Qafarovaya məktub ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, məktubda Həmid Həmid son illər Cənubi Qafqaz regionunda cərəyan edən prosesləri diqqətlə izlədiyini bildirib, nəhayət, regionda uzunmüddətli sülhün və sabitliyin bərqərar olması üçün zamanın yetişdiyini bildirib.

Məktubda Azərbaycanın öz ərazilərini erməni işğalından azad etdikdən sonra beynəlxalq hüququn norma və prinsipləri əsasında Ermənistanla münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması təşəbbüsü ilə çıxış etdiyi vurğulanıb. İstənilən anlaşmanın ölkələrin bir-birilərinin suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, daxili işlərə qarışmama kimi prinsiplər əsasında əldə olunmalı olduğu bildirilib.

Eyni zamanda beynəlxalq tərəfdaşların fəal iştirakı ilə davam edən sülh danışıqlarına təhlükə yaradan bir sıra proseslərin baş verməsi təəssüf hissi ilə qeyd olunub. Ermənistanın Azərbaycanın Qarabağ bölgəsindəki separatçı rejimə dəstəyini davam etdirməsi sülh danışıqlarına xələl gətirən və regionda vəziyyətin daha da gərginləşdirilməsinə yönəlmiş addım kimi dəyərləndirilib.

Beləliklə, məktubda bu qanunsuz rejim tərəfindən 2023-cü il sentyabrın 9-da qondarma "prezident seçkiləri"nin keçirilməsi beynəlxalq hüququn fundamental norma və prinsiplərinin kobud şəkildə pozulması və bugünkü dünyada qəbuledilməz hal olan təcavüzkar separatizmin təzahürü kimi qiymətləndirilib.

Dostluq qrupunun rəhbəri bu "seçkilər"in beynəlxalq ictimaiyyət tərəfindən pislənməsi və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinin və ərazi bütövlüyünün qəti şəkildə dəstəklənməli olduğuna dair mövqeyini ifadə edib.

Sonda Həmid Həmid sülh prosesinə təhlükə yaradan istənilən addımın rədd edilməli və qarşısının alınmalı olduğunu bildirib. O, beynəlxalq ictimaiyyəti Cənubi Qafqaza çoxdan gözlənilən sülh və sabitlik gətirəcək sülh danışıqlarının konstruktiv şəkildə davam etdirilməsini dəstəkləməyə çağırıb.

*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri BQXK-nın prezidenti ilə regiondakı son vəziyyəti müzakirə edib

**Xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində sentyabrın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Miryana Spolyariç Eqqer ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı regiondakı son vəziyyət fonunda Azərbaycan ilə BQXK arasında əməkdaşlığın hazırkı durumu, mövcud çağırışlar və gələcək perspektivlər barədə müzakirələr aparılıb.

Beynəlxalq humanitar vasitəçi kimi BQXK-nın rolu qeyd edilib, Azərbaycanın BQXK ilə əməkdaşlığında münaqişədən əziyyət çəkən insanlara dəstək, itkin düşmüş azərbaycanlıların taleyinin aydınlaşdırılması, işğaldan azad edilmiş ərazilərdə mina və partlayıcılar barədə maarifləndirmə kimi istiqamətlərin böyük əhəmiyyət daşıdığı diqqətə çatdırılıb.

Bununla yanaşı, Azərbaycan qanunvericiliyinə və müvafiq prosedurlara əməl etməklə BQXK vasitəsilə erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi və Laçın-Xankəndi yolundan paralel istifadənin zəruriliyi vurğulanıb. Əldə olunmuş razılıqlara baxmayaraq, Ermənistanın və onun yaratdığı qondarma rejimin bu razılıqları kobud şəkildə pozduğu xatırlanıb. Hazırda Laçın yolundan gündəlik əsasda hər iki istiqamətdə erməni sakinlərin keçidinin təmin edildiyi halda Ermənistanın "blokada" iddialarının əsassız olduğu vurğulanıb.

Ümumiyyətlə, Azərbaycan vasitəsilə əraziyə yüklərin daşınmasına maneçilik törədilməsinin siyasi manipulyasiya olduğu, Ermənistanın separatçılığı qızışdırmaq cəhdlərinin tərkib hissəsi olduğu qeyd edilib.

Görüş zamanı həmçinin 44 günlük müharibədən sonra Ermənistanın Laçın yolu vasitəsilə mina və silahların daşınması, hərbi qulluqçuların rotasiyası kimi qanunsuz fəaliyyətləri xatırlanıb.

# YAP-ın nümayəndə heyəti Çində beynəlxalq partiyalararası konfransda iştirak edib

**Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.**





YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 12-də nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Çinhay Əyalətinin Partiya Komitəsinin katibi, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü Çen Qanın bu ölkədə səfərdə olan xarici nümayəndə heyətlərinin rəhbərləri ilə görüşündə iştirak edib.

Görüşdə Çin Xalq Respublikasının inkişaf yolundan və qazanılan nailiyyətlərdən, həmçinin qarşıda duran hədəflərdən ətraflı bəhs edilib. ÇXR-in Sədri, ÇKP-nin Baş katibi Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının mahiyyəti və praktiki əhəmiyyəti barədə geniş məlumat verilib.

Görüşdən sonra nümayəndə heyətlərinin rəhbərləri üçün nahar təşkil olunub. Nahara qatılan YAP nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərovun ÇKP Mərkəzi Komitəsinin üzvü, ÇKP MK-nın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Liu Ciençao ilə söhbəti zamanı Azərbaycan ilə Çin arasındakı dostluq münasibətlərinin inkişaf səviyyəsindən məmnunluq ifadə olunub, ölkə liderlərinin əlaqələrin dərinləşməsində müstəsna rolunun əhəmiyyəti vurğulanıb. Həmçinin Azərbaycan-Çin münasibətlərinin hazırkı durumu və perspektiv imkanlardan danışılıb. Azərbaycanın "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğu xatırladılıb, Zəngəzur dəhlizinin reallaşdırılmasının regional və beynəlxalq önəmi diqqətə çatdırılıb. Söhbət zamanı Çin və Azərbaycanın ölkələrin ərazi bütövlüyü məsələsində sərgilədikləri mövqeyin dəyişməz olduğu vurğulanıb. Eyni zamanda YAP-ÇKP əlaqələrinin iki ölkə arasındakı münasibətlərin inkişafındakı rolundan söz açılıb.

Daha sonra YAP-ın nümayəndə heyəti "Çin modernləşməsi: cəmiyyət və təbiətin harmoniyası" adlı sərgini ziyarət edib, eyniadlı partiyalararası beynəlxalq konfransda iştirak edib. Konfransda Çin modernizasiyasının səciyyəvi xüsusiyyətləri barədə təqdimat olub. Çıxışlar zamanı vurğulanıb ki, Çin modernləşməsi yeni inkişaf modelidir və xalqların xoşbəxt gələcəyinə hesablanıb. Bundan başqa, Çinin ekologiyanın qorunması sahəsində gerçəkləşdirdiyi layihələr haqqında ətraflı məlumat verilib.

Həmin gün YAP-ın nümayəndə heyəti Sançyanyuan Təbiət Qoruğu və Ekologiya üzrə Böyük Məlumat Mərkəzini də ziyarət edib.

# Ceyhun Bayramov UNOG-un baş direktorunu Ermənistanın təxribatları və BMT rəsmisini Qarabağdakı ekoloji terror barədə məlumatlandırıb





Xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində sentyabrın 12-də BMT-nin Cenevrədəki Ofisinin (UNOG) baş direktoru Tatyana Valovaya ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı Azərbaycan-UNOG əməkdaşlığının müxtəlif istiqamətləri, eləcə də regional məsələlər müzakirə edilib.

Azərbaycan ilə UNOG arasında əməkdaşlıqdan məmnunluq ifadə olunaraq, UNOG-nin insan hüquqları, gənclər, gender bərabərliyi, dayanıqlı inkişaf məqsədləri, ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf kimi istiqamətlər üzrə fəaliyyətlərinə dəstək ifadə olunub.

Azərbaycanın öz növbəsində BMT çərçivəsində aktiv fəaliyyət göstərdiyi, 2023-cü ildə BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramına (SPECA) sədrlik etdiyi və cari ilin noyabr ayında Bakıda SPECA-nın sammitinin baş tutacağı diqqətə çatdırılıb.

Sülh və təhlükəsizliyin təşviqi, humanitar, sosial-iqtisadi inkişafda bərabərlik kimi prinsiplərin Azərbaycanın SPECA ilə yanaşı, Qoşulmama Hərəkatında sədrliyi və digər beynəlxalq təsisatlardakı təşəbbüslərinin əsas meyarlarını təşkil etdiyi diqqətə çatdırılıb.

Xanım Valovayanın 2022-ci ildən etibarən Azərbaycana baş tutmuş səfərləri və bu səfərlər çərçivəsində keçirilmiş ali və yüksək səviyyəli görüşlər məmnunluqla xatırlanıb və Azərbaycanın Cenevrədəki Daimi Nümayəndəliyi, habelə ölkəmizin digər qurumları ilə UNOG arasında əməkdaşlığın gücləndirilməsi üçün yaratdığı şəraitə görə UNOG-nin rəhbərinə minnətdarlıq bildirilib.

Görüş zamanı bölgədəki vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə məlumat verilib. Postmünaqişə dövründə Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq, Ermənistanın təxribatları diqqətə çatdırılıb. Ölkəmizə qarşı mina təhdidləri xüsusi vurğulanıb. Bölgədə "humanitar vəziyyət" və "blokada" barədə iddiaların əsassızlığı barədə faktlar qeyd edilib.

* * *

Sentyabrın 12-də xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçean ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan ilə BMT arasında əməkdaşlığın perspektivləri, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında əldə etdiyi uğurlardan bəhs olunub.

Azərbaycanın BMT orqanları sistemində, o cümlədən UNECE-də təşəbbüskar mövqeyi ilə seçildiyi, qurumun fəaliyyətinə mühüm töhfə verdiyi yüksək dəyərləndirilib.

Görüşdə həmçinin Azərbaycanın 2023-cü il ərzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramına (SPECA) sədrliyi qismində görülən işlər, SPECA çərçivəsində üzv dövlətlərlə əməkdaşlığın genişləndirilməsi, ticarətin və nəqliyyatın asanlaşdırılması məsələləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanın postpandemiya və postmünaqişə dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olduğunu qeyd edən nazir Ceyhun Bayramov 2030-cu ilədək Azərbaycanın Milli İnkişaf Prioritetləri barədə məlumat verib, strateji məqsədlərin Dayanıqlı İnkişaf Məqsədləri ilə sıx uzlaşdığını vurğulayıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə ölkəmizin işğaldan azad edilmiş ərazilərində 2050-ci ilə qədər "xalis sıfır emissiya" zonasının elan edilməsi, "yaşıl enerji zonası"nın yaradılması, bərpaolunan enerji mənbələrindən istifadə, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının yaradılması, transsərhəd su ehtiyatlarının davamlı idarə olunması və yaşıllıqların artırılması kimi bərpa və reabilitasiya layihələri və planları haqqında məlumat verib.

Ermənistan tərəfindən törədilmiş ekoloji terror, işğal nəticəsində dağıntılar, bölgədə geniş mina təhdidləri, eləcə də işğalın fəsadlarının aradan qaldırılması səyləri qarşı tərəfin diqqətinə çatdırılıb.

Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün reallaşdırılan layihələrə birgə dəstək verməyin vacibliyi vurğulanıb.

Tərəflər habelə qarşılıqlı maraq doğuran digər məqamlar üzrə fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

# Ermənistanın qeyri-konstruktiv mövqeyi kanadalı parlamentarinin diqqətinə çatdırılıb

**Sentyabrın 12-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili ölkəmizdə səfərdə olan Kanada parlamentinin Azərbaycanla dostluq qrupunun üzvü, İcmalar Palatasının deputatı Çandra Aryanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Kanada ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Tahir Mirkişili həm Kanada, həm də Azərbaycan parlamentində fəaliyyət göstərən dostluq qruplarının münasibətlərimizin inkişafındakı rolundan danışıb. O diqqətə çatdırıb ki, Azərbaycan öz torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra qarşı tərəfə beynəlxalq hüququn 5 əsas prinsipi əsasında sülh müqaviləsinin imzalanmasını və münasibətlərin normallaşdırılmasını təklif edib. Çünki Azərbaycan gələcəyə baxır və sülh tərəfdarıdır. Lakin Ermənistan qeyri-konstruktiv mövqe tutaraq bu prosesə müxtəlif vasitələrlə maneələr törədir.

Kanada parlamentinin Azərbaycanla dostluq qrupunun üzvü, İcmalar Palatasının deputatı Çandra Arya Azərbaycana səfərindən məmnunluğunu bildirərək, iki ölkə arasında parlamentlərarası, iqtisadi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin intensivliyinin artırılmasının vacibliyindən danışıb. O, multikultural ölkə olan Azərbaycanın iqtisadi inkişafı, Kanadada ictimai-siyasi proseslər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikirlərini ifadə edib.

*"Azərbaycan"*

# Azərbaycanla Əqli Mülkiyyət Təşkilatı arasında təhsil və təlim proqramları müzakirə edilib

**Sentyabrın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Daren Tanq ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında mövcud tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub, bu istiqamətdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycanda əqli mülkiyyət sahəsində aparılan ardıcıl islahatlar, beynəlxalq reytinq göstəricilərində ölkəmizin nəzərəçarpan irəliləyişləri haqqında qarşı tərəfə məlumat verib.

İqtisadiyyatın davamlı inkişafının, biliklərə əsaslanan cəmiyyətin formalaşdırılmasının və insan kapitalına investisiyaların qoyuluşunun başlıca strateji məqsədlərdən biri kimi müəyyənləşdirildiyi vurğulanıb.

Görüş zamanı Azərbaycanla Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlığın perspektivləri, təhsil və əqli mülkiyyət sahəsində təhsil və təlim proqramları ətraflı müzakirə edilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əmək və sosial siyasət komitəsinin iclasında

**Sentyabrın 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Komitə sədri Musa Quliyev sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara qarşıdakı fəaliyyətlərində uğurlar diləyib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, gündəliyin təsdiqindən sonra komitə sədri Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabatı təqdim edib. O, ötən sessiyalarda komitənin 11 iclasında 38 məsələyə baxıldığını bildirib, müzakirə olunan qanun layihələri barədə danışıb. Diqqətə çatdırılıb ki, hesabat dövründə komitəyə daxil olan ərizələr və şikayətlər üzrə müvafiq işlər görülüb.

Komitənin 2023-cü ilin payız sessiyası üçün iş planı barədə məlumat verən Musa Quliyev qeyd edib ki, bu sessiyada komitədə gələn ilin dövlət büdcəsi ilə bağlı məsələlərin, bir sıra qanun layihələrinin müzakirəsi, dinləmələrin keçirilməsi nəzərdə tutulub. Planda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyevin sosial siyasətinin təntənəsi" mövzusunda elmi-praktik konfransın keçirilməsi, həmçinin Səhiyyə komitəsi ilə birlikdə "Autizmin tibbi-sosial aspektləri və sosial müdafiə tədbirləri" mövzusunda dinləmənin təşkili öz əksini tapıb.

Sonra komitədə gündəlikdəki qanun layihələrinə baxılıb.

"Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verən komitə sədri sənəddə BƏT-in orqanları olan Beynəlxalq Əmək Ofisinin idarə olunması, Beynəlxalq Əmək Konfransının prosedur qaydaları ilə bağlı təklif olunan dəyişikliklərdən danışıb.

Gündəliyin 4-cü məsələsi olan "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Musa Quliyev bildirib ki, layihədə valideyn himayəsindən məhrum olmuş və ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış şəxslərin qanunvericiliklə müəyyən edilmiş hüquqlardan istifadənin əsasları təsbit olunub.

Gündəliyin sonuncu məsələsi olan Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev məlumat verib. O, sosial sığorta nömrəsinin istisnası halları, əmək müqavilələrində sınaq müddətinə qoyulan məhdudiyyətlər, işçilərin sosial sığorta münasibətlərinin tənzimlənməsi, həmçinin anlayışların konkretləşdirilməsi məqsədilə layihədə təklif olunan dəyişiklikləri diqqətə çatdırıb.

Komitə sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Səttar Möhbalıyev, Ziyad Səmədzadə, Əziz Ələkbərov, Sevinc Hüseynova, Vüqar Bayramov, Arzu Nağıyev və İlham Məmmədov çıxış edərək müzakirəyə çıxarılan məsələlər barədə fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

İclasda 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Əmək və sosial siyasət komitəsində görülən işlər məqbul hesab edilib, komitənin qarşıdakı payız sessiyası üçün iş planı təsdiq olunub.

Müzakirə olunan "Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə qanun layihəsi, həmçinin birinci oxunuşda olan "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə, o cümlədən Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# BMT-nin Cenevrə bölməsində bərpa edilmiş "Azərbaycan" otağının açılışı olub

**Sentyabrın 12-də xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Cenevrə bölməsində yeni dizayn və konsepsiya əsasında bərpa olunmuş "Azərbaycan" otağının açılışını edib. Açılışda BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, bir sıra ölkələrin Cenevrədəki daimi nümayəndələri iştirak ediblər.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbir zamanı çıxış edən nazir Ceyhun Bayramov və baş direktor Tatyana Valovaya BMT-nin Cenevrədəki Ofisinin səmərəli fəaliyyət göstərməsi üçün "Azərbaycan" otağının olduqca faydalı töhfə olduğunu vurğulayıblar.

2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən yaradılan otağın təmirinə 2022-ci ildə başlanıb. Ən yüksək texnologiyalar əsasında təmir edilən otaqda çox sayda monitor, kamera, audio-video avadanlıq və aksesuar quraşdırılıb. Otaq həmçinin qabaqcıl proqramlaşdırma ilə təmin olunub. Yaradılan texnoloji həllər qlobal şəkildə sinxronlaşdırılmış görüşlərin, təqdimatların və iclasların keçirilməsinə imkan verir.

Otağın tərtibatında milli elementlərə də xüsusi yer ayrılıb. Otağın girişindən etibarən Azərbaycanın tarixini, zəngin təbiətini əks etdirən fotolar habelə şəbəkə elementləri ilə dizayn edilib. Həmçinin Azərbaycanın memarlığını nümayiş etdirən fotolar xüsusi dizaynla təqdim edilib. Bundan əlavə, Qarabağ xalçası, şəbəkə eksponatı, muğam musiqisi alətləri nümayiş etdirilir.

Layihə Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Xatırladaq ki, BMT-nin Cenevrə Ofisində çox az sayda ölkə öz otağını yaratmağa nail olub. Ölkə otaqları BMT-nin müxtəlif tədbirləri zamanı fərqli sessiyaların, iclasların və müxtəlif formatlı görüşlərin keçirilməsi üçün istifadə olunur. Bu baxımdan, belə mötəbər bir binada "Azərbaycan" otağının fəaliyyəti ölkənin təqdimatı baxımdan yüksək önəm kəsb edir.

# Cenevrədə azərbaycanlı rəssam Faiq Əhmədin əsərlərindən ibarət xalça sərgisi açılıb

**Sentyabrın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində BMT-nin Cenevrədəki Ofisində azərbaycanlı rəssam Faiq Əhmədin əsərlərindən ibarət xalça sərgisinin açılışında iştirak edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, sərginin açılışına BMT-nin Cenevrədəki Ofisinin (UNOG) baş direktoru Tatyana Valovaya, Cenevrə şəhərində mövcud beynəlxalq təşkilatların rəsmiləri, xarici ölkələrin səfirləri qatılıblar.

Tədbirdə açılış nitqi ilə çıxış edən BMT-nin Cenevrədəki Ofisinin (UNOG) baş direktoru Tatyana Valovaya sözügedən sərginin Azərbaycanın zəngin mədəniyyətinin, xalçaçılıq sənətinin daha yaxından tanıdılması imkanı yaratdığını diqqətə çatdırıb.

Ekspozisiyası çoxlu sayda əsər və instalyasiyalardan, rəssamın yaradıcılığında mühüm yer tutan xalçalardan ibarət sərgi 12 gün ərzində BMT ofisinin ziyarətçilərinə açıq olacaq.



# Atəşlə oynama, Paşinyan!

## Yeni savaşın alovu səni də, separatçılarını da çox pis yandıracaq

**Tarixboyu buyruq qulu kimi kimlərəsə xidmət edən, ara qarışdıran, təxribat törədib başqasına şər atan, şantaj edən, xristian təəssübkeşliyindən yararlanan ermənilər bu gün də yaramaz vərdişlərindən qurtula bilmirlər. Əslində, qurtula da bilməzlər, çünki xəmirləri belə yoğrulub. Erməni xisləti necə var, elə də qalır və qalacaq. İkinci Qarabağ müharibəsindən ötən 3 il ərzində baş verən proseslərin gedişindən belə nəticəyə gələ bilərik ki, Hayastan kimi təcavüzkar, işğalçı, terrorçu ölkə ilə qonşu olduğu müddətdə Azərbaycan hər cür təxribata hazır olmalıdır.**

Son hadisələr göstərir ki, bu vassal ölkə hələ də müharibədən öncə savaş başlayacağı təqdirdə ona "dəstək" olacaqları vədini verib döyüşlər zamanı kənardan boylanan havadarlarının fitvasına gedərək hər cür çirkinliklərə əl atır. Qarabağda baş verənlər bu ölkənin siyasi manipulyasiyalarının hansı məqsədlərə xidmət etdiyini aydın şəkildə göstərir. Azərbaycan kosmos və hərbi sənayesinin müasir imkanları ilə Hayastanın "humanitar böhran" şousunun pərdəarxası oyunlarını ifşa edən videogörüntülərlə dünyaya, əslində, kimin yeni savaşa hazırlaşdığını göstərməkdədir.

Bunu təsdiqləyən faktlar var. Azərbaycan Müdafiə Nazirliyinin son günlərdə yaydığı məlumatlara əsaslanaraq deyə bilərik ki, Ermənistan Qarabağda kütləvi şəkildə müxtəlif ərazilərə yeni minalar basdırır. Bununla yanaşı, Ermənistan açıq şəkildə hərbi avantüraya girərək səngərlər qazır, istehkamlar qurur, sərhədə şəxsi heyət və texnika toplayır. Sentyabrın 8-i saat 19:05-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa, sentyabrın 9-10-11-də Xocavənd, Füzuli və Ağdam rayonları istiqamətində yerləşən mövqelərimiz qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər.

Sentyabrın 10-u saat 09:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Füzuli rayonu istiqamətində yerləşən mövqeləri qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər. Ordumuzun bölmələri tərəfindən görülən tədbirlər nəticəsində aparılan işlər dayandırılıb. Sentyabrın 10-da Azərbaycan Ordusunun hərbi qulluqçusu Ağdam rayonu ərazisində bölmələrimizin təminat yolunda qeyri-qanuni erməni silahlı dəstələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən təxribat məqsədilə basdırılmış piyada əleyhinə minaya düşərək xəsarət alıb.

Bütün bunlar Ermənistanın mina terrorunun davam etdiyini və məğlub ölkənin məkrli niyyətlərindən əl çəkmədiyini təsdiqləyən faktlardır. Ermənilərin bu hərəkətləri 2020-ci il sentyabrın 27-nə gedən yolu xatırladır. Amma yeni savaşa hazırlaşan Ermənistan dünyaya car çəkərək Azərbaycanın müharibə hazırlığı barədə uydurma, yalan informasiyalar tirajlayır.

Axı müharibə bizim nəyimizə lazımdır?!

Bu üzdəniraq haylar anlamırlar ki, təxribat törətmək, atəşkəsi pozmaq və hətta yeni savaş bizə lazım deyil. Düşməni torpaqlarımızdan qovub ərazilərimizin suverenliyini təmin etmişik. İndi də yalnız öz iqtisadi qüdrətimiz hesabına hayların 30 ildə viran qoyduqları yurd yerlərimizi yenidən qururuq. Bizə yeni savaş yox, sülh, təhlükəsizlik lazımdır. Elə Qarabağın erməni əhalisi də bunun tərəfdarıdır. Amma separatçılar, terrorçular çalışırlar ki, bölgədə sabitlik bərqərar olunmasın. Çünki İkinci Qarabağ müharibəsi 30 illik işğalla yanaşı, separatçıların silah-sursat və narkotik alverlərinə də son qoyub. Daha Qarabağ və Şərqi Zəngəzur narkotik alveri üçün tranzit məkan deyil. İndi bu ərazilər öz sahibinin ixtiyarındadır və orada yalnız Azərbaycan qanunları işləyir.

İrəvanın siyasi hakimiyyətinin sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləməsi fonunda separatçılara dəstək verməsi isə həqiqətləri ortaya çıxarır. Görünən odur ki, regionda maraqları olan bəzi dairələr Cənubi Qafqazda sabitliyin tərəfdarı deyillər. Bu səbəbdən də yenə Ermənistanı əllərində alət kimi oynadırlar.

Hayastan da, onun havadarları da yaxşı bilirlər ki, Azərbaycan Ordusunun qarşısına çıxara biləcəkləri qüvvələri yoxdur. Yeni savaşa hazırlıq görüntüsü yaradıb əsas məsələdən (sülh müqaviləsinin imzalanmasından) diqqət yayındırmağa çalışan Ermənistan anlayır ki, 30 il ərzində möhkəmləndirdiyi bunkerlər, "keçilməz" dedikləri "Ohanyan səddi" cəmi bir neçə gündə Azərbaycan əsgəri tərəfindən darmadağın edildi. İndi köstəbək kimi tezbazar qazmaq istədikləri səngərlərin haylara yalnız bir xeyri ola bilərdi. Separatçıların leşlərini basdırmaq üçün yenidən əziyyət çəkib xəndək qazmayacaqlar.

Əgər Ermənistanın sərhəddəki eskalasiya cəhdləri növbəti müharibəyə səbəb olacaqsa, bu, erməni xalqına yalnız fəlakət gətirəcək. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyev bu ölkəyə və onun siyasi rəhbərliyinə xəbərdarlıq edərək bildirib ki, təxribat xarakterli addımlar atılarsa, Hayastan peşman olacaq. Çünki "dəmir yumruğ"un növbəti zərbəsi daha sərt və amansız olacaq. Məğlub Ermənistan bundan sonra nə qədər pulsuz silah-sursatla təmin edilsə belə erməni hərbçisinin Azərbaycan Silahlı Qüvvələrinin qarşısına çıxmağa cürəti çatmaz. Çünki Azərbaycan əsgərində yüksək döyüş ruhu var. 44 günlük İkinci Qarabağ müharibəsi bunu sübuta yetirib.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# XİN: "Rusiyanın göndərdiyi yükün Ağdam-Xankəndi yolundan keçməsini mühüm irəliləyiş kimi qiymətləndiririk"

**"Məlum olduğu kimi, bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qızıl Xaç Cəmiyyətinin (RQXC) yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndinə keçidi təmin olunub. Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk".**

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə RQXC tərəfindən göndərilən yükün Ağdam-Xankəndi yolu ilə keçidi, habelə Ağdam-Xankəndi və Laçın yollarının eyni zamanda açılması məsələsi ilə bağlı yerli medianın suallarına cavabında deyib.

"Ağdam-Xankəndi və Laçın yollarından eyni vaxtda istifadə məsələsinə gəldikdə isə Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksəksəviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz bu iki yoldan BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təəssüf ki, bu razılığın da həyata keçirilməsinə mane olan tərəf Ermənistan tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejimdir.

Bir daha bəyan edirik ki, Azərbaycan tərəfi Ağdam-Xankəndi yolu ilə paralel olaraq, Laçın sərhəd-buraxılış məntəqəsində müvafiq olaraq sərhəd və gömrük prosedurlarına əməl etməklə BQXK vasitəsilə yüklərin daşınmasına şərait yaratmağa hazırdır", - deyə Ayxan Hacızadə vurğulayıb.

# Paşinyan Rusiya ilə vidalaşmaq niyyətindədir




**Ermənistanın baş naziri Nikol Paşinyanın "telefon diplomatiyası" yenə işə düşüb. Nikol son günlər Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, ABŞ-nin Dövlət katibi Entoni Blinken, İran Prezidenti İbrahim Rəisi, Almaniya Kansleri Olaf Şoltsa zəng vurub. Tərəflər Qarabağda vəziyyəti və Ermənistan-Azərbaycan sərhədindəki gərginliyi müzakirə ediblər. Ermənistan baş naziri Paşinyan telefon danışığı zamanı qeyd edib ki, 2022-ci il oktyabrın 6-da Praqada və 2023-cü il mayın 14-də Brüsseldə əldə edilmiş razılaşmalar əsasında bütün məsələlərin müstəsna olaraq diplomatik vasitələrlə və konstruktiv atmosferdə həllinə dair yanaşmalara sadiqdir. Bu, Nikol Paşinyanın növbəti riyakarlığıdır. Çünki sözdə dediyini kağızda təsdiqləmir.**

Bu arada Yelisey sarayının yaydığı məlumata görə, Fransa Prezidenti Emmanuel Makron da Ermənistanın baş naziri Nikol Paşinyana zəng edib. Məlumatda qeyd edilir ki, Makron Paşinyanla Ermənistan və Azərbaycan sərhədində artan gərginliyi müzakirə edib.

Diqqətçəkən məqam budur ki, erməni baş nazirinin zəng vurduğu dövlət başçılarının siyahısında Rusiyanın Prezidenti Vladimir Putinin adı yoxdur.

Hadisələrin gedişi göstərir ki, Paşinyan Rusiyasız Cənubi Qafqaz uğrunda Qərbin savaşına oyunçuluq edir. Elə Nikolun region dövlətlərinin başçılarına, o cümlədən Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə zəng vurmasının əsas səbəbi də bu ola bilər. Xatırladaq ki, 44 günlük müharibədən sonra Azərbaycan vasitəçisiz, Cənubi Qafqazın üç dövlətinin danışıqlar masası arxasında oturub regionun problemləri haqqında birgə müzakirə təklif etmişdir...

Separatçıların Rusiyanın göndərdiyi ərzağı vaxtında qəbul etməməsi də Qarabağda uydurulmuş "humanitar fəlakət" hay-küyünün şoudan başqa bir şey olmadığını bütün dünyaya göstərdi və artıq xarici mətbuatda bu mövzuda silsilə yazılar dərc edilməkdədir. Yeni baş separatçı Samvel Şahramanyan "seçki"dən sonra ilk çıxışında sələflərindən fərqli bir söz demədi. "Dağlıq Qarabağ status almalıdır, üçüncü ölkənin təminatı ilə Bakı ilə danışmalıyıq, Ermənistanla əlaqə Laçın dəhlizi vasitəsilə birbaşa olmalıdır və ola bilsin ki, başqa yollar da açılsın, amma onlar dəhlizi əvəz edə bilməz".

Azərbaycanın mövqeyi məlumdur, olduqca aydın, konkret və qətidir. Hər hansı statusdan söhbət belə gedə bilməz. Qarabağda yaşayan icma nümayəndələri ya Azərbaycan qanunları ilə yaşamalı, dövlətimizin reinteqrasiya təklifini qəbul etməli, Ermənistanın Qarabağda saxladığı qanunsuz silahlı dəstə tezliklə ölkəmizin ərazilərini tərk etməlidir. Yaxud da... yol açıqdır.

Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mətbuata açıqlamasında qeyd edib ki, Laçın sərhəd-buraxılış məntəqəsində Azərbaycanın gömrük və sərhəd nəzarəti rejiminə əməl edilməlidir: "Yalan və uydurma seçkilər, ya da seçimi ciddi uğursuzluq və əks-məhsuldar adlandırmaq istərdim. Qanunsuz marionet rejimi ləğv edilməli və tərksilah edilməlidir. Bu, Qarabağın erməni və azərbaycanlı sakinlərinin yaşaya və birgə mövcud ola biləcəyi davamlı sülhü təmin etməyin yeganə yoludur".

Bu arada qondarma rejimin yeni seçilmiş "hakimiyyət orqanları" bəyan ediblər ki, "blokada"nın yaratdığı kəskin "humanitar problemlər"in yumşaldılması zərurətindən çıxış edərək, Rusiya mallarının sülhməramlıların vasitəsilə Qarabağa daxil olmasına icazə vermək qərarına gəliblər".

Ermənistan mətbuatı Rusiyadan gələn "humanitar yükün" Ağdam-Xankəndi yolu ilə buraxılmasını şərh edərək yazır ki, ruslar tanınmamış "DQR" rejimi ilə ultimatum dilində danışıblar: "Maraqlıdır, Araik Arutyunyanın dönəmində Samvel Şahramanyanın bir çox tərəfdarı Ağdam yolunun istismarından kəskin şəkildə imtina etdiyi halda yeni "iqtidar" Ağdam vasitəsilə yüklərin qəbuluna niyə razı oldu?" KİV-in məlumatına görə, separatçı rejim "hakimiyyət"inin yuxarıda qeyd olunan qərarından əvvəl Samvel Şahramanyanla Rusiyanın Qarabağda müvəqqəti yerləşmiş sülhməramlı missiyasının nümayəndələri arasında uzunmüddətli danışıqlar aparılıb: "Qərardan əvvəl bir neçə saat çətin söhbət olub. Ruslar əmin ediblər ki, bu, Laçına yolu açmaq üçün son şansdır və istənilən qərar Qarabağda yeni müharibəyə gətirib çıxara bilər. Hazırda istər Qarabağda, istərsə də Ermənistanda Rusiya ilə münasibətlər gərginləşən xətt üzrə inkişaf edir".

Azərbaycan pillə-pillə de-fakto yurisdiksiyasını Qarabağda bərpa edir.

Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatında qeyd edilir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə RQXC-nin yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndinə keçidi təmin olundu. Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# Ermənistan törətdiyi təxribatlarla öz miskin sonunu yaxınlaşdırır

**Son aylar Ermənistan ölkəmizə qarşı təxribatlarını genişləndirib. Bu ölkə açıq şəkildə nümayiş etdirir ki, sülh istəmir. Odur ki, hər vəchlə vəziyyəti gərginləşdirməyə çalışır. Bunun üçün də bütün yaramaz vasitələrə əl atır. Təxribatçı ermənilər, necə deyərlər, dondan dona girirlər. Onlar gah "məzlum", "yazıq" "əzabkeş" kimi görünməyə çalışır, gah da özlərinin əsl simalarını göstərirlər.**

Qarabağ regionunda "humanitar böhran" yaşanması, Xankəndi və ətraf kəndlərdə erməni əhalisinin aclıq oyunu, əslində, Ermənistanın siyasi oyunu idi. Bununla beynəlxalq ictimaiyyəti aldatmağa, dövlətimiz, xalqımız barədə əsası olmayan fikirlər formalaşdırmağa çalışırdı, baş tutmadı. Nə Qarabağ regionunda humanitar böhran var, nə də Xankəndi və ətraf kəndlərdə erməni əhalisi ehtiyac içində yaşayır.

### "...biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik"

Xankəndi və ətraf kəndlərdə yaşayan ermənilərin taleyi, əslində, rəsmi İrəvanı qətiyyən maraqlandırmır. Belə olmasaydı, Ermənistan xarabalığa çevirdiyi Qarabağı Azərbaycanın yenidən cənnətməkan etməsinə, orada yaşayan ermənilərin də ağ günə çıxmasına mane olmağa çalışmazdı.

Azərbaycan Prezidenti İlham Əliyev bu il Bakıda "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda keçirilən X Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında da Azərbaycanın çoxkonfessiyalı, multietnik ölkə olduğunu, milli azlıqların hüquqlarının Konstitusiyamız tərəfindən qorunduğunu bir daha diqqətə çatdırdı. Dövlətimizin başçısı Azərbaycanda müxtəlif etnik qruplar və konfessiyaların nümayəndələrinin ləyaqətli və dinc şəraitdə yaşadıqlarını qeyd etdi. "Ona görə əminəm ki, Azərbaycanın Qarabağ regionunda yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq, bundan sonrakı dövrdə daha yaxşı olacaq", - dedi.

Azərbaycan bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də Ermənistanla qətiyyən müqayisə olunmayacaq dərəcədə güclüdür. Ümumiyyətlə, xaricdən dəstək almadan yaşamaq iqtidarında olmayan Ermənistanın bizim ölkədə yaşayan ermənilərin qayğısına qalması gülüncdür, eyni zamanda da düşündürücüdür. Və Ermənistan məsələni nə qədər dolandırmağa səy göstərsə də, məqsədini müxtəlif yalanlarla, şərlə, böhtanla ört-basdır etmək istəsə də, əsl həqiqəti bilməyən yoxdur. Rəsmi İrəvan Azərbaycana qarşı ərazi iddiasına son qoymayıb, separatizmi dəstəkləməkdə davam edir. Azərbaycanın mövqeyi isə bəllidir. Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verilməyəcək.

### Ermənistanın sərhəddə qoşun yığması hərbi təxribat planının tərkib hissəsidir

Xarici havadarlarının dəstəyinə güvənən Ermənistanın 44 günlük Vətən müharibəsindən dərs almaması təəssüf doğurur. Özü üçün dərin quyu qazdığını isə yəqin ki, yalnız o quyuya düşdükdən sonra dərk edəcək. Son günlər Ermənistanın qurduğu planlar, həyata keçirdiyi və ya keçirməyə çalışdığı işlər bunu göstərir.



Onsuz da işğalda saxladığı otuz ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzur ərazilərini mina tarlasına çevirmiş işğalçı dövlət Vətən müharibəsi başa çatdığı vaxtdan indiyədək məkrli əməllərini davam etdirir. Bu günlərdə Azərbaycanın Müdafiə Nazirliyindən məlumat verildi ki, Qarabağ iqtisadi rayonundakı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri ərazilərimizə kütləvi şəkildə yeni minalar döşəyir. Bildirildi ki, son dövrlərdə Qarabağ iqtisadi rayonundakı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin ərazilərimizə kütləvi şəkildə yeni minalar döşəməsi, bununla da Azərbaycana qarşı mina terroru siyasətini davam etdirməsi müşahidə edilməkdədir.

İşğalçı dövlətin böyük bir təxribat planı hazırladığı, mina terrorunun bu planın bir hissəsi olduğu artıq kimsəyə sirr deyil. Son günlər Ermənistan silahlı qüvvələrinin qoşun hissələrinin Azərbaycanla delimitasiya olunmamış dövlət sərhədində, Qarabağ bölgəsinə yaxın ərazilərdə, həmçinin Naxçıvan Muxtar Respublikası istiqamətində cəmləşdirilməsi işğalçı ölkənin hərbi təxribatlara əsaslanan planının tərkib hissəsi olduğu hamıya məlumdur.

Ermənistan təxribatlarını regionda sülhün yaranmasında maraqlı olmayan Fransanın və digər qüvvələrin təsiri ilə davam etdirir. İşğalçı dövlət bütün dünyanın gözü önündə, heç nədən çəkinmədən bölgəni müharibə ocağına çevirməyə çalışır. Son günlər xarici ölkələrdən silah almaqla və sərhədə qüvvələr cəmləşdirməklə yeni müharibə təhlükəsi yaradan Ermənistan bu dəfə də ən böyük zərbəni özünə vurduğunu unudur.

Azərbaycan dövləti öz ərazi bütövlüyünü qorumaq məqsədilə bundan sonra da qətiyyətlə lazımi addımlar atacaq. Bunun üçün siyasi, iqtisadi, hərbi gücü var. Dostlarımız kimi, düşmənlərimiz də bunu yaxşı bilirlər. Azərbaycan xalqının mənəvi gücü, iradəsi, vətən eşqi də bütün dünyaya bəllidir. Bu, 2020-ci ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qismən səfərbərlik əmrini eşitdiyi an hərbi komissarlıqlara axışan, ön cəbhəyə can atan övladlar yetişdirən xalqdır. Elə övladlar ki Vətən müharibəsində göstərdikləri rəşadətlə yalnız Azərbaycanın deyil, dünyanın qəhrəmanlıq salnaməsinə adlarını yazdılar.

Vətən müharibəsi zamanı da Azərbaycan hərbi texnikasına görə öncül dövlətlərdən biri idi. Ürəkləri Vətən sevgisi ilə döyünən igid oğullar o müasir hərbi silahları sinələrinə söykəyib düşmənin başına od ələdilər. İşğalçı Ermənistanın silahlı qüvvələrini darmadağın etdilər.

O böyük sevgi - Vətən sevgisi dünən də vardı, bu gün də var, sabah da olacaq. O sevgi Azərbaycanın özü qədər qədim və eyni zamanda da Azərbaycanın özü kimi müasirdir.

Ermənistan belə bir ölkəyə, belə bir xalqa qarşı planlaşdırdığı, həyata keçirməyə çalışdığı təxribatlarla öz miskin sonunu hazırlayır.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 12-si saat 09:45-dən 10:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Birəli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Sədərək yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan bir neçə dəfə atəşə tutub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Azərbaycanın şərtləri yerinə yetirildi

## Ağdam-Xankəndi yolu ilə humanitar yardımın keçidi təmin olundu

**Ermənistanın aylardır davam edən "humanitar fəlakət" şousunun yekunlaşdığını deyə bilərik. Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolu artıq açılıb. Belə ki, ötən gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qızıl Xaç Cəmiyyətinin yük avtomobilinin bu yolla Xankəndiyə keçidi təmin olunub.**




Xarici İşlər Nazirliyi məlumatında bildirib ki, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndirir.

Qeyd olunub ki, Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksəksəviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz Ağdam-Xankəndi və Laçın yollarından BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təbii ki, keçid yalnız Azərbaycanın sərhəd və gömrük prosedurlarına əməl edilməklə həyata keçiriləcək.

Bütün proseslər bir daha göstərir ki, Azərbaycan hər zaman verdiyi sözə, humanizm prinsiplərinə sadiqdir, regionda təhlükəsizliyin və əmin-amanlığın bərqərar olması üçün lazımi addımlar atır. Amma Ermənistan üzərinə götürdüyü öhdəliklərdən yayınaraq, törətdiyi təxribatlar, şoular ilə sülhün təmin edilməsində maraqlı olmadığını göstərir.

### Ağdam-Xankəndi yolunun açılması Ermənistanın geri çəkildiyinin göstəricisidir

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Ağdam-Xankəndi yolu ilə yükün daşınması birmənalı olaraq Azərbaycanın iradəsinin keçici olduğunu göstərdi.

Deputat qeyd edib ki, Azərbaycan özünün suverenliyinə, ərazi bütövlüyünə ardıcıl qəsd cəhdlərinin qarşısını alıb: "Ermənistan tərəfindən göndərilən 21 yük maşınının Laçın yolunun girişində uzun zaman dayanması və Azərbaycanın bu yük maşınlarının ərazilərinə girməsinə icazə verməməsi dövlətimizin gücünün, qətiyyətinin iradəsinin göstəricisi idi. Yəni Ermənistan rəsmi Bakıdan icazə almadan Azərbaycan ərazilərinə yük göndərməyə cəhd etməklə göstərmək istəyirdi, ki, Laçın yolu Ermənistanın istəyinə uyğun olaraq elə dəhliz formatında qalacaq. Azərbaycan isə nümayiş etdirdi ki, Laçın-Xankəndi yolu tamamilə Azərbaycanın nəzarəti altındadır. Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurmaqla Azərbaycan öz ərazi bütövlüyünü tamamlamış oldu və öz ərazisinə giriş-çıxışa nəzarəti bərpa etdi".

Azərbaycanın nəzarətində olmadığı dövrdə Laçın-Xankəndi yolu vasitəsilə Ermənistanın separatçılara silah-sursat ötürdüyünü xatırladan E.Mirbəşiroğlu bildirib ki, dövlətimiz tərəfindən bu yol nəzarətə alındıqdan sonra separatçıların nəfəsliyinin qarşısı alındı. Azərbaycan tərəfi bəyan etdi ki, ölkəmizin icazəsi olmadan ərazilərimizə yük maşınlarının keçirilməsi suverenliyə, ərazi bütövlüyünə qəsd cəhdləridir. Digər tərəfdən Azərbaycan yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif etməklə özünün xoş niyyətini bir daha nümayiş etdirdi.

Ermənistan və separatçılar, onların Avropadakı, ABŞ-dəki lobbiçiləri heç bir əsas olmadan dünyaya səs salıblar ki, Qarabağda yaşayan ermənilər guya blokada şəraitindədirlər. Amma Azərbaycan Ağdam-Xankəndi yolunu təklif etməklə göstərdi ki, Ermənistan və separatçılar sadəcə olaraq Laçın yolu ətrafında və Azərbaycan ərazisində yaşayan ermənilərin "humanitar vəziyyət"i üzərindən siyasi manipulyasiyalar etməkdədirlər.

Deputat qeyd edib ki, son günlərə qədər Ağdam-Xankəndi yolunun adı belə çəkilmirdi. "Onda sual yaranırdı ki, həqiqətən separatçıların iddia etdiyi kimi humanitar böhran vəziyyəti mövcuddursa, Azərbaycanın təklifi niyə qəbul olunmur? Yəni bu yolu təklif etməklə separatçıları da, təcavüzkar Ermənistanı da ifşa etdik. Onların siyasi manevr imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırdıq. Ağdam-Xankəndi yolu ilə yüklərin daşınmasının mümkün olması separatçıların və Ermənistanın geri çəkildiyinin, müvafiq olaraq Azərbaycanın öz ərazisindəki proseslərə nəzarətetmə imkanlarının göstəricisidir", - deyə deputat əlavə edib.

Onun sözlərinə görə, Ağdam-Xankəndi yolunun açılmasından sonra Laçın-Xankəndi yolunun açılmasının mümkünlüyünü Azərbaycan tərəfi qəbul etdi və bu yol ölkəmizin gömrük və sərhəd buraxılış normalarına uyğun fəaliyyət göstərə bilər. Bu da Azərbaycanın təbii hüququdur. Separatçılar və Ermənistan, eyni zamanda onların ABŞ-dəki və Avropadakı dəstəkləyiciləri israrla tələb edirdilər ki, Laçın yolu əvvəlki kimi dəhliz formatında açıq, hərəkət üçün tam sərbəst olsun. Bu, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü şübhə altına almaq cəhdləri idi. Hər bir dövlət kimi, Azərbaycan da öz sərhədlərində giriş-çıxışa nəzarətini həyata keçirmək hüququna malikdir və dövlətimiz buna nail oldu.

Deputat qeyd edib ki, beləliklə, bütün ərazilərimiz boyunca suverenliyimizin etibarlı təmin olunması istiqamətində növbəti uğurlu addım atılıb.

### Azərbaycanın növbəti uğuru

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Azərbaycan hər zaman üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib və bununla bağlı dəfələrlə rəsmi açıqlama və bəyanatları olub: "Prezident İlham Əliyev hər zaman verdiyi sözə əməl edib. Son məsələ bunu bir daha göstərdi. Təəssüf ki, Ermənistan, eləcə də bir sıra Qərb dövlətləri və dairələri ermənilərin çirkin oyununun elementinə çevriliblər və Azərbaycana qarşı təzyiqlərə başlayıblar. Ancaq proseslər onu göstərdi ki, Ermənistanın dediyi kimi, Azərbaycanın əsas hədəf və məqsədi humanitar böhran yaratmaq deyil. Bizim əsas məqsədimiz beynəlxalq hüquqa əməl olunması və Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşılması, əsassız iddialara, təxribatlara son qoyulması idi".

C.Məmmədov düşünür ki, Ağdam-Xankəndi yolunun açılması ilə Qarabağa humanitar yükün çatdırılması Azərbaycanın növbəti uğurudur. Azərbaycan prinsipial və qətiyyətli mövqe nümayiş etdirərək yüklərin bu yoldan keçirilməsinə nail oldu.

Deputat hesab edir ki, bu, Azərbaycanın növbəti qələbəsi kimi qəbul edilməlidir. Ölkəmiz üzərinə götürdüyü öhdəliyi yerinə yetirir. Eyni zamanda Ermənistan tərəfindən tələb edir ki, qanunlarımıza hörmət etsin, təxribatlarına son qoysun.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Azad edilmiş ərazilərdə döyüş növbətçiliyi və hərtərəfli təminat yüksək səviyyədədir

**Azərbaycan Ordusunun bölmələrinin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən zəruri tədbirlər davam edir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, azad edilmiş ərazilərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun olaraq qoşun xidməti və sutkaboyu döyüş növbətçiliyi təşkil olunur, fasiləsiz xidmət aparılır.

Döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır, onların döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanması üçün mütəmadi olaraq məşğələlər keçirilir. Asudə vaxtlarda hərbi qulluqçularımıza ölkəmizdə və dünyada baş verən ictimai-siyasi vəziyyət haqqında məlumat verilir.

Eyni zamanda şəxsi heyət mövsümə uyğun geyimlə, təzə və yüksək kalorili isti qida ilə fasiləsiz təmin olunur.

Peşəkar hərbi qulluqçularımız hər an ehtimal olunan istənilən təxribatın qarşısını almağa hazır və qadirdir.

# Müdafiə naziri Rusiya sülhməramlılarının yeni komandanı ilə görüşüb



**Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir qonaqları salamlayaraq Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimada əsaslandığını qeyd edib.

Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Z.Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını xüsusi vurğulayıb.

Öz növbəsində Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı O.Salyukov səmimi qəbula görə təşəkkürünü bildirib, ikitərəfli əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edib.

# Türkiyənin baş prokuroru Bəkir Şahin Azərbaycanda səfərdədir

**Bakıda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 4-cü iclasında iştirak etmək üçün baş prokuror Kamran Əliyevin dəvətilə Türkiyənin baş prokuroru Bəkir Şahin ölkəmizə rəsmi səfərə gəlib.**



Baş prokurorluqdan AZƏRTAC-a bildirilib ki, bu gün Kamran Əliyevlə türkiyəli həmkarı arasında keçirilən görüş zamanı iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi qeyd olunub.

Kamran Əliyev qonaqlara ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə məlumat verib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Bəkir Şahin təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

Görüşdə həmçinin Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı iştirak edib.

# Azərbaycan-Macarıstan münasibətlərinin inkişaf istiqamətləri müzakirə edilib

**Macarıstanın Baş naziri Viktor Orban bu ölkədə səfərdə olan iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbulda Macarıstanla aparılan müzakirələrin vacibliyi vurğulanıb, əldə edilən razılaşmaların uğurla həyata keçirilməsindən məmnunluq ifadə olunub, Azərbaycan-Macarıstan münasibətlərinin inkişaf dinamikası, iqtisadi əməkdaşlığın perspektivləri və birgə layihələr üzrə tərəfdaşlığın səmərəli nəticələri barədə fikir mübadiləsi aparılıb.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto və iqtisadi inkişaf naziri Marton Nadın da iştirak etdiyi görüşdə Viktor Orban ölkəsinin enerji təhlükəsizliyi baxımından Azərbaycanla əməkdaşlığının əhəmiyyətinə toxunub, həmçinin bir sıra Macarıstan şirkətlərinin fəaliyyətinin Azərbaycanda uğurla genişləndiyini, digər macar şirkətlərinin də Azərbaycanda investisiya planlarının gündəlikdə olduğunu vurğulayıb.

Qeyd edilib ki, tərəfdaşlığın genişlənməsi qarşılıqlı marağın göstəricisidir ki, Azərbaycan-Macarıstan ticarət dövriyyəsi artır, faydalı investisiya əməkdaşlığı həyata keçirilir. Bildirilib ki, energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət, təhsil və s. sahələrdə əlaqələrin gücləndirilməsi üçün imkanlar böyükdür və hər iki ölkə bu potensialın reallaşdırılması üçün zəruri tədbirlər görür.

Səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.

Tərəflər Azərbaycan-Macarıstan əlaqələrinin strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığını, hər iki ölkə rəhbərliyinin əməkdaşlığın inkişafına, mövcud potensialdan səmərəli istifadəyə xüsusi önəm verdiklərini vurğulayıblar.

Görüşdə Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonasının imkanları barədə də məlumat verilib, Macarıstan şirkətləri ölkəmizin əlverişli biznes mühitindən, tranzit potensialından yararlanmağa dəvət edilib.

# Mənfur erməni xisləti

## Bu sifətin sahibləri mina terrorunu davam etdirirlər

**30 illik işğal dövründə torpaqlarımızı mina tarlasına çevirən təcavüzkar Ermənistan 44 günlük müharibədən sonrakı müddətdə də mənfur xislətindən əl çəkməyib və xalqımızı hədəfə alan mina terrorunu günümüzədək davam etdirir. Qatil ermənilər müxtəlif xain və insanlıqdan uzaq üsullardan istifadə edərək vətəndaşlarımızı mina partlayışlarının qurbanına çevirirlər.**




Elə cari il sentyabrın 11-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin itin üzərinə uzaqdan idarə olunan əldəqayırma (improvizə edilmiş) partlayıcı qurğu bağlayaraq mövqelərimiz istiqamətində hərəkət etməyə məcbur etmələri erməni xəbisliyinə daha bir sübut, insanlıq adına daha bir utancverici hərəkət oldu.

Özlərini dünyaya "ən mədəni" xalq kimi sırımağa cəhd edən ermənilərin heyvanlardan sui-qəsd məqsədilə istifadə etmələri həm də bu vəhşi tayfanın mənəviyyatsızlığını, barbarlığını açıb dünyaya göstərdi. O dünyaya ki, 30 il ərzində ərazilərimizin Ermənistan tərəfindən işğalına, yüzminlərlə insanımızın yurdundan didərgin salınmasına, xalqımızın erməni qatilləri tərəfindən soyqırımlarına, qətllərə məruz qalmasına heç bir reaksiya verməyib, Ermənistana hansısa təzyiq, sanksiya göstərməyib.

### Oyuncaqlara partlayıcı qurğu yerləşdirərək uşaqlarımızı hədəfə alıblar

Amma dünya görmək, bilmək istəməsə də, Azərbaycan xalqı uşaq qatili ermənilərin xain, murdar xislətinə yaxşı bələddir. Son iki əsrdir ki, erməni faşizmi ilə üz-üzə qalan xalqımız ermənilərin törətdikləri saysız-hesabsız terrorların qurbanlarına çevriliblər.

2011-ci ilin iyul ayında Azərbaycanın Tovuz rayonunun Ermənistanla həmsərhəd Əlibəyli kəndində baş verən tükürpədici hadisə hələ də unudulmayıb. Həmin vaxt ermənilər partlayıcı qurğu quraşdırılmış "itəbənzər" uşaq oyuncağını Ermənistan tərəfindən Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxmışdılar. O zaman ərazidə oynayan 13 yaşlı Şahmalıyeva Aygün Zirəddin qızının oyuncağı taparaq oynatması nəticəsində partlayış baş vermiş, yeniyetmə faciəvi şəkildə həyatını itirmişdi.

1994-cü ildə də həmin ərazidə analoji hadisə baş vermiş, Ermənistan tərəfindən çaya buraxılan oyuncağı götürərkən partlayış baş verməsi nəticəsində iki azyaşlı uşaq həlak olmuş, biri isə yaralanmışdı.

Erməni vəhşiliyini sübut edən bu kimi dəhşətli faktlar minlərlədir...

2023-cü ilin sentyabrında heyvandan sui-qəsdçi kimi istifadə etmələri də göstərdi ki, zaman keçsə də, erməninin qatil, xain, murdar xisləti dəyişmir.

### "Boz zona"nın hər perimetri boyunca minaları yerləşdirməyə davam edirlər

İşğal dövründə ermənilər torpaqlarımızda 1 milyondan çox mina basdırıblar və hələ də dəqiq mina xəritələrini Azərbaycana təhvil verməyiblər. Bu isə keçmiş məcburi köçkünlərimizin öz yurdlarına qayıdışına böyük əngəl yaradır.

44 günlük Vətən müharibəsindən sonra da ermənilər terror siyasətlərini davam etdirərək Azərbaycan xalqını hədəfə alıblar. İkinci Qarabağ müharibəsinin başa çatmasından sonrakı dövr ərzində ərazilərimizdən 2021-ci il Ermənistan istehsalı olan xeyli sayda minalar aşkarlanıb. Təcavüzkar ölkənin mina terroru sayəsində günümüzə qədər də günahsız insanlarımız həlak, yaxud şikəst olurlar.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında məlumat verib ki, 1991-ci ildən bu günə kimi 3385 azərbaycanlı Ermənistanın minalarının qurbanı olub.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan və qeyri-qanuni marionet xunta rejimi Ermənistanda istehsal olunan minaları "boz zona"nın hər perimetri boyunca yerləşdirməyə davam edir.

Yeri gəlmişkən, onu da bildirək ki, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində döyüş növbətçiliyi aparan hərbi qulluqçularına qarşı itdən sui-qəsdçi kimi istifadə etməklə terror aktı törətməyə cəhd edən Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin bu əməlini "əxlaqsız terror aktı" kimi qiymətləndirib.

Prezidentin köməkçisi sosial şəbəkədə bununla bağlı yazıb: "Ermənistan silahlı qüvvələrinin və marionet rejiminin qanunsuz qüvvələrinin uzaqdan idarəolunan partlayış bombası ilə təchiz edilmiş itlərdən istifadə etməklə Azərbaycana qarşı növbəti əxlaqsız terror aktı. Əxlaqsızlıq sərhəd tanımır!"

### Beynəlxalq ictimaiyyət erməni terrorizminə göz yummamalıdır

Azərbaycan Müdafiə Nazirliyinin Ermənistanın sözügedən terror aktı ilə bağlı məlumatında bildirilib ki, bu təxribatı Adi silahların müəyyən növlərinin istifadəsinə qadağa və məhdudiyyətlərə dair Konvensiyanın Minaların, mina-tələlərinin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında protokoluna zidd olan əməl kimi qətiyyətlə pisləyirlər.

Ermənilərin sentyabrın 11-də həyata keçirdikləri terror aktı zamanı heyvandan sui-qəsdçi kimi istifadə etmələri həm də heyvanların sağlamlıqları və hüquqları ilə bağlı BMT konvensiyasını pozub.

Xatırladaq ki, Azərbaycan dövləti Ermənistanın soydaşlarımızın insan hüquqlarını məqsədyönlü şəkildə pozmasına cavab olaraq, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib. Bir sıra mühüm məsələlərlə bağlı müraciətdə, həmçinin azərbaycanlı mülki vətəndaşların qayıdacaqları işğaldan azad olunmuş ərazilərdə mina və mina tələləri basdırmaq, onlara sponsorluq etmək və ya onların yerləşdirilməsini dəstəkləmək üçün hər hansı növbəti səyləri dərhal dayandırması və bundan imtina etməsi ilə bağlı Hayastana göstərişin verilməsi də öz əksini tapıb və bununla bağlı 2023-cü il yanvarın 31-də məhkəmədə dinləmələr keçirilib.

Lakin bu günə qədər də Azərbaycana qarşı davam edən terror siyasəti Ermənistanın beynəlxalq hüquqa əməl etmədiyini və onu ayaqlar altına atdığını faktlarla ortaya qoyur.

Buna görə də dünya erməni terrorizminə artıq göz yummamalı, Ermənistanın beynəlxalq cəzasızlıq mühitindən yararlanaraq Azərbaycana qarşı terror siyasəti həyata keçirməsinə son qoymalıdır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*



# AZƏRBAYCAN 105





# Şərəfli tale

Hər mətbuat orqanının öz şüarı, məqsədi var. Onu yaşadan, tanıdan, cəmiyyət arasında hörmət və dəyərini təyin edən həmin amal olur. "Azərbaycan" qəzetinin şüarı da, fəaliyyət hədəfi də onun adında cəmləşib. İllərinə görə Azərbaycan Respublikası ilə həmyaşıd olmaq, məzmununa görə bu qədim torpağın rəsmi səsi və sözü məsuliyyətini daşımaq bir qəzet üçün ən şərəfli tale, ən müqəddəs yoldur.

## Səsin müstəqillik tarixi

Müstəqilliyin ən əhəmiyyətli göstəricilərindən biri onun söz demək, başqaları arasında səsini eşitdirmək haqqıdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulanda bu missiya üçün təsis edilən rəsmi mətbu orqanı "Azərbaycan" qəzeti oldu. Qəzet də dövlətin taleyini yaşadı. Parlament orqanı kimi onun ilk nömrəsi həmin ilin sentyabrında Gəncədə işıq üzü gördü - Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik işğalından azad etdiyi gün. Əslində, bununla dövlət öz müstəqil yolunu başladığını, öz sözünü dünyaya eşitdirmək iddiasını elan etdi. Gəncədə nəşrə başlayan və Bakıda davam edən, 15 sentyabr 1918-ci - 28 aprel 1920-ci illəri əhatə edən fəaliyyəti müddətində qəzetin 443 nömrəsi, rus dilində isə 438 nömrəsi işıq üzü gördü.

Ağır problemlərlə mübarizə aparan dövlət xadimləri qurulan Cümhuriyyətin önündə çətin bir yol durduğunu dərk edirdilər. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin çağırılması ilə əlaqədar 1918-ci il noyabrın 29-da Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc edilir. Orada incə və olduqca əhəmiyyətli bir məqam var: "...Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birinə əl uzatmalı və yardım etməlidirlər". "Azərbaycan" qəzetinin ovaxtkı nömrələrinə baxanda deyilənin həm də əməldə həyata keçirildiyinin şahidi olmaq mümkündür: hər millətə aid xəbərlər, müraciətlər, problemlərin işıqlandırılması. Qəzetin 1 noyabr 1918-ci il, 28-ci nömrəsində "Qafqaziya millətlərinə" adlı məqalədə yazılır: "Əsrlərcə qonşuluğumuz bizə öyrətmiş və hazırkı mənafeyi-siyasiyyəmiz tələb edir ki, mədəniyyətimizin tərəqqisi, həyatımızın nəşvü-nümasını [inkişafını] dinc və birgə yaşamaqda arayaq. Binaileyh biri-birimizi qırmağımız bizə zərərdən başqa bir nəticə verə bilməz". Çoxmillətli Azərbaycan parlamentinin rəsmi orqanı kimi, "Azərbaycan" qəzeti hər millətin marağını, problemini, ən vacibi isə millətlər arasında barışığı və bərabər hədəfi - vahid Vətənin gələcəyində birgə fəaliyyəti təbliğ edirdi, öz adının haqqını verirdi.

"Azərbaycan" qəzeti ilk təsis olunduğu gündən müstəqilliyin və yeni dövlətin səsi olmaq iddiasına görədir ki, onun nailiyyətində də, mübarizəsində də, süqutunda da yanında olub. Bu iddianın verdiyi məsuliyyətlə ilk nömrədə Qafqaz İslam Ordusunun qardaş köməyi haqqında məlumatı, ordunun komandanı Nuru Paşanın, eyni zamanda Fətəli xan Xoyskinin Nuru Paşaya teleqramları dərc edildi; 2 may 1919-cu ildə Şərqin ilk müstəqil respublikasının bayrağının qəbul edilməsi ilə Üzeyir bəy Hacıbəyli "Bayrağımız saralmaz" məqaləsində məlumat verdi: "Bayrağımız haqq bayrağıdır. O, bir millətin bəşəri hüquqlarının parçasıdır. Bir millətin ki, onun insan kimi yaşamağa haqqı vardır. Bir millətin ki, daha əsir olmaq istəmir…"

1920-ci ilin aprelində Azərbaycan hərtərəfli işğal olundu: torpağı da, dövləti də, arzuları da, gələcəyi də, səsi də, sözü də. Və "Azərbaycan" susdu. Mənbələrin verdiyi məlumata görə, "Parlamentin son iclaslarında Məhəmməd Əmin Rəsulzadə dərin bir kədər və hüznlə istilanın Azərbaycana yetişdiyini söyləyərkən arxadan hönkürtü ilə ağlamaq səsi eşidilir və hamı kədərlə geriyə dönür: "Azərbaycan" qəzetinin redaktoru Şəfi bəy Rüstəmbəyli ağlayırdı". Bu fakt özündə ağrıacı dolu həqiqətin rəmzi idi.

## Maarifçilik missiyasında atılan imza

"Azərbaycan" qəzeti millətin nə ilk, nə də son qəzeti idi. Məhz faktlara əsaslanaraq cəsarətlə demək olar ki, olduğu coğrafi məkanda, daxil olduğu mədəni bölgədə daim öz müdrik sözünü deyən, mədəniyyəti ilə ayrıca səhifə açan, tarixə sanballı alimləri ilə daxil olan Azərbaycan xalqı cəhalətlə mübarizədə həmişə öndə durub. Hələ 1875-ci ildə Həsən bəy Zərdabinin təsis etdiyi ilk milli qəzet olan "Əkinçi" ilə "Azərbaycan" arasında bir çox qəzet və jurnal doğulmuşdu, bacardığı qədər millətinə xidmət göstərmişdi. Bu mətbu orqanları ətrafında görkəmli ziyalıları, şair və yazıçıları toplamaqla kifayətlənməyib, ayrıca məktəb səviyyəsinə qədər yüksəlirdilər: "Füyuzat" və "Molla Nəsrəddin" jurnalları, "Həyat" qəzeti, rus dilində nəşr olunan "Kaspi" qəzeti. "Azərbaycan" qəzeti onlardan bir neçə xüsusiyyətinə görə fərqlənirdi. Əvvəla, o, məhz müstəqil Cümhuriyyətin yaranması ilə doğulmuşdu, məhz onun səsi və sözü idi. "Azərbaycan" qəzeti yeni dövlətin parlamentinin rəsmi mətbu orqanı idi. Əgər digər mətbu orqanlarının işıq üzü görməsi üçün rus imperiyasının canişinləri icazə verməli idisə, onların istəyi ilə çapını dayandırmalı olurdusa, onların senzurasından keçirdisə, "Azərbaycan" qəzeti məhz müstəqil Azərbaycan Xalq Cümhuriyyəti ilə bərabər doğulmuşdu. Onu təsis edən elə əvvəlki qəzet və jurnallarda fəaliyyət göstərən, qələmi orada itilənən ziyalılar idi, ancaq bu dəfə onlar öz müstəqil Vətəninin xəbərini çatdırır, onun adından danışırdılar. Qəzetin 1918-ci il 7 dekabr tarixli 58-ci sayında Üzeyir bəy Hacıbəyli "Tarixi günümüz" məqaləsində yazırdı: "Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir. Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Xalq Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi. Bəs bu gün haman bu Azərbaycan Xalq Cümhuriyyətinin milli parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama yetir. Belə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid - parlamanımızdır. Və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsuli yolunda var qüvvəsilə çalışacaq və Vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır".

Üzeyir bəyin dili ilə desək, "Azərbaycan" qəzeti müstəqil dövlətin ümidlərinin, azadlıq arzularının gerçəkləşməsi, təkmil hökumətə çevrilməkdə olan gənc bir respublikanın ilk müstəqil sözü idi.

Tarixdən də bəlli olduğu kimi, qurulduğu ilk gündən Azərbaycan Cümhuriyyəti həm daxili, həm də kənardakı düşmənləri ilə mübarizə aparırdı. Üzeyir bəy Hacıbəylinin qəzetin 5 dekabr 1918-ci il, 56-cı nömrəsində "Azərbaycan parlamanı" adlı məqaləsində yazdığı kimi, "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəməyir. Qulaqlar var ki, lal edilmiş bir dilin, bir millət dilinin bu gün açılıb da söz söyləməsini eşitmək istəməyir. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün hakim deyil, yalnız müstəqil və azad olmasını qəbul etmək istəməyir". "Azərbaycan" həm mübarizə meydanı, həm də silah idi. O, bir tərəfdən rəsmi xəbərləri dərc etməklə yanaşı, digər tərəfdən milləti maarifləndirməyə, ruhunu gücləndirməyə çalışırdı. Qəzetin 6 dekabr 1918-ci il, 57-ci nömrəsində yazılır: "Bir şəxs və ya bir millət azad olmaq istərsə, buna öz ləyaqətini və qabiliyyətini göstərməlidir. Burası avropalıların qəbul etdiyi bir əsasdır. Həmin ləyaqət və qabiliyyət nədən ibarət ola bilər? Bunlar iki şeydən ibarət ola bilər: daxili məişətdə həqiqi bir mədəniyyətə malik olmaq və xaricdən gələn zərbələr qarşısında baş əyməyib, istiqlal və heysiyyəti-milliyyəni müdafiə etməyə hər anda hazır olmaq".

Millətin var olması üçün onun dilinin, ədəbiyyatının, düşüncəsinin yaşaması, inkişaf etməsi ilk vacib şərtdir. Buna görə də ziyalılar "Azərbaycan" qəzetində həm də milli ruhu qidalandıran, eyni zamanda onu təkmilləşdirən məlumatları çap edirdilər. Məsələn, qəzetin 1918-ci ilin bir neçə sayında ard-arda "Türk ədəbiyyat və lisanı və türk cərəyanı-əfkarı [türk ədəbiyyatı və dili, türk fikir cərəyanları] (Ruşən Əşrəf və Ruşəni bəylərin konfransı)" haqqında məqalələr çap olunur. Onlardan birində deyilir: "Əsl türk qövmünə məxsus ədəbiyyat saz şairlərində, təkyə mərsiyəçilərində qalmışdı. Ona kimsənin baxdığı yox idi. Halbuki bir millətin ədəbiyyatı o millətin ruhuna hansı vaxtda uyar? O vaxtda uyar ki, o millətin özündən götürülmüş ola. Fransız ədəbiyyatının fransızlar üstündə, rus ədəbiyyatının ruslar üstündə çox təsirləri olar. Çün dilləri ilə, duyğuları ilə birlikdə o millətin özündən alınmışdır. Ona görə düzəlmişdir. Bu barədə türk ədəbiyyatı geri qalmışdı. Çün türk, öz ruhunu tanıyıb ona görə çalışası yerdə, özünə özgə ruhları aparmağa savaşırdı". Deyilənlərdə əhəmiyyətli bir məqam var: millətin ruhunun yaşaması üçün onun öz ədəbiyyatı inkişaf etməlidir. Məsələn, ərəb mühacir yazıçısı Xəlil Cübran belə hesab edirdi ki, öz xalqının dirçəlməsi, var olması üçün onun dili var olmalıdır, bu isə şairin dilində və ürəyindədir, çünki "Şair xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləmində baş verənləri əql dünyasına ötürən, bilik dünyasında baş verənləri bilik xəzinəsinə toplayan bir bələdçidir". "Azərbaycan" qəzetində də bu vacib məqam vurğulanmaqla yanaşı, həm də yeni dövrün yeni çağırışları səslənir, keçmişlə deyil, yeni tələblərlə ayaqlaşmağın əhəmiyyəti qeyd edilir: "Məşrutiyyət zamanı gəlməklə bütün vətən milliləşdiyi sırada Osmanlı ədəbiyyatında da dəyişiklik istəkləri bəlirdi [özünü göstərdi]. Çün ədəbiyyat həyatın əksidir. İctimai hərəkətlərə görə ədəbiyyat da cərəyan dəyişdirir. Bu indiki əsr isə milliyyət əsridir. Bundan ötrü bizim ədəbiyyatımızda da milliyyət hərəkətləri başlandı".

Bəli, "Azərbaycan" qəzeti müstəqil ruhun maariflənməsi idi, özlüyündə artıq güc idi. Məhz buna görə də 1920-ci il aprel işğalından sonra o da susduruldu.

## Millət adına söz demək haqqı

Azərbaycan Xalq Cümhuriyyəti böyük bir ziyalı, ictimai və siyasi xadimlər ordusunun əməyinin nəticəsi idi. Təbii ki, bu milli sərvət ilk növbədə "Azərbaycan" qəzetinin səhifələrində əks olundu. Qəzetə rəhbərlik edənlər sırasında Ceyhun bəy Hacıbəylinin, Üzeyir bəy Hacıbəylinin, Xəlil İbrahimovun, Şəfi bəy Rüstəmbəylinin adlarını görürük. Lakin biz diqqəti bir neçə başqa məsələyə yönəltmək istəyirik. Əvvəla, qəzetdə məhz milli ruha yaxın olan, onun qayğısına qalanların imzalarına rast gəlmək mümkündür. Nömrələrin birində Məhməd Əmin Yurdaqulun şeirlərindən bir beyt nümunə gətirilir və məhz bununla qəzetin də ruhunu təyin etmiş olur:

*Bən bir türkəm, dinim, cinsim uludur.*
*Sinəm, özüm atəş ilə doludur.*

İkinci diqqət yetirilməli məsələ isə "Azərbaycan" qəzetinin müəlliflərinin bir mücahid, xalqı adına müəyyən bir mübarizə yolu keçmiş şəxslərin olmasıdır. Başqa sözlə, "Azərbaycan" mübarizlərin imzasının toplaşdığı səhifələrdir. Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Ağa Şahtaxtlı, Əlimərdan bəy Topçubaşov, Mirzəbala Məmmədli, Əhməd Ağaoğlu, Cəfər Cabbarlı, Əhməd Cavad, Seyid Hüseyn, Şəfiqə Əfəndizadə, Məhəmməd Hadi və daha neçə qürur duyulmalı adlar. Təsadüfi deyil ki, Cümhuriyyətin süqutundan və qəzetin susmasından sonra onun müəllifləri də susduruldu. Lakin mübarizə bitmədi, fərqli müstəvilərdə davam etdi, fəaliyyət dövründə toplanan yaradıcılıq enerjisi hələ uzun illər ruhları qidalandırdı. Əhəmiyyətli bir məqamdır ki, sonralar mühacir həyatı yaşamalı olan Şəfi bəy Rüstəmbəyli yenə də Azərbaycanın müstəqil səsini eşitdirməyə çalışırdı və o, öz xatirələrində yazırdı: "Nəhayət, 27 aprel gecəsi saat 12-də Bakıda bütün idarə, məhəllə bolşeviklərin əlinə keçdi. Bununla aşağı-yuxarı ikiillik milli Azərbaycan istiqlal tarixi qapandı. Milli azəri türkünün istiqlal ruhunu əlindən ala bilmədilər. İşğal zəfərləri yarımçıq qaldı. Məmləkətin həqiqi övladlarının istiqlal uğrundakı qan ilə boyanmış və müttəhid bir kütlə halındakı gənc övladlarının hürriyyət və istiqlaliyyət ruhu ilə istiqlal hələ yürüyür. İmanın qüvvəsi, istiqlalın təbcili bizdə Bakı və Azərbaycan yaşadıqca yaşayacaq və bütün türk ellərini istiqlal ilə sevindirəcəkdir".

Bu, sıradan bir vətəndaşın, yaxud ziyalının deyil, məhz "Azərbaycan" qəzetinin ilk müstəqillik illərində sonuncu redaktorunun dedikləri idi. Bir millətin səsi olmaq məsuliyyətini anlayanlar onun susmaması üçün əllərindən gələni edirdilər. Tədqiqatçıların bildirdiyinə görə, qəzetin var olmasında böyük əmək sərf etmiş, xidməti olmuş Ceyhun bəy Hacıbəyli sonralar mühacir həyatı yaşamalı olanda eyniadlı qəzet buraxmağa çalışmış və 1951-ci ildə buna Münhendə nail olmuşdu.

## "Azərbaycan"ın itməyən ziyası

Şəfi bəy Rüstəmbəylinin sözlərindəki həqiqət təqribən 71 ildən sonra gerçək oldu: istiqlal ruhunun imanının gücü təkrar özünü göstərdi və öz səsini qaytardı: 1991-ci ildə Azərbaycan Respublikasının parlamenti cəmiyyətə əvvəlcə "Həyat", sonra isə "Azərbaycan"la təkrar səslənməyə başladı. Tarix sanki təkrar olundu. Ulu Öndər Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir" şüarı, bir tərəfdən keçmişdəki uğurların davam etdirilməsini, digər tərəfdən səhvlərdən nəticə çıxarılmasını, ən vacibi isə güclü və mübariz ruh tələb edirdi. "Azərbaycan" qəzetinin ikinci müstəqillik illərində çıxan səhifələrində də məhz bu istiqamətlər qorunmağa çalışılır. Bu gün də "Azərbaycan" qəzeti həm dövlətin, həm də çoxmillətli Vətənin səsi və simasıdır. Bu, onun taleyinə yazılmış müqəddəs bir missiyadır. Əhəmiyyətli bir faktdır ki, yaxın zamanda ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti "Azərbaycan"ının (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşr edildi. Bu, bir tərəfdən Azərbaycan adlı dövlətin kökünün, ağrılı, eyni zamanda şərəfli tarixinin vacib səhifələrinin təkrar oxucuya çatdırılmasıdır. Digər tərəfdən isə bu həm də Azərbaycan ziyalısının keçdiyi həyat yolunun təkrar oxuculara təqdim edilməsidir.

Azərbaycan xalqı Şərqdə özünü dərk edən və öz kimliyini təsdiq edən nadir xalqlardan biri və birincisidir. "Azərbaycan" qəzeti isə bu mərdanəliyin və cəsarətin meydanı və səsidir. Qəzetin 7 dekabr 1918-ci il, 58-ci nömrəsində "Prometey" adlı məqalənin sonluğu yalnız vətənimiz üçün deyil, onun adını daşımaq şərəfinə nail olan qəzet üçün də keçərlidir: "Yaşa, istəkli cümhur vətənimiz; yaşa, ey Şərq tarixinin Prometeyi! Sən xalqa mənfəət verəcək alovlu nuru göydən alaraq yerə saç, insanlara tapşır! İstər bunun üçün səni edam etsinlər!"

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***




# Sosial-iqtisadi inkişafın salnaməsi

## İqtisadi yüksəliş yollarında Azərbaycanla qoşa addımlayır "Azərbaycan"

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, müstəqil ölkəmizin rəsmi dövlət qəzeti, Milli Məclisin orqanı "Azərbaycan"ın 105 yaşı tamam olur. Sovetlərin 70 ildən çox bir zaman kəsiyində susdurduğu bu qəzet müstəqilliyimizlə bərabər həyata qayıtmış və şərəfli missiyasını davam etdirməyə başlamışdır.

"Azərbaycan" xalqımızın həyatının, ölkəmizin inkişafının və nüfuzunun, dövlətimizin mübarizə və qələbələrinin, insanlarımızın qayğı və sevinclərinin ifadəçisidir. Ulu Öndər Heydər Əliyevin xilas etdiyi və dirçəltdiyi, Prezident İlham Əliyevin inkişaf etdirib dünyanın sayılıb-seçilən ölkələri sırasına çıxardığı Azərbaycanı görürük bu qəzetin səhifələrində.

Bu bir həqiqətdir ki, qəzetin hər yazısının öz oxucusu olur. Yəni o, qəzet səhifəsində özünün dünyagörüşünə, yaşına, təhsilinə, fəaliyyət sahəsinə uyğun material axtarır. Biz iqtisadçılar, bu sahə ilə məşğul olan elm adamları əlimizə götürdüyümüz hər qəzet nömrəsində ölkənin sosial-iqtisadi həyatını əks etdirən yazılar oxumaq istəyirik. Bəri başdan deyim ki, bu baxımdan "Azərbaycan" qəzeti bizi tam qane edir.

Azərbaycanın qəddini düzəldən, ölkəni canlandıran, iqtisadi tənəzzüldən xilas edən "Əsrin müqaviləsi"nin imzalanması, kəndlini öz torpağının və taleyinin sahibinə çevirən aqrar islahatlar, daha sonrakı illərdə regionların sosial-iqtisadi inkişafına yönəldilən birinci (2004-2008-ci illər), ikinci (2009-2013-cü illər), üçüncü (2014-2018-ci illər) və dördüncü (2019-2023-cü illər) dövlət proqramlarının icrasının hər günü sevdiyimiz qəzetin səhifələrindədir. Bu səhifələri çevirdikcə gözlərimizdə günbəgün yenidən qurulan, ucqar kəndlərinədək yollar çəkilən, dağların başındakı obalarınadək hər yerdə mavi alov şölələnən, 25-30 il əvvəl böyük şəhərləri belə işığı az qala fasilə ilə alan, son iki onillikdə isə 34 elektrik stansiyası tikən və indi qonşusu olan dörd ölkəyə enerji ixrac edən Azərbaycan canlanır.

Bu gün Azərbaycanın bir sıra rayon mərkəzləri gözəllikdə, abadlıqda Avropanın tanınan şəhərlərindən heç də geridə qalmırlar. Paytaxtımız meqapolisə çevrilib. Və bütün bunlar "Azərbaycan"ın iqtisadi mövzuda yazan jurnalistlərinin diqqətindən və qələmindən qəzetin bircə nömrəsində belə yayınmır.

Qısası, Azərbaycan iqtisadiyyatının elə bir sahəsi yoxdur ki, bu qəzetdə öz dolğun, geniş və əhatəli əksini tapmasın. Başlayaq iqtisadiyyatımızın bel sütununu təşkil edən neft-qaz sektorundan. Mübaliğəsiz deyə bilərik ki, qəzet Azərbaycanın yeni neft-qaz strategiyasının əsl salnaməçisinə çevrilib. Hazırda dünyada istismar olunan ən böyük karbohidrogen mənbələrindən biri Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarıdır. Məhz AÇG-nin tammiqyaslı işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi "Əsrin müqaviləsi" adını alıb ki, bu layihənin axtarış, qazma, tikinti, hasilat, ixracla bağlı bütün əməliyyatları barədə dəqiq məlumatları biz "Azərbaycan" qəzetinin səhifələrindən alırıq.

Prezidentimiz "Azəri-Çıraq-Günəşli"ni ölkəmizin əsas gəlir mənbəyi adlandırıb. "Azərbaycan" qəzeti də AÇG-nin sıradan bir yataqlar bloku olmadığını, onun respublikamızın həyatındakı rolunu oxucuya konkret rəqəmlərlə, aydın misallarla göstərir.

Dünyanın ən böyük neft-qaz terminallarından biri, regionun neft-qaz ixracı mərkəzi olan Səngəçal terminalı, Ulu Öndər Heydər Əliyevin şah əsərləri sırasında dayanan, üçüncü minilliyin nəhəng mühəndis qurğusu sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 17 il əvvəl "Şahdəniz" qazını ilk dəfə xaricə nəql edən, Azərbaycanı həm də qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum boru xətti haqqında ən geniş təsəvvürü də oxucularda məhz ölkəmizin adını daşıyan bu qəzet yaradır. "Cənub qaz dəhlizi"nin keçdiyi uzun yol, bu layihənin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğu, nəhayət, ölkəmizin Avropanın qaz təchizatçılarından birinə çevrildiyi barədə bir çox bilgiləri də əsasən bu qəzetdən alırıq.

Bütün bunlar iqtisadi mövzunun bir qolunu əhatə etsə də, oxunaqlı və sadə dildə çatdırılır. Başqa sözlə desək, "Azərbaycan" qəzeti jurnalistikamıza indiyədək işlədilməyən bir "neft publisistikası" da gətirib. "Neftimiz sərvətimizdir", "Neft tariximizdən", "Dünyanın neft regionlarında" rubrikaları ilə verilən yazılar, fədakar neftçilərimizin qəhrəmanlığından bəhs edən oçerk və zarisovkalar, Xəzər dənizində qurduğumuz, bəlkə də yalnız Şimal dənizində rast gəlinə biləcək ən müasir hasilat platformalarından reportajlar oxunaqlı olduğundan təkcə bu sahənin adamlarını deyil, qəzeti əlinə götürən hər bir kəsi cəlb edir.

Ölkənin sosial-iqtisadi inkişafı üçün bütün mənbələrdən əsas kapitala yönəldilən vəsait, geniş vüsət alan tikinti-quruculuq işləri, bu sahəyə yatırılan daxili və xarici sərmayə, istifadəyə verilən yeni istehsal müəssisələri, yaradılan müasir infrastruktur... Bütün bunlar üçün də qəzetin səhifələrində geniş yer var. Sənaye parkı, sənaye məhəlləsi, aqropark nədir, bunlar nə ilə məşğuldur, əhəmiyyəti və perspektivləri nədən ibarətdir? Bu sualların cavablarını da "Azərbaycan" qəzetindən almaq mümkündür.

Məlumdur ki, qeyri-neft sektorunun inkişafı dövlətin əsas prioritetlərindən biri elan olunub. İqtisadiyyatımızın sabahı bununla bağlıdır. Odur ki, indi ölkədə qeyri-neft sektorunun bütün qollarının, o cümlədən aqrar sahənin inkişafına böyük önəm verilir. Pambıqçılığın yenidən canlanması, üzümçülüyün, baramaçılığın, tütünçülüyün, çəltikçiliyin və unudulmuş digər sahələrin dirçəldilməsi, ölkənin hər tərəfində iqlimə, torpağın xüsusiyyətlərinə uyğun intensiv meyvə bağlarının salınması Prezident İlham Əliyevin uzaqgörən iqtisadi siyasətinin nəticəsində mümkün olub. Taxıl istehsalını artırmaq üçün yeni yollar axtarılır. Məqsəd ərzaq təhlükəsizliyimizin tam şəkildə özümüz tərəfindən təmin olunması, idxaldan asılılığın azaldılması, ixracyönümlü məhsulların istehsalının artırılmasıdır. Cəsarətlə deyə bilərik ki, bu yolda "Azərbaycan" qəzeti dövlətin böyük dəstəkçisidir. Başqa sözlə, "Azərbaycan" qəzeti postneft dövrünə hazırlaşan, kənd təsərrüfatını, turizmi, İKT sektorunu və digər sahələri inkişaf etdirən Azərbaycanla qoşa addımlayır.

Qeyd etdiyimiz kimi, elə bir region, elə bir şəhər, bəlkə də elə bir kənd yoxdur ki, rəsmi dövlət qəzetimizin diqqətindən kənarda qalsın. Bu baxımdan respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının icrasına həsr olunan mütəmadi materiallar xüsusi önəm daşıyır.

Azərbaycanın erməni işğalçıları üzərindəki möhtəşəm qələbəsi iqtisadi mövzulara da yeni bir çalar və məzmun gətirdi. Elə müharibənin getdiyi günlərdə qəzetdə "Arxa cəbhə" rubrikasına rast gəldik. Müzəffər ordumuz ön cəbhədə sədləri və istehkamları yarıb yağıya diz çökdürəndə Azərbaycanın hər tərəfində, o cümlədən döyüş gedən yerlərə yaxın ərazilərdə həyat həmişəki kimi qaynayırdı. Payız fəsli olduğundan kənddə məhsul yığımı öz qaydasında aparılırdı. Və bütün bunlar sözügedən rubrikada öz əksini tapırdı.

Zəfərdən sonra isə qəzet bir növ Qarabağı və Şərqi Zəngəzuru yenidən qurub-tikənlərin sırasına qoşuldu. İqtisadi mövzuda yazan "Azərbaycan"çılar bu gün böyük quruculuğun təkcə xronikasını yaratmaqla kifayətlənmirlər. Bu işlərin miqyasını və mahiyyətini, tələb etdiyi vəsait və işçi qüvvəsini açıqlayaraq oxucuya səhih məlumat verirlər. "Ağıllı kənd", "ağıllı kənd təsərrüfatı" necə qurulur, bu ərazilərdə bərpa olunan enerji hansı mənbələrdən yaranacaq? Bu sualların cavabını da qəzetin iqtisadi mövzudakı yazılarından tapmaq olar.

"Salam Qubadlı - dağlar diyarı, qəhrəmanlar yurdu", "Sərvətləri zəngin Zəngilan", "İşığın yanar, suyun axar olsun, Şuşa", "Yandırılan meşələrdə, baltalanan bağlarda hər ağacı bərpa edəcəyik", "Ruhlar şəhəri ruhumuzun şəhərinə çevrilir" və digər bu kimi yazılar iqtisadi mövzuda olsa da, üslubu və məlumat zənginliyi ilə geniş oxucu kütləsinin diqqətindən yayınmır.

Sosial mövzu da qəzetin daim diqqət mərkəzindədir. Məlumdur ki, ölkədə son illər bu istiqamətdə ciddi irəliləyişlərə nail olunub. Prezident İlham Əliyevin imzaladığı sərəncamların əhali arasında necə rəğbətlə, məmnunluqla qarşılandığını qəzetin yazılarında aydın görürük. Bu da səbəbsiz deyil. Çünki imzalanan hər yeni sərəncam yeni sosial islahat mərhələsinə keçidi təmin edir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılır. Bu da onu göstərir ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir.

Ölkəmizdə son beş ildə artıq dördüncü sosial islahat paketinin icrası həyata keçirilir. 2023-cü ildə sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulduğu və həmin artımların 1,9 milyon vətəndaşı əhatə edəcəyi bildirilir. Bu da dövlətin siyasətinin mərkəzində həmişə vətəndaşın rifahının dayandığının daha bir nümunəsidir. "Azərbaycan" qəzeti vətəndaşların maraqlarına xidmət edən bu siyasəti özünün daimi mövzuları sırasında görür.

Xatırladaq ki, son 5 ildə sosial sahədə ardıcıl xarakter daşıyan islahatlar nəticəsində minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. 2018-2022-ci illərdə orta aylıq əməkhaqqının 52, orta aylıq pensiyanın 80 faiz, müavinət və təqaüd ödənişlərinin 3,5 dəfə, pensiya, müavinət, təqaüd, ünvanlı yardım üzrə ayrılan illik vəsaitin 80 faiz artırılması da sosial islahatların davamlı olduğunun göstəricisidir. Əlavə edək ki, həmin dövrdə əmək müqavilələrinin sayı 33 faiz (431 min) artaraq 1 milyon 741 minə çatıb, əməkhaqqı fondunda 2,3 dəfə artıma nail olunub. Bütün bunların Azərbaycan vətəndaşlarının həyatına necə müsbət təsir etdiyini "Azərbaycan" qəzetindəki yazılardan da əyani görə bilirik.

"Azərbaycan" hər nömrəsi ilə dövlətin və onun siyasətinin etibarlı dəstəkçisi olduğunu sübut edir. Bunu Ulu Öndər Heydər Əliyevin 100 illiyi, eləcə də "Heydər Əliyev İli" ilə bağlı yazılar da təsdiqləyir. Prezident İlham Əliyev 2022-ci il 29 sentyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ili "Heydər Əliyev İli" elan etdiyi vaxtdan qəzetdə bu mövzuda yazılar dərc olunmağa başladı. Həmin yazılarda Ümummilli Liderin hakimiyyətinin istər birinci, istərsə də ikinci dövründə ölkəmizin sosial-iqtisadi inkişafı üçün gördüyü misilsiz işlər öz aydın əksini tapır.

Ulu Öndərin təməlini qoyduğu, Prezident İlham Əliyevin günün tələbləri baxımından davam və inkişaf etdirdiyi aydın yolda Azərbaycanla qoşa "Azərbaycan" adlı qəzetimiz də addımlayır və üzərinə düşən şərəfli vəzifəni layiqincə yerinə yetirir.

***Tofiq HÜSEYNOV,***
***iqtisad elmləri doktoru, professor,***
***Əməkdar iqtisadçı***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Şəhid ailələri və müharibə əlillərinə daha 50 mənzil verildi

### Bu il şəhid ailələri və müharibə əlillərinə 650, postmüharibə dövründə 5 150, ümumilikdə ötən dövrdə 13 950 mənzil və fərdi ev təqdim olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 mənzil verilib. Mənzillər Bakının Hövsan qəsəbəsindəki yeni yaşayış kompleksindən təqdim olunub.**



4 saylı DOST mərkəzində mənzillərin sənədlərinin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi, onların mənzillə təminatı tədbirlərinə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb.

Qeyd olunub ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib.

Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd etdiyimiz bu il də həmin proqram uğurla davam etdirilir. Ölkə Prezidentinin tapşırığı ilə 2023-cü ildə ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri aparılır. Bu il artıq 650, postmüharibə dövründə 5 150, ümumilikdə ötən dövrdə isə 13 950 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

Dövlət başçısının sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanların da mənzillə təminatı həyata keçirilir.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## 34,1 min şəxsə əlillik təyin edilib, 49,1 min şəxsə reabilitasiya xidmətləri göstərilib




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2023-cü ilin yanvar-avqust ayları ərzində 34,1 min şəxsə əlillik təyin edilib. Onlardan 16,8 mininə ilkin, 17,3 mininə təkrar əlillik təyinatı aparılıb.**

Əlilliyin qiymətləndirilməsi elektron sistem vasitəsilə, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumat əsasında həyata keçirilir. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

Bu ilin 8 ayında agentliyin reabilitasiya mərkəzləri tərəfindən 49,1 min şəxsə reabilitasiya xidmətləri göstərilib.

## Qarabağ və Şərqi Zəngəzurda dəmir yolları da sürətlə bərpa edilir

### Zəngəzur dəhlizinə beynəlxalq maraq azalmır

**Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı ölkəmizin dəmir yolları infrastrukturuna da böyük ziyan vurub. Hesablamalara görə, dəyən ziyanın məbləği 45 milyon 60 min dollar məbləğində qiymətləndirilir.**

30 ilə yaxın bir dövrdə Azərbaycanın dəmir yollarının 240,4 kilometri işğal altında olmuşdur. Belə ki, həmin dövrdə Horadiz-Ordubad sahəsinin 144 kilometri, (o cümlədən Mehri rayonu üzrə 43,4 kilometr), Mincivan-Oratan xətti üzrə 39,1, Təzəkənd-Xankəndi xətti istiqamətində 51, Qazax-Barxudarlı xətti üzrə 6,3 kilometr yol düşmən tərəfindən işğal edilmiş sahədə qalmışdır.

İndi torpaqlarımız kimi dəmir yolları da düşmən işğalından azad edilib. Hazırda ermənilər tərəfindən dağıdılmış dəmiryol xətləri, stansiyalar və körpülər bərpa olunur, dövlət başçısının tapşırığına əsasən, bölgənin dəmir yolu xətlərinin yenidən qurulması istiqamətində mühüm işlər görülür. Hazırda "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması, həmçinin Füzuli-Şuşa yeni dəmir yolu xəttinin çəkilməsi istiqamətində işlər davam edir.

Prezident İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli sərəncamına əsasən, yenidən qurulması işlərinə başlanılan Bərdə-Ağdam dəmir yolu xəttinin ox üzrə uzunluğu 47,1 kilometrə bərabərdir. Layihə çərçivəsində birxətli dəmir yolu xətti üzrə hazırda fəaliyyətdə olan Bərdə və Köçərli stansiyaları təmir ediləcək, Təzəkənd və Ağdam stansiyaları isə yenidən tikiləcək. Həmçinin yol üzrə 114 süni mühəndis qurğusunun tikintisi də nəzərdə tutulur. Hazırda dəmir yolu xəttinin Bərdə-Köçərli-Təzəkənd istiqaməti üzrə layihələndirmə və üst quruluşunun söküntüsü işləri tamamlanıb, torpaq yatağının, üst quruluşu elementlərinin, süni qurğuların tikintisi və Təzəkənd-Ağdam istiqaməti üzrə layihələndirmə işləri aparılır.

2021-ci il fevralın 14-də təməli qoyulmuş Horadiz-Ağbənd dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometrə bərabərdir. Birxətli dəmir yolu 8 stansiyadan ibarət olacaq. Həmçinin layihə çərçivəsində ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır. Horadiz stansiyası ilə yanaşı, digər 7 - Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd stansiyaları tamamilə yenidən tikiləcək. Hazırda dəmir yolu xətti bütövlükdə dron vasitəsilə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb, minalardan təmizlənmiş 39 kilometrlik hissəsində torpaq yatağının hazırlanması, həmçinin süni qurğuların tikintisi işləri həyata keçirilir.

Füzuli-Şuşa istiqamətində ilk dəfə inşa ediləcək birxətli elektrikləşdirilmiş dəmir yolu xəttinin ox üzrə uzunluğu 83,4 kilometrə bərabərdir. Layihə çərçivəsində iki yeni - Füzuli və Şuşa stansiyalarının, habelə 200-ə yaxın süni mühəndis qurğusunun layihələndirilməsi və tikintisi planlaşdırılır. Hazırda dəmir yolu xəttinin trassasının ümumilikdə topoqrafik tədqiqat işləri tamamlanmışdır və süni mühəndis qurğularının layihələndirilməsi işləri görülür.

İcrasına başlanılan layihələrlə yanaşı, azad edilmiş ərazilərdə dəmir yolu xətlərinin inşası üçün ADY-nin mütəxəssisləri tərəfindən yeni istiqamətlər araşdırılır. Belə istiqamətlərdən biri də Dəliməmmədli-Kəlbəcər dəmir yolu xəttidir. Xəttin ilkin konseptual layihəsi hazırlanıb. Ox üzrə uzunluğu 88,8 kilometrə bərabər bu birxətli dəmir yolu xətti üzrə 220-ə yaxın süni mühəndis qurğusunun layihələndirilməsi və tikintisi təklif edilir.

Zəngəzur dəhlizinin açılması demək olar ki, dünyada gedən mühüm siyasi-iqtisadi proseslərin tərkib hissəsidir. Təsadüfi deyil ki, həmin dəhlizin fəaliyyətə başlaması Çin-ABŞ münasibətlərində Tayvan məsələsi qədər əhəmiyyət daşımağa başlayıb. Rusiya Federasiyasının nəqliyyat naziri A.Overçükun "Ermənistan-Azərbaycan arasında gərginlik azalan kimi Zəngəzur dəhlizi ilə bağlı danışıqlar bərpa ediləcək" bəyanatı boş yerə verilməyib. Bu marşrutun açılmasında şimal qonşumuz da maraqlıdır. Belə ki, Rusiya-Ukrayna müharibəsi bu ölkənin dünya bazarına çıxan yolunu bağlayıb. O üzdən Rusiya Şimal-Cənub marşrutunun və Zəngəzur dəhlizinin açılmasına tələsir. Hindistanda keçirilən G-20-lərin sammitində Avropa bazarlarına çıxışı üçün Hindistan-Yaxın Şərq-Avropa iqtisadi dəhlizinin yaradılması barədə razılıq əldə olunub. Layihənin icrası üçün Hindistandan Avropaya BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail ərazisindən dəmiryol xətti, həmçinin liman infrastrukturunun qurulması nəzərdə tutulur. Həmin layihə İran və Ermənistanın marşrutun ərazilərindən keçməsi barədəki ümidlərini puça çıxartdı. Bundan sonra Çinin Orta dəhlizə, xüsusilə Zəngəzur dəhlizinin açılmasına marağı daha da artacaq. Çünki Çin Hindistanla həm siyasi, həm də iqtisadi sahədə rəqabət aparır. Hər iki ölkə Avropa bazarına rahat marşrut axtarışındadır.

Məlum olduğu kimi, Fransa Ermənistana Zəngəzur dəhlizinin açılmaması üçün siyasi təsir göstərir. Bu yaxınlarda həmin ölkənin "qarın ağrısı" bəlli oldu. Sən demə, Fransa "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətini 99 illiyə icarəyə götürmək və ya özəlləşdirilməsini istəyirmiş. Əvvəla, adından məlum olduğu kimi bu dövlət qurumu qapalıdır, yəni özəlləşdirməyə çıxarıla bilməz. İkincisi, Azərbaycan dövləti belə strateji obyekti Fransa kimi ermənipərəst siyasət yürüdən ölkəyə verə bilməz. Çünki bu yolla Fransa Orta dəhlizdə və Şimal-Cənub marşrutunda qovşaq rolunu oynayan "Azərbaycan Dəmir Yolları" QSC-ni ələ keçirməklə həmin marşrutları nəzarətə götürmək istəyir. Azərbaycan dövləti Fransanın bu istəyinə təbii ki, "yox" deyib. Hazırda baş verən bütün siyasi hoqqabazlıqların kökündə təkcə erməni sevgisi deyil, həm də bu faktor dayanır.



Bu üzdən dövlətimiz işğaldan azad edilən ərazilərdəki dəmir yollarının sürətlə bərpasında maraqlıdır. Dəmir yollarının açılması ölkəmizə yüksək gəlir gətirməklə yanaşı, onun beynəlxalq aləmdəki siyasi çəkisini də artıracaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## ƏMAS - işaxtaranların və işəgötürənlərin vahid platforması

**Son illər innovasiyaların geniş tətbiqi sayəsində məşğulluq xidmətlərinin, ümumilikdə bu sahədə idarəçiliyin elektronlaşdırılması üçün ardıcıl layihələr icra olunur. Onlardan biri də "Əmək və Məşğulluq" altsistemidir (ƏMAS).**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdimatında həyata keçirilən bu sistem ötən ilin may ayından istifadəyə verilib. Bəs ƏMAS nə deməkdir, mahiyyəti və əhəmiyyəti, eləcə də funksiyaları nədir?

ƏMAS əmək münasibətlərinin tənzimlənməsi və məşğulluğun təmin edilməsi proseslərində işəgötürənlər və işçilərin, işsiz və işaxtaranların vahid elektron sistemdə cəmləşməsini təmin edir. Sadə dillə desək, ƏMAS işsizlərlə işaxtaranların istifadə edə biləcəyi bir platformadır. Yeni altsistemin işəgötürən üçün faydası odur ki, işçi ilə rəsmi münasibətlər, sənədləşmələr kağız üzərində deyil, elektron formada həyata keçirilir. Yəni əmək müqavilələri elektron qaydada bağlanır, rəqəmsal kadr uçotuna keçilməsi, əmək münasibətləri zamanı kağız üzərində aparılan digər əməliyyatların rəqəmsal müstəviyə keçirilməsi təmin olunur. Ən əsası isə ölkə üzrə bütün vakansiyalar vahid bir platformada görünür.

Vakansiyaların vahid bir platformaya keçidi həm işsizlər, həm işaxtaranlar, həm də özəl işədüzəltmə şirkətləri üçün maraq kəsb etdiyinə görə vakansiyaların axtarışı daha cəlbedici, daha operativ və əlçatandır. Bu da o deməkdir ki, Azərbaycanda artıq əmək münasibətlərinin dəyişməsi, yeni formaya keçidi sürətlənib. Bundan başqa, ƏMAS Azərbaycan üzrə məşğulluq platformasını, məşğulluq xəritəsini və məşğul şəxslərin reyestrini özündə ehtiva edir, Dövlət Məşğulluq Agentliyinin işəgötürənlər, işəgötürən birliklər, işədüzəltmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər və həmkarlar ittifaqı ilə birgə fəaliyyətinin elektron qaydada aparılmasını tənzimləyir.

Dövlət Məşğulluq Agentliyinin Əmək bazarının təhlili və inkişafı departamentinin müdiri Elman Sadıqovun söylədiyinə görə, indiyə kimi əmək bazarında işçi və işədüzəltmə prosesləri paralel gedirdi, kəsişmə nöqtələri ya gec olur, ya da heç baş vermirdi: "Yəni işəgötürən işçi axtarır, tələblərinə uyğun gələn işçi isə başqa istiqamətlərdə iş axtarır, həmin vakansiyanı və axtarışı görmürdü. Nəticədə ya işəgötürən digərlərinə nisbətən "daha yaxşı" prinsipi ilə ona müraciət edən namizədi seçir, ya da bir sıra hallarda uyğun namizəd tapmadığı üçün vakansiya boş qalırdı. Bir sıra hallarda isə sahibkar həqiqətən savadlı kadr axtarmasına baxmayaraq, hansısa subyektiv amillər səbəbindən ona mövcud vakansiyalara layiqli deyil, fərqli parametrlər üzrə seçilən namizədlər təqdim edilirdi. Bu gün isə fərqlidir, yeni altsistem peşəkar işədüzəltmə şirkətləri üçün də faydalıdır. Əmək bazarı dəyişir, texnologiyalar inkişaf edir, işəgötürənlərin tələbləri artır. Sistemin tapa bilmədiyi işçiləri isə işədüzəltmə şirkətləri axtarıb tapa bilir. Sözün həqiqi mənasında, ölkədə "beyin ovu" ("headhunting") dünyanın inkişaf etmiş və etməkdə olan ölkələrində olduğu kimi daha peşəkar müstəviyə çıxır".

E.Sadıqov daha sonra bildirir ki, işəgötürənlər indiyəcən müxtəlif səbəblərdən vakansiyalarının yalnız müəyyən bir hissəsini vakansiya bankına yerləşdirirdilər: "Həmin yerləşdirilən vakansiyalar bəzən gec yerləşdirilir, ya da məlumatlar natamam olurdu. Yeni sistemdə isə şirkətin ştat vahidləri, əmək müqavilələri sistem üzərindən həyata keçirildiyi üçün vakansiyalar sistemdə avtomatik əks olunur. Bununla yanaşı, işəgötürənin haqqı var ki, öz imkanları hesabına işçi tapmağı planlaşdırdıqları vakansiyaları aktiv və ya passiv etsin. ƏMAS nəticəsində idarə, müəssisə və təşkilatlarda bürokratik süründürməçiliklər minimuma enib".



"Əmək və Məşğulluq" altsistemi qısa bir zamanda nəinki öz effektini verib, hətta beynəlxalq müsabiqələrdə iştirak etmək hüququ da qazanıb. Xəbər verildiyi kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi İngiltərədə fəaliyyət göstərən nüfuzlu marketinq və konsaltinq şirkətinin keçirdiyi "Business Awards UK" müsabiqəsinin qalibi olub. Agentlik 13 istiqamətdə qiymətləndirmənin aparıldığı müsabiqəyə ölkəmizin son illərin mühüm rəqəmsal sosial layihələrindən olan "Əmək və Məşğulluq" altsistemini təqdim edib. Dövlət və özəl sektorda çalışan peşəkar münsiflərdən ibarət komissiya tərəfindən ƏMAS yüksək dəyərləndirilib. Dövlət Məşğulluq Agentliyi müsabiqənin "Rəqəmsal Transformasiya-2023" (2023-Digital Transformation Awards) kateqoriyasında "Ən Yaxşı Çevik Transformasiya" nominasiyası üzrə qalib seçilib. Yeri gəlmişkən qeyd edək ki, ƏMAS bundan əvvəl "IDDA Awards" müsabiqəsində "İlin Rəqəmsal Layihəsi" nominasiyasında da qalib olub. Habelə bu ilin martında "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2023" çərçivəsində Cenevrədə keçirilən müsabiqədə iştirak edərək "Çempion layihə" mükafatına layiq görülüb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

**♦ Dövlət Statistika Komitəsi xəbər verir**

## Yanvar-avqust aylarında qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 2,6 faiz artıb

**2023-cü ilin yanvar-avqust aylarında ölkədə 80 milyard 96,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,1 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 2,6 faiz artmışdır.

ÜDM istehsalının 42,4 faizi sənaye, 9,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,8 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,6 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 7895,0 manata bərabər olmuşdur.

## Əsas kapitala 10,8 milyard manatdan çox vəsait yönəldilib

**Cari ilin 8 ayında əsas kapitala 10 milyard 864,8 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 15,4 faiz çox vəsait yönəldilmişdir.**

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 12,2 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 17,1 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 6 milyard 199,6 milyon manatı və ya 57,1 faizi məhsul istehsalı, 4 milyard 116,1 milyon manatı (37,9 faizi) xidmət sahələrinə, 549,1 milyon manatı (5,0 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 8 milyard 336,5 milyon manatını və ya 76,7 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 7 milyard 928,4 milyon manatı və ya 73,0 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 46,1, büdcə vəsaitləri 39,3, əhalinin şəxsi vəsaitləri 6,5, bank kreditləri 2,8, sair vəsaitlər isə 5,3 faiz təşkil etmişdir.

# İkinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirilib

**Gənclər və idman naziri Fərid Qayıbov ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri Arzu Tairquliyeva-Nağıyeva və İlyas İsmayıllı ilə Mentorluq proqramı çərçivəsində görüş keçirib.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, F.Qayıbov müsabiqə qaliblərinin fəaliyyətləri və tədbirlərdə qazandıqları təcrübələri ilə maraqlanıb.

Görüş zamanı proqramın effektivliyinin artırılması və geniş təbliğatı üçün növbəti addımlar müzakirə edilib, yeni təkliflər barədə fikir mübadiləsi aparılıb.

# Qırğızıstanın Baş naziri MDB xəbər agentlikləri rəhbərləri ilə görüşüb



**Qırğızıstanın Baş naziri Akılbek Japarov MDB ölkələri Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) üzvlərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan, Rusiya, Özbəkistan, Belarus və Türkmənistanın informasiya agentliklərinin rəhbərləri və nümayəndələri iştirak ediblər. Azərbaycanı AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev təmsil edib.

Görüş əsnasında Baş nazir Akılbek Japarov İnformşuranın xalqlar arasında dostluq və mehriban qonşuluq əlaqələrinin inkişafına töhfə verdiyini qeyd edib. O, MDB-nin aparıcı xəbər agentliklərinin informasiya mühitinin sağlam qalmasında rolunun yüksək olduğunu vurğulayıb.

İnformşuranın sədri, TASS agentliyinin baş direktoru Andrey Kondraşov qurum haqqında danışıb və bu gün Bişkekdə keçiriləcək iclasın gündəliyi barədə məlumat verib.

Qeyd edək ki, Bişkekdə İnformşuranın növbəti iclası keçiriləcək. İnformasiya agentliklərinin rəhbərləri qarşıda duran vəzifələri və birgə layihələri müzakirə edəcəklər.

# Bişkekdə İnformşuranın iclası olub

**Sentyabrın 12-də Bişkekdə MDB ölkələri Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) 29-cu iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclas "Ala-Arça" iqamətgahında Qırğızıstanın "KABAR" xəbər agentliyi tərəfindən təşkil olunub.**



İclasda AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, Rusiyanın "TASS" agentliyinin baş direktoru Andrey Kondraşov və birinci müavini Mixail Qusman, Qırğızıstanın "KABAR" agentliyinin baş direktoru Mederbek Şermetaliyev, Belarusun "BelTA" agentliyinin baş direktoru İrina Akulina, həmçinin "UzA" (Özbəkistan) və "TDH" (Türkmənistan) agentliklərinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Qırğızıstan Prezidentinin Mətbuat xidmətinin rəhbəri Erbol Sultanbayev informasiya məkanında baş verən dəyişiklikləri qeyd edərək bu baxımdan aparıcı xəbər agentliklərinin sıx əməkdaşlığının önəminin artdığını vurğulayıb.

İnformşuranın sədri, "TASS" agentliyinin baş direktoru Andrey Kondraşov qurum üzvlərinin feyk xəbərlərlə mübarizədə səylərini birləşdirmələrinin vacib olduğunu söyləyib. O, bu məqsədlə vahid mexanizmin yaradılacağını və bunun üçün süni intellektdən istifadə olunacağını bildirib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev agentliyin beynəlxalq əlaqələrindən danışıb, tərəfdaşlarla xəbər mübadiləsini genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb. O, həmçinin iclas iştirakçılarını agentliyin yeni loqosu və veb-saytı barədə məlumatlandırıb.

İclasda üzvlər qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səyləri artırmaq barədə razılığa gəliblər, MDB ölkələrində keçiriləcək tədbirlərə informasiya dəstəyinin verilməsinə hazır olduqlarını bildiriblər.

# Qərbi Azərbaycan hekayələrinin izi ilə...



**"İslahatçı Qadınlar və İnnovasiyalar" İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Bir gün evimizə qayıdacağıq" layihəsinə başlayıb.**

İctimai Birlikdən AZƏRTAC-a verilən məlumata görə, layihənin əsas məqsədi bir əsrdə dörd dəfə öz yurd-yuvasından didərgin düşmüş soydaşlarımıza, qərbi azərbaycanlılara qarşı ermənilər tərəfindən aparılan etnik təmizləmə siyasəti ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılmasıdır. Dörd ay müddətində reallaşacaq layihədə öz torpaqlarından zorla qoparılmış soydaşlarımızın keçirdikləri hisslər, onlara dəymiş mənəvi ziyan, yaşadıqları qaçqın həyatı barədə hekayələri lentə alınaraq, beynəlxalq ictimaiyyətə erməni zorakılığının təzahürü kimi nümayiş etdiriləcək.

Qeyd edək ki, hər biri üç dəqiqədən ibarət olan hekayələrdə erməni vəhşiliyinə məruz qalmış soydaşlarımızın həyat ağrıları, xatirələri yer alacaq. Həyat hekayələrindən ibarət olan çəkiliş materiallarının son versiyasının ictimai təqdimatı oktyabr ayında keçiriləcək.

◆ Arif Məlikov - 90

# Əfsanəyə dönən bəstəkar ömrü



**Azərbaycanın dünyaşöhrətli bəstəkarlarından biri olan Arif Məlikov 1933-cü il sentyabrın 13-də Bakı şəhərində dünyaya gəlmişdi. Musiqiyə və ədəbiyyata sevgi ilə böyümüşdü. Bu sevginin səbəbkarı valideynləri, xüsusilə də anası idi. Onun hərbçi olan atası Cahangir Məlikov musiqini çox sevirdi. Üzeyir bəy Hacıbəylinin yaradıcılığının vurğunuydu. Anası Püstə xanım isə ədəbiyyat müəllimi idi. Püstə xanım kamançada çox gözəl ifa edirdi.**

## Şöhrətə aparan yol

Kiçik yaşlarından ata-anası ilə birlikdə tez-tez getdiyi opera teatrı, izlədiyi muğam operalarının təəssüratları onun üçün unudulmaz oldu. Bir də evlərinə sənətkarlar yığışar, musiqilər ifa edərdilər. Bir gün isə ailə dostları ona tar bağışladı. Sonralar yada salırdı: "Tez bir zamanda tarda çalmağı öyrəndim və Asəf Zeynallı adına Musiqi Texnikumunun tar sinfinə daxil oldum. Orada Əhməd Bakıxanovdan, Mansur Mansurovdan və Adil Gəraydan dərs aldım. Bu illər ərzində muğamları, xalq musiqisini dərindən öyrəndim və "Humayun" muğamı ilə texnikumu bitirdim. Bu muğam çox kədərli və qəlbə toxunandı və ona sevgim uşaqlıqdan olub. "Humayun" mənim sonrakı yaradıcılığımda da xüsusi yer tutub".

O, 1948-1951-ci illərdə Asəf Zeynallı adına Musiqi Məktəbinin tələbəsi oldu. Məktəbi bitirdikdən sonra Şuşaya getdi. Əmək fəaliyyətinə orada pedaqoq kimi başladı. 1951-1952-ci illərdə Şuşa Şəhər Musiqi Məktəbində müəllim işlədi.

Arif Məlikovu Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına aparan yalnız ali təhsil almaq arzusu olmadı. O, həmin illərdə artıq bəstəkarlığa meyil göstərirdi.

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına daxil oldu. Qara Qarayevin bəstəkarlıq sinfində oxudu. Gənc Arif Məlikov şöhrətli bəstəkarın tələbəsi olduğu üçün yalnız qürur duymurdu, həm də buna görə böyük məsuliyyət hiss edirdi. Ozamankı hisslərini, duyğularını sonralar belə dilə gətirdi: "Qarayevin sinfində məşğələ keçmək çox maraqlı idi. Hər bir tələbənin fərdi yaradıcı xüsusiyyətlərini dərindən duymaq, gənc musiqiçinin çalışmalarını düzgün istiqamətləndirmək, "istedad axını"nı həqiqi məcraya yönəltmək qabiliyyəti onun pedaqoji istedadının xüsusiyyətlərindən idi... Qarayevin sinfində keçirdiyim saatlar indi də xatirimdədir. Dərsin son dəqiqəsinə kimi mən gərginlik içində olurdum, bu bənzərsiz müəllimin dediklərindən heç bir şeyi ötürməməyə çalışırdım. Sözlərinin mənə və ya başqasına ünvanlanması əhəmiyyətli deyildi... Mən həmişə Qara Qarayevin tələbəsi olduğumu qürurla deyirəm, bu isə məni məsuliyyət daşımağa vadar edir".

## Unudulmaz müəllimlər

Onun yaradıcılığının formalaşmasında "Həyatda çox şeyə nail olmağım onunla ünsiyyətimin nəticəsidir" dediyi Qara Qarayevin böyük rolu oldu. Müəlliminin ənənələrini mənimsəyən istedadlı gənc bəstəkar öz bənzərsiz üslubunu yaratdı.

Yaradıcılığına dahi Üzeyir bəy Hacıbəylinin əsərlərinin böyük təsir göstərdiyini də Arif Məlikov sevgi və qürurla deyirdi: "Hacıbəyov musiqisi... Hansı azərbaycanlı onun valehedici musiqisini beşikdən qulaq asmayıb və sevməyib! Bizdə bu musiqiyə məhəbbət gündən-günə artır. Mənim ailəmdə onu hamı oxuyurdu".

Onun yaradıcılığında müstəsna yeri olan bir sənətkar da var idi... Arif Məlikov filarmoniyada təqdim edilən, repertuarına həm Azərbaycan, həm rus, həm də xarici musiqi daxil olan və sənətin bayramına çevrilən konsertləri xatırlayırdı: "Burada aparıcı bəstəkar və musiqiçilərlə yanaşı, biz tələbələrə də gözəl musiqini və onun haqqında maraqlı fikir və düşüncələri izləmək nəsib olurdu. Hiss olunurdu ki, bütün bu musiqi bayramlarının nəbzi Niyazidir. Hər bir insan bu tədbirlərdə mənən zənginləşirdi. Mənə sual verəndə ki, Niyazi ilə nə zaman tanış oldunuz, deyirəm - uşaqlıqdan".

Onunla ilk görüşü isə tələbəlik illərində oldu. Arif Məlikov tələbə ikən kamera musiqisi - prelüdlər, pyeslər, skertso, trio bəstələdi. Balet süitası yazanda isə üçüncü kursda oxuyurdu. Bu əsərlə Maestro Niyazinin yanına getdi. Arif Məlikov yada salırdı: "O, mənə baxıb dedi: "Sən kimsən?" Dedim ki, III kurs tələbəsiyəm. O isə qətiyyətlə cavab verdi: "Mən tələbə əsəri ifa etmirəm". Mən dönüb getmək istəyəndə Niyazi dedi: "Əlindəki nədir?" Dedim "Partitura". O, partituranı götürdü və 40 dəqiqə əsəri vərəqləyərək notlara baxdı. Nəhayət, cavab verdi: "Mən bu süitanı ifa edəcəyəm, lakin orkestr səslərini kim köçürəcək?". Mən sevinərək dedim: "Maestro, siz ifa edəcəksinizsə, mən özüm səsləri köçürərəm". Beləliklə, balet süitasının bütün orkestr səslərini özüm yazdım və onlar indi də filarmoniyanın kitabxanasındadır. Bu süita ilə mənim orkestrə məhəbbətim başladı". Arif Məlikovun maestro Niyazi ilə dostluğu da, yaradıcılıq əlaqələri də o vaxtlardan başladı. Bəstəkar etiraf edirdi ki, belə bir görkəmli sənətkar yoluna çıxmasaydı, bəlkə də musiqiyə münasibəti bir başqa olardı.

Ali təhsilini başa vurduqdan sonra, o, 1960-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başladı. Və taleyini bu təhsil ocağına bağladı...

## Dünyanı fəth edən "Məhəbbət əfsanəsi"

Yaradıcılıq eşqi qəlbində aşıb-daşırdı. Qərara gəldi ki, irihəcmli səhnə əsəri yazsın. A.Zöhrabbəyovun "Odlar ölkəsi" kitabı əsasında baletə başlamaq niyyətində ikən müəllimi Qara Qarayev ona şair Nazim Hikmətin pyesi əsasında yazılmış kiçik libretto verdi. Əsər Arif Məlikovu özünə cəlb etdi. Beləliklə, ilk irihəcmli əsərini yazmağa başladı. Baletin üzərində iki il çalışdı. Nəhayət, gözlənilən gün gəldi. "Məhəbbət əfsanəsi" baletinin premyerası 1961-ci il martın 23-də Leninqrad (indiki Sankt-Peterburq) Akademik Opera və Balet Teatrının səhnəsində keçirildi. Tamaşanın xoreoqrafı Yuri Qriqoroviç, rəssamı Simon Virsaladze, dirijoru Maestro Niyazi idi. Və o möhtəşəm təqdimat günü yalnız müəllif üçün deyil, çoxları üçün unudulmaz oldu. Tanınmış bəstəkar Dmitri Şostakoviç bildirirdi: "Yeni balet sovet xoreoqrafiyasında böyük hadisədir... Bu tamaşa bir mərhələdir".

"Məhəbbət əfsanəsi" müəllifə gənc yaşda dünya şöhrəti qazandırdı. Balet dünyanın böyük səhnələrində tamaşaya qoyuldu və hər dəfə də tamaşaçıları heyran etdi. Qara Qarayev yazırdı: "Hər dəfə Bakıdan uzaqlarda doğma Azərbaycan musiqisini eşidəndə ürəyim fərəh və qürurla dolur. "Məhəbbət əfsanəsi"nin yaranması musiqi həyatımızda əlamətdar hadisə, incəsənətimizin bayramıdır. İstərdim ki, bizim bəstəkarlar müasir dövrlə səsləşən əsərləri ilə Azərbaycan torpağını daha da şöhrətləndirsinlər".

"Yer üzündə iki nəfər" adlı baletinin librettosunu Robert Rojdestvenski yazdı. Əsər 1969-cu ildə Mariinski Teatrda səhnəyə qoyuldu. Bəstəkarın "İki ürək dastanı" adlı baletinin premyerası isə 1983-cü ildə Daşkənd və Kuybışev (indiki Samara) səhnələrində keçirildi.

Arif Məlikov ilk simfoniyasını tələbə ikən bəstələdi. Birinci simfoniya onun diplom işi idi. Sonralar bu sahədə də yaradıcılığını davam etdirdi. Ümumiyyətlə, bəstəkar 1958-2000-ci illərdə səkkiz simfoniya yazdı. O, "Ölümdən güclü", "Yer üzündə iki nəfər", "Əlibaba və qırx quldur", "İki ürək dastanı", "Yusif və Züleyxa" baletlərinin, "Nağıl", "Füzuli", "Metamorfozlar", "Axırıncı aşırım", "Qəhrəmani" simfonik poemalarının, "Dalğalar" operettasının, Xalq Çalğı alətləri Orkestri üçün kamera instrumental (prelüdlər, süitalar) və digər əsərlərin müəllifidir. Bir sıra teatr tamaşalarına, "Sehrli xalat", "Axırıncı aşırım", "Ulduzlar sönmür", "Qərib cinlər diyarında" və başqa kinofilmlərə musiqi yazdı. O, dirijorluq arzusuna da çatdı. Bakıda və Moskvada, Avropanın müxtəlif şəhərlərində özünün müəllif konsertlərində dəfələrlə dirijorluq etdi və birinci dirijorluq kateqoriyasına layiq görüldü.

Simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərləri ilə musiqi tariximizdə ölməzlik qazanan Arif Məlikovun 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" 2016-cı ildə çapdan çıxdı.

Əsərləri dünyanın bir çox ölkəsində - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Braziliya, Avstriya, Norveç, Finlandiya, İtaliya, Misir, Tailand, Yuqoslaviya, Bolqarıstan, Rumıniya, Macarıstan, Çexiya, Slovakiya, Polşa, Almaniya, Özbəkistan, Qazaxıstan, Moldova, Ukrayna və Gürcüstanda ifa edilib.

Böyük yaradıcılıq yolu keçən bəstəkar Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyətini də böyük həvəslə davam etdirdi. Uzun illər ərzində pedaqoq kimi zəngin bilik və təcrübəsini tələbələrinə öyrətdi. O, 1966-1968-ci illərdə baş müəllim, 1968-1978-ci illərdə dosent, 1979-cu ildən professor oldu. 1982-ci ildən ömrünün sonunadək bəstəkarlıq kafedrasının müdiri işlədi. 2001-ci ildə "Sənətşünaslıq" ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü oldu. 2014-cü ildə isə AMEA-nın həqiqi üzvü seçildi.

Arif Məlikov həm də istedadlı rəssam idi.

İşlərinin çox olması onu ictimai fəaliyyətdən uzaqlaşdıra bilmədi. SSRİ xalq deputatı seçilən Arif Məlikovun respublikamızın ictimai-siyasi həyatında böyük rolu oldu. Xüsusən də ötən əsrin son onilliklərində baş verən gərgin siyasi, ictimai hadisələrə münasibətdə o, hər zaman vətənpərvər ziyalı mövqeyi nümayiş etdirdi.

Ən yüksək fəxri adlara, təltiflərə, mükafatlara layiq görülən dünyaşöhrətli bəstəkar, istedadlı rəssam, akademik Arif Məlikov 2019-cu il mayın 9-da səksən altı yaşında dünyasını dəyişdi.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Görkəmli bəstəkar Arif Məlikovun 90 illiyinə həsr edilən yaradıcılıq gecəsi keçirilib





**Sentyabrın 12-də Milli Aviasiya Akademiyasında Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı, "İstiqlal" ordenli, akademik Arif Məlikovun anadan olmasının 90 illiyinə həsr edilən tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə görkəmli bəstəkarın bənzərsiz yaradıcılıq nümunələrindən danışılıb və ölməz musiqi əsərləri səsləndirilib. Bildirilib ki, böyük bəstəkarın yaradıcılığında kinofilmlərə və teatr tamaşalarına yazdığı musiqilər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanib. Onun "Sehrli xalat", "Ulduzlar sönmür", "Axirıncı aşırım " kimi filmlərə, "Natəvan", "Atabəylər" tamaşalarına yazdığı musiqi əsərləri bu gün də sevilə-sevilə dinlənilir.

A.Məlikovun çoxşaxəli yaradıcılığında estrada əsərləri də mühüm yer tutub. Bəstəkarın yazdığı "Yaşatdi məni", "Dənizdə ay çiməndə", "Gəl bizim dağlara" və digər mahnılar tanınmış mügənnilərimizin ifasinda böyük şöhrət qazanıb. Bəstəkarın bəstələdiyi mahnıları Rəşid Behbudov, Şövkət Ələkbərova, Flora Kərimova və digər tanınmış müğənnilərimiz böyük məharətlə ifa ediblər.

Milli Aviasiya Akademiyasının tələbələri və professor müəllim heyətinin qarşısında çıxış edən Xalq artisti Fidan Haciyeva, Əməkdar artist Ramil Qasımov, müğənnilər Kamilə Nəbiyeva, İnarə Babayeva bəstəkarın müxtəlif illərdə yazdığı estrada, operetta və klassik janrda bəstələdiyi mahnıları təqdim ediblər.

İfaçıları Xalq artisti Ənvər Sadıqovun "Qaytağı" instrumental ansamblı müşayiət edib.

## ŞEYXÜLİSLAM: "Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin dostluq, qardaşlıq mühitində yaşamaları böyük nemətdir"



**Sentyabrın 12-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Yunanıstanın Azərbaycandakı səfiri Xristos Kapodistrias ilə görüşüb.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, QMİ sədri A.Paşazadə Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin dostluq, qardaşlıq, qarşılıqlı anlaşma mühitində yaşamalarını böyük nemət kimi dəyərləndirib, ölkəmizin xristian dünyası ilə əməkdaşlıq əlaqələrinin dərinləşməsinin müsbət hal olduğunu qeyd edib.

Şeyxülislam Azərbaycanda dinlər və məzhəblər arasında əlaqələrin yüksək səviyyəsinin təmin olunmasında və davam etdirilməsində dövlət siyasətinin, şəxsən ölkə rəhbərinin səylərinin və fəaliyyətinin böyük rol oynadığını vurğulayıb. O, Azərbaycanın dini mərkəzinin pravoslav konfessiyası ardıcılları, o cümlədən Rus Pravoslav Kilsəsi, Gürcü Pravoslav Kilsəsi ilə tarixən yaxın əlaqələrinin mövcudluğuna diqqət çəkib, Yunan Pravoslav Patriarxı I Varfolomey ilə dinlərarası dialoq müstəvisində məhsuldar əlaqələrin səviyyəsindən razılığını ifadə edib. G20 Dinlərarası Forum ərəfəsində ötən ay İstanbulda Ekumenik Patriarxlıqda baş tutan tədbirdə olduğunu xatırladan Şeyxülislam QMİ nəzdində fəaliyyət göstərən Beynəlxalq Bakı Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzinin xətti ilə keçirilən beynəlxalq forumlar barədə ətraflı məlumat verib. Bildirib ki, yunanəsilli nüfuzlu din xadimi - Xalkidon Mitropoliti Emanuil Adamakis ilə əməkdaşlıq dinlərarası münasibətlər müstəvisinə öz töhfələrini verir.

Yunanıstan səfiri Xristos Kapodistrias Azərbaycanda mövcud olan dinlərarası səmimi münasibətlərin, məzhəblərarası qarşılıqlı ehtiram mühitinin təkcə Qafqaz bölgəsi üçün deyil, Avropa məkanı üçün böyük maraq və əhəmiyyət kəsb etdiyini vurğulayıb. Diplomat ötən ilin oktyabrında Sofiyada enerji layihəsinin açılış mərasimində Prezident İlham Əliyev və Baş nazir Miçotakis arasındakı əhəmiyyətli görüşün Yunanıstan-Azərbaycan ikitərəfli münasibətlərinə yenidən güclü təkan verdiyini xatırladıb.

Şeyxülislam A.Paşazadə son dövrlər Azərbaycanla Yunanıstan arasında iqtisadi münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib və bunun dini-mənəvi sahədə də əlaqələrin genişlənməsinə müsbət təsir etdiyini vurğulayıb.

Görüşdə A.Paşazadə Azərbaycanın beynəlxalq hüquq çərçivəsində öz torpaqlarını işğaldan azad etməsi, ərazi bütövlüyünün bərpası uğrunda 44 günlük Vətən müharibəsində qazanılmış zəfər barədə danışıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və siyasi iradəsi sayəsində ordumuzun 30 ilə yaxın erməni işğalı altında olmuş əzəli torpaqlarını azad etməsindən sonra apardığı quruculuq işlərindən və bölgədə sülh yönündə səylərindən ətraflı bəhs edib.

QMİ sədri təəssüflə qeyd edib ki, erməni apostol kilsəsi sülhü deyil, yenidən müharibəni təbliğ edir, revanşizm ideyalarını körükləyir. Halbuki sülhü tərənnüm etmək, xalqlar arasında qarşılıqlı anlaşma mühiti yaratmaq dini liderlərin mənəvi borcudur.

Sonda səfirə Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyətini əks etdirən müxtəlif nəşrlər təqdim olunub.

## Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatı qəti surətdə təkzib edirik

Sentyabrın 12-si 20:30 radələrində Azərbaycan Ordusunun bölmələri ilə guya Ermənistan silahlı qüvvələrinin Kilsəkənd yaşayış məntəqəsi istiqamətində olan mövqelərin atəşə tutulması ilə bağlı qarşı tərəfin yaydığı məlumat yalandır.

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

"Ermənistan müdafiə nazirliyinin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik", - deyə məlumatda bildirilir.

*AZƏRTAC*

## RF XİN Ağdam-Xankəndi yolu ilə Rusiyanın yükünün çatdırılmasını şərh edib

**"Rusiya hesab edir ki, yaxın vaxtlarda Ağdam marşrutu ilə paralel olaraq Laçın yolu da fəaliyyətə başlayacaq".**

AZƏRTAC xəbər verir ki, bu barədə RF XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın Rusiya Qırmızı Xaç Cəmiyyətinin humanitar yardımının Qarabağın erməniəsilli əhalisinə çatdırılması ilə bağlı şərhində bildirilib.

Şərhdə qeyd olunub ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun irəli sürdüyü təşəbbüsə əsasən, iyulun 25-də Moskvada Azərbaycan və Ermənistanın xarici siyasət idarələri rəhbərlərinin iştirakı ilə üçtərəfli görüş əsnasında bütün maraqlı tərəflər ilə qarşılıqlı fəaliyyət əsasında Laçın və Ağdam marşrutlarının paralel şəkildə fəaliyyət göstərməsi sxemi hazırlanıb. Mövqelərin xeyli dərəcədə fərqli olması, yüksək səviyyədə etimadsızlıq səbəbindən bu iş heç də asan olmayıb. Birinci addım kimi, bu il sentyabrın 12-də regiona ümumrusiya ictimai təşkilatı - "Rusiya Qırmızı Xaçı"nın xətti ilə humanitar yardım partiyası göndərilib".

M.Zaxarova ümidvar olduğunu bildirib ki, əvvəllər əldə olunmuş anlaşmaya uyğun olaraq, yaxın vaxtlarda yüklər mütəmadi şəkildə hər iki istiqamət üzrə maneəsiz daxil olacaq ki, bu da öz növbəsində Bakı ilə Qarabağın erməni əhalisi arasında dialoqun başlanmasına və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üzrə 2020-2022-ci illərdə yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmaların bütün kompleksinin reallaşmasına dair ritmik prosesin bərpa olunmasına şərait yaradacaq.

## Rusiya Qızıl Xaç Cəmiyyətinin avtomobili Xankəndidən Ağdama qayıdıb

**"Səhər saatlarında Ağdamdan Xankəndiyə gedən Rusiya Qızıl Xaç Cəmiyyətinin (QXC) yük maşını geri qayıdıb".**

Bu barədə AZƏRTAC-a Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) baş katibi Ceyhun Mirzəyev məlumat verib.

O bildirib ki, Rusiya Qızıl Xaç Cəmiyyətinin (QXC) Azərbaycanın Qarabağ iqtisadi rayonundakı erməniəsilli sakinlərə göndərdiyi ərzaq və qeyri-ərzaq məhsulları Xankəndidə müvafiq anbara boşaldılıb: "Artıq onlar Ağdam-Xankəndi yolu ilə Ağdama qayıdıblar. Rusiya Qızıl Xaç Cəmiyyətinin əməkdaşları sabah ölkələrinə yola düşəcəklər".

Bununla da Azərbaycanın Qarabağın erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi Ağdam-Xankəndi yolundan istifadə olunmaqla yardım göstərmək təklifi artıq reallığa çevrilib.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının Avtomatlaşdırılmış telefon stansiyasının təkmilləşdirilməsi üzrə işlərin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 05 sentyabr 2023-cü il tarixli qərarına əsasən "Caspel" MMC qalib elan edilmişdir.

*Satınalmalar komissiyası*

# Azərbaycanlı iş adamı Beynəlxalq Sokrat Mükafatına layiq görülüb



Beynəlxalq Sokrat Mükafatı (International Socrates Award) Avropanın ən nüfuzlu mükafatlarından biridir. Avropa Biznes Assambleyasının ekspertləri tərəfindən hər il müxtəlif ölkələr üzrə iqtisadiyyatın inkişafına böyük töhfələr verən nüfuzlu təşkilatlar, o cümlədən onlara rəhbərlik edən şəxslər bu mükafatla təltif olunurlar.

Bu il Oksford Univesitetində keçirilən "Liderlər sammiti"ndə dünya inşaat sənayesində ən son texnologiyalar və innovasiyaları tətbiq edən, ilklərə imza atan, mötəbərlik və nüfuzu ilə seçilən, qloballaşaraq Azərbaycan keyfiyyətini dünyaya inamla nümayiş etdirən "Mətanət A" Şirkəti böyük rəğbətlə qarşılandı.

"Mətanət A" Şirkətinin Müşahidə Şurasının sədri, Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri, professor Elxan Bəşirov Böyük Britaniyada fəaliyyət göstərən Beynəlxalq Sokrat Komitəsi tərəfindən İqtisadiyyat və Biznes kateqoriyasında İnnovasiyaların yaradılması və tətbiqi üzrə Beynəlxalq Sokrat Mükafatına (Sokrates International Award) layiq görüldü.







Regional və beynəlxalq miqyasda müsbət imicə malik qaliblər nüfuzlu ictimai təşkilatları özündə birləşdirən Beynəlxalq Sokrat Komitəsi tərəfindən peşəkar və ictimai fəaliyyətdəki böyük uğurlara görə mükafatlarla təltif edilirlər. Mükafatın verilməsi ictimai fikrin öyrənilməsi nəticəsində təşkil olunur və bu mükafatla qaliblərin fəaliyyəti beynəlxalq səviyyədə tanınır.

Dünya miqyasında bu nüfuzlu mükafatla daha əvvəllər BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO) baş direktoru Karlos Maqaranyos, Rusiya Dövlət Dumasının sədri Gennadi Seleznyov, Ruminiyanın Baş naziri Adrian Nastase və digər nüfuzlu şəxslər təltif olunmuşdur.










## İcma: "ABŞ-nin haqq işimizə məhəl qoymaması onun insan hüquqlarına sadiqliyinə ziddir"

**Amerika Birləşmiş Ştatlarının (ABŞ) bizim haqq işimizə heç bir məhəl qoymaması onun insan hüquqlarına sadiqliyinə ziddir.**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

"Biz Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Entoni Blinkenin 2023-cü il sentyabrın 10-da verdiyi bəyanatı qeydə aldıq. O, bəyanatında Ermənistan və Azərbaycan arasında istənilən sülh razılaşmasının Azərbaycanın Qarabağ bölgəsinin sakinlərinin hüquqlarını və təhlükəsizliyini qorumalı olduğunu vurğulayır və Bakı ilə Qarabağın sakinləri arasında dialoqa çağırış edir.

Biz çox təəssüf edirik ki, Dövlət katibi Blinken Ermənistandan zorla qovulmuş azərbaycanlıların məsələsinə toxunmayıb. Məlumdur ki, Ermənistan öz ərazisindən azərbaycanlıların hamısını zorla çıxarıb və onları öz evlərinə qayıtmaq hüququndan məhrum etməkdə davam edir. Ermənistan bu məsələdə Qərbi Azərbaycan İcması ilə dialoqa belə razılıq verməyib.

Bunun əksinə olaraq, Azərbaycan 2020-ci ildə müharibə başa çatdıqdan dərhal sonra ermənilərin Qarabağ bölgəsinə qayıtmasına şərait yaratmışdır. Azərbaycan həmçinin Qarabağda yaşayan ermənilərlə təmaslar istiqamətində fəal addımlar atır və onları cəmiyyətə inteqrasiya etməyə çalışır. Bundan əlavə, ermənilər Qarabağ bölgəsindən kənar Azərbaycanın ərazilərində tamhüquqlu vətəndaş kimi yaşayırlar.

Bu konteksti nəzərə alsaq, ABŞ-nin bizim haqq işimizə heç bir məhəl qoymaması onun insan hüquqlarının qlobal miqyasda müdafiəsi ilə bağlı bəyan etdiyi sadiqliyinə ziddir. Bu, ondan xəbər verir ki, ya ABŞ-ni etnik azərbaycanlıların insan hüquqları maraqlandırmır, ya da bu dövlət, əhali qrupunun etnik təmizlənməyə məruz qalmasından sonra onun taleyi ilə maraqlanmağı dayandırır. Bu, bizdə ciddi narahatlıq doğurur. Dövlət katibi Blinkenə məktubla müraciət etməyimizi və onun cavabsız qalmasını nəzərə alsaq, ABŞ hökumətinin bu mövqeyi xüsusilə məyusedicidir.

Biz təkidlə ABŞ hökumətini insan hüquqları məsələsində ayrı-seçkilik yanaşmasına son qoymağa və Ermənistandan qovulmuş azərbaycanlıların qanuni evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasını dəstəkləməyə çağırırıq. Biz həmçinin ABŞ hökumətindən Ermənistan üzərində təsir imkanlarından istifadə edərək bu dövlətin bizim icma ilə məzmunlu dialoq aparmağa başlamasını təmin etməyi xahiş edirik", - deyə bəyanatda vurğulanıb.

# Qırğızıstan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan edib

Qarabağda baş vermiş hadisələrlə əlaqədar olaraq Qırğız Respublikası Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan edib. AZƏRTAC xəbər verir ki, bu barədə Qırğızıstanın Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

"Beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığının qətiyyətlə tərəfdarı olaraq, Qırğız Respublikası bütün məsələlərin BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn fundamental norma və prinsiplərinə uyğun olaraq siyasi-diplomatik yolla tənzimlənməsinə çağırır", - deyə bəyanatda qeyd olunur.

# Astarada şəhid polkovnik-leytenant Nail Orucovun ailəsi ziyarət olunub

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev vətəndaşların qəbulu ilə əlaqədar Astara rayonuna səfəri çərçivəsində şəhid polkovnik-leytenant Orucov Nail Rəfail oğlunun ailə üzvləri ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə yaxınları şəhidlə bağlı xatirələrini bölüşüb, onun keçdiyi şərəfli döyüş yolundan danışıblar.

Qeyd edək ki, polkovnik-leytenant Nail Orucov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə müxtəlif vəzifələrdə çalışıb. Ehtiyata buraxıldıqdan sonra "Aztelekom" MMC-nin Astara Telekommunikasiya Qovşağında işləyib.

Vətən müharibəsi zamanı - sentyabrın 29-da döyüş bölgəsinə yollanıb. Oktyabrın 31-də Qubadlı rayonu uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub.

Nail Orucov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# Hayastanın torpağın altında gizlətdiyi cinayətlər

## Kütləvi məzarlıqların aşkar edilməsi erməni faşizmini ifşa edir



**Heç bir dövlətçilik tarixi olmayan haylar "Böyük Ermənistan" barədə xülyalarını reallaşdırmaq üçün ta əzəldən bəşəriyyət əleyhinə cinayət yolunu seçiblər. Bədnam qonşumuz xüsusilə XX əsrin əvvəllərindən etibarən siyasi məqsədlərini qanunsuz silahlı təhdidlərlə həll etməyə çalışıb, ölkəmizə qarşı ərazi iddiaları irəli sürərək genosid, terror, etnik təmizləmə və deportasiya həyata keçirib, müharibə yolu ilə ələ keçirdikləri doğma torpaqlarımızda mülki insanlarımızı əsir və girov götürüb, onları min bir işgəncə ilə qətlə yetirib.**

Özlərini dünyanın inkişaf etmiş, qədim və zəngin tarixə malik milləti hesab edən, əslində isə, soysuz olan ermənilərin davamlı olaraq törətdikləri terror, soyqırımı və təcavüzlərə nəzər salmaq üçün uzaq tarixə getməyə ehtiyac yoxdur. İşğaldan azad olunmuş ərazilərimizdə təkcə Vətən müharibəsindən keçən üç ilə yaxın müddətdə tapılan kütləvi məzarlıqlar havadarlarının kölgəsində "qəhrəmanlıq" nümayiş etdirən ermənilərin faşist mahiyyətini ortaya qoyur. Bu gün 44 günlük müharibədə ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan özlərini bütün dünyaya "məzlum" və "zavallı" kimi təqdim edən hayların torpağın altında gizlətdiyi müharibə cinayətlərini də aşkara çıxarır. Bu mənada Vətən müharibəsi təkcə torpaqlarımızın işğaldan azad olunmasına görə deyil, həm də Azərbaycan həqiqətlərinin nümayişi və erməni barbarlığının növbəti ifşası baxımından da böyük tarixi əhəmiyyət kəsb edir.

### Vəhşi qəbilə təfəkküründə olanlar

Qarabağ və Şərqi Zəngəzurda aparılan tikinti-quruculuq və minatəmizləmə işləri zamanı mütəmadi olaraq kütləvi məzarlıqların aşkar edilməsi sübut edir ki, ermənilər azərbaycanlılara qarşı məqsədli şəkildə saysız-hesabsız müharibə cinayətləri törədiblər. Hərbi Prokurorluğun Mətbuat xidmətinin sentyabrın 11-də yaydığı məlumata görə, Qubadlı rayonunun Məlikəhmədli kəndində və Zəngilan rayonunun Vejnəli kəndində Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal edilən insan meyitlərinin qalıqları tapılıb. Ümumiyyətlə isə, İkinci Qarabağ savaşından sonra aparılmış axtarış-qazıntı işləri zamanı işğaldan azad olunmuş ərazilərimizdə 400-ə yaxın vətəndaşımıza aid meyit qalıqları aşkar edilib.

Xocalı soyqırımı, Ballıqaya qətliamı, Ağdaban və Başlıbel faciələri zamanı dinc əhaliyə qarşı qırğın törədən ermənilər ağlasığmaz vəhşiliklər və insanlığa sığmayan hərəkətlər törədiblər. Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda indiyədək doqquz kütləvi məzarlıq aşkarlanıb. Bu günədək müvafiq qurumlar tərəfindən Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Ağdam rayonunun Sırxavənd Sarıcalı, Xocalı rayonunun Fərrux, Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndləri və digər ərazilərdə aparılmış axtarış tədbirləri nəticəsində aşkarlanan kütləvi məzarlıqlardan, eləcə də Şuşa həbsxanasının ərazisindən Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsusluğu ehtimal edilən xeyli sayda insan meyitinin qalıqları ekshumasiya olunub.

Belə məzarlıqların və meyit qalıqlarının axtarış-qazıntı işləri davam etdiyi müddətdə mütəmadi aşkarlanacağı gözlənilir. Sonradan azad olunmuş Birinci Qarabağ müharibəsi əsirlərinin xatirələrində yer alan fikirlər də əminlik yaradır ki, digər rayon və kəndlərdə olduğu kimi, hazırda Rusiya sülhməramlılarının yerləşdirildiyi ərazilərimizdə də belə kütləvi məzarlıqlar çoxdur. Rəsmi məlumatlardan o da aydın olur ki, azərbaycanlılar çox böyük amansızlıq və işgəncə ilə qətlə yetiriliblər. Skeletlərdə aşkarlanan müxtəlif işgəncə izləri, onların əllərinin və ayaqlarının məftil və ya kəndirlə bağlı olması kimi faktlar bunu sübut edir.

Torpaqlarımız işğaldan azad edildikdən sonra Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşların məzar yerlərinin müəyyən edilməsi istiqamətində həyata keçirilən axtarış tədbirləri ermənilərin tarixboyu vəhşi qəbilə təfəkkürü ilə yaşadığını göstərir. Azərbaycan tərəfi Birinci Qarabağ müharibəsində taleyi naməlum qalan 4 minə yaxın soydaşımız, eləcə də kütləvi məzarlıqların yerinin göstərilməsi barədə Hayastana dəfələrlə müraciət etsə də, ermənilər beynəlxalq hüquq normalarına zidd çıxmaqla, xain xislətlərinə sadiq qalaraq məsələ ilə bağlı heç bir məlumat vermirlər.

Azərbaycan kütləvi məzarlıqları aşkar etməklə hayların itirməyə çalışdıqları cinayətlərinin izlərini ortaya çıxarır. Bu, Hayastanın bəşəri dəyərlərə hörmət edən bütün xalqlara, o cümlədən azərbaycanlılara münasibətdə nə qədər qəddar olduğunu aşkar edir.

### Dünya bu ədalətsizliyə də seyrçi qalıb

Həmişə olduğu kimi, bu dəfə də bir sıra dövlətlər və beynəlxalq təşkilatlar ermənilərin cinayətlərinə susur, itkin vətəndaşlarımızın aqibəti barədə Hayastanın məlumat verməsi üçün ona təzyiq göstərmirlər. Bunun nəticəsidir ki, tarixboyu müharibə cinayətləri törətmiş ermənilər düz yola gəlmək istəmir, əksinə, barbar xislətlərini daha da artırır. Digər tərəfdən də hər vəchlə cinayətlərini ört-basdır etməyə, özlərini "mələk" cildində göstərməyə çalışırlar.

Lakin Azərbaycan Ermənistana Vətən müharibəsində olduğu kimi, yenə də dərs verməyə davam edir. Regionun ən güclü dövləti və müharibədə qalib tərəf olaraq hər keçən gün öz şanlı zəfərinə zəfər calayır. Qarabağ və Şərqi Zəngəzuru yenidən qurur, məcburi köçkünlərin yurda qayıdışını təmin edir və bunlar azmış kimi, bütün dünyanın seyrçi qaldığı mövcud haqsızlığa qarşı yenə təkbaşına mübarizə aparır, itkin düşən soydaşlarımızın aqibətini özü müəyyən edir. Bütün bunlar sübut edir ki, Azərbaycan ermənilərin heç bir cinayətini cəzasız qoymur və hayları ifşa edir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Azərbaycan Milli Antidopinq Agentliyi" PHŞ

## "İdman sahəsində müxtəlif tədbirlərin keçirilməsi"xidmətinin satın alınması üzrə təkliflər sorğusu elan edir

Müsabiqədə iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları və ya asan imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər iştirak haqqını asanpay vasitəsi ilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş təkliflər sorğusunun Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

**Satınalan təşkilatın ünvanı:** Bakı şəhəri, İzmir küç., 8, Hyatt Tower III
Telefon: (+99412) 599 08 28
Fax: (+99412) 599 08 29
İştirak haqqı: 350 AZN
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirak haqqı satınalan təşkilatın portalda (etender.gov.az) bank rekvizitlərində qeyd etdiyi hesaba köçürüldükdən sonra təkliflər sorğusunu əldə etmək üçün ödəniş qəbzi ilə birlikdə satınalan təşkilata müraciət olunur.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;

Müvafiq vergi orqanı tərəfindən tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır. Məktubun əsli skan olunmuş şəkildə və ya məktub elektron formada əldə olunduğu zaman həmin sənədin notariusda təsdiq olunmuş forması - PDF formatda Portala əlavə edilməlidir.

2. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;

Müvafiq orqan tərəfindən tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır. Sənədin əsli rəsmi blankda və ya məktub elektron formada əldə olunduğu zaman həmin sənədin notarial təsdiq olunmuş forması - PDF formatda Portala əlavə edilməlidir.

3. İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;

Dövlət Statistika Komitəsi tərəfindən əldə edilmiş olmalı sənəd -PDF formatda portala əlavə edilməlidir.

4. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;

Müvafiq orqan tərəfindən tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır. Məktubun əsli rəsmi blankda və ya məktub elektron formada əldə olunduğu zaman həmin sənədin notarial təsdiq olunmuş forması - PDF formatda Portala əlavə edilməlidir.

5. Malgöndərənin (podratçının) satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması:

- Malgöndərənin (podratçının) dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin, dövlət reyestrindən çıxarışının, nizamnaməsinin elandan sonrakı tarixə notarial qaydada təsdiq edilmiş surəti (skan edilərək PDF formatında Portalda yerləşdirilməlidir, notariusun möhür və imzası olan səhifə də skan edilərək əlavə edilməlidir).
- Malgöndərənin (podratçının) bank rekvizitləri, faktiki və hüquqi ünvan göstərilməklə rəsmi blankda imzalanmalı, möhürlənməli və PDF formatında Portala əlavə olunmalıdır.
- Malgöndərənin (podratçının) rəhbərinin vəzifəyə təyin olunmasını təsdiq edən sənəd (sənədin əsli skan edilərək PDF formatında Portalda yerləşdirilməlidir).

6. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;

Tender elanı tarixindən sonrakı tarixə bank tərəfindən təqdim olunmalıdır - məktubun əsli skan olunmuş şəkildə - PDF formatda Portala əlavə edilməlidir.

7. Son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (vergi Bəyannaməsi);

Vergi orqanının rəsmi blankında və ya elektron təqdim olunmuş sənədin üzərində "əsli ilə düzdür" göstərilməlidir - PDF formatda Portala əlavə edilməlidir.

8. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
9. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin qüvvədə olma tarixindən sonra 30 bank günü qüvvədə olmalıdır);

**İxtisas göstəriciləri:**

**Malgöndərənin (podratçının) satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması:**

- İddiaçının analoji işlərdə təcrübəsi-son 5 il ərzində yerli və xarici dövlət və qeyri-dövlət sektorunda irimiqyaslı işgüzar və beynəlxalq tədbirlərin və konfransların keçirilməsi - yerinə yetirdiyi müqavilələr haqqında rəsmi məlumat, minimum 7 il iş təcrübəsi, analoji işlərin yerinə yetirilməsi ilə bağlı minimum 3 (oxşar işlərin) müqavilələrin surəti, təhvil-təslim aktları, qaimələr və s. təsdiqedici sənədlər.
- Satınalma müqaviləsinin icrasını təmin etmək üçün malgöndərənlərin zəruri texniki imkanlara, texnikaya və avadanlıqlara malik olmalıdır. Tədbirin keçirilməsi zamanı satınalan təşkilatın lazım olan avadanlıqlarla təmin edilməsini təsdiq etmək üçün müvafiq təşkilat ilə imzalanan müqavilənin surəti.

Müqavilənin predmetində konkret olaraq zəruri texniki imkanlara, texnikaya və avadanlıqlara malik olması (eyni zamanda avadanlıqların icarəsi) qeyd olunmalıdır və ya təşkilatın lazım olan avadanlıqlarla təmin edilməsini təsdiq edən təhvil- təslim aktının surətini təqdim etməlidir.

Təqdim edilən müqavilədə (əlavələr, qoşmalar daxil) icra edilmiş xidmətlər haqqında ətraflı məlumat mütləq qeyd edilməlidir. Əks təqdirdə (ümumi tədbir təşkili ilə bağlı müqavilə təqdim edildikdə) iddiaçının təklifi qeydə alınmayacaqdır. Bu bənddə qeyd edilən tələbə cavab verməyən təkliflərin qeydə alınmamasının səbəbi ümumi şəkildə müqavilənin predmeti tədbir təşkili olduqda tədbirin hansı növdə keçirildiyini müəyyən etmək mümkün olmamasıdır. Əlavə olaraq, tədbir təşkilinin anlayışı geniş olduğunu nəzərə alaraq, istənilən tədbirin (məsələn, keytrinq xidməti və ya açıq hava tədbiri) keçirilməsi tender elanında olan tədbirin keçirilməsi üzrə tələblərə cavab verilməsi anlamına gəlmir.

- Transfer xidmətinin göstərilməsi məqsədilə ixtisaslaşmış nəqliyyat vasitələrinə malik olması və ya müvafiq təşkilat ilə imzalanan müqavilənin surəti ilə bağlı təsdiqedici sənədləri təqdim etməlidir.

Qeyd olunan sənədlər Azərbaycan dilində, düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti daxil olmaqla) 27.09.2023-cü il saat 13:00-a qədər satınalan təşkilatın ünvanı: İzmir küç., 8, Hyatt Tower III, 5-ci mərtəbədə yerləşən ünvanına (Telefon: 012 599 08 28) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 27.09.2023-cü il saat 15:00-da İzmir küç., 8, Hyatt Tower III ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tenderin predmetinin ətraflı təsviri, həmçinin onun təqdim olunmasının müddəti və yeri:** "İdman sahəsində müxtəlif tədbirlərin keçirilməsi" xidmətlərinin satın alınması - ətraflı məlumat tenderin Əsas şərtlər toplusunda qeyd olunmuşdur.

**İcra müddəti:** müqavilə imzalandıqdan sonra sifariş daxil olduqdan sonrakı 3 gün ərzində xidmətlər icra olunmalıdır.

**İcra ünvanı:** Bakı şəhəri və müxtəlif regionlarda.

**İmzalanacaq satınalma müqaviləsinin forması və şərtləri:** - imzalanacaq satınalma müqaviləsinin forması və şərtləri əlavə olunacaqdır və eyni zamanda Portal vasitəsilə dərc olunacaqdır.

**Satınalma prosedurlarına dair məlumat vermə formaları:** Satınalan təşkilatla malgöndərənlərin bir-birinə göndərdikləri sənədlər, bildirişlər, qərarlar və bu qanunda nəzərdə tutulan digər məlumatlar yazılı formada təqdim olunur.

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Elektron satınalma zamanı satınalan təşkilat bütün iştirakçıların eyniləşdirmə məlumatlarını məxfi saxlayır.

İddiaçılar və onların işçiləri ƏŞT-ni, bütün digər məlumatları və yazışmaları məxfi saxlamalı və satınalan təşkilatın yazılı razılığı olmadan hər hansı belə sənəd və məlumatları üçüncü tərəflərə açıqlamamalıdırlar. ƏŞT satınalan təşkilatın mülkiyyətidir və iddiaçılara yalnız təkliflərini hazırlamaq və təqdim etmək məqsədilə verilmişdir. ƏŞT-nin surətini çıxarmaq və ya onu hər hansı digər məqsəd üçün istifadə etmək olmaz.

**Satınalan təşkilat tərəfindən tender təkliflərinin qiymətləndirilməsi** ƏŞT-də göstərilmiş prosedurlara və meyarlara müvafiq surətdə aparılır, bu qanunun 50-3-cü maddəsinə uyğun olaraq bütün təkliflərin Portal vasitəsilə avtomatik qiymətləndirilməsi təmin olunur.

Müsabiqə predmeti üzrə işlərin görülməsi ilə bağlı nəzərdə tutulan vergilər, rüsumlar, digər məcburi ödəmələr, eləcə də nəqliyyat, yaşayış, rabitə, sığorta xərcləri iddiaçının qiymət təklifinə daxil edilir.

Maliyyə amili - 80 baldır. Təqdim olunan təkliflər arasında ən aşağı qiymət baza olaraq maksimal 80 balla qiymətləndirilir.

Texniki amil - 20 baldır.

Texniki amillər aşağıdakı kimi dəyərləndiriləcəkdir:

| Texniki tələbin adı | Çəkisi |
|---|---|
| 1.Əsas şərtlər toplusunda qeyd olunan satın alınması planlaşdırılan xidmətlərin sifariş daxil olduqdan sonra ən qısa müddətdə icra olunmasına görə - Malgöndərən yerinə yetiriləcək xidmətlərin icrası üçün müddəti göstərməklə sənədi imzalı,möhürlü təsdiq edərək yükləməlidir. Tələb olunan formada sənəd təqdim olunarsa 10 bal, əks halda 0 bal ilə qiymətləndiriləcəkdir. | 10 bal |
| 2. Avans ödənişinə görə - avans tələb etməyən iddiaçılar 10 bal ilə, avans tələb edən iddiaçılar isə 0 bal ilə qiymətləndiriləcəkdir. | 10 bal |

**Təkliflərin satınalma predmetinin təsvirinə uyğunluğunun müəyyənləşdirilməsi meyarları və prosedurları:**

İddiaçılar tərəfindən təqdim olunan təkliflər satınalma predmetinin ətraflı təsvir hissəsində qeyd olunan bütün tələblərin hər birinə uyğun olaraq hazırlanıb təqdim olunmalıdır.

Elektron satınalmada təkliflərin qiymətləndirilməsi üçün tətbiq ediləcək riyazi düstur:

Portal tərəfindən düstura əsasən hesablanmışdır və heç bir şəkildə dəyişdirilə bilməz. İNQ = QT x MNQ / İT İNQ - İddiaçının təklifinin nisbi qiyməti (balı) QT - Qalibin təklifinin qiyməti MNQ - Meyar üzrə maksimum nisbi qiymət (bal) İT - İddiaçının təklifinin qiyməti.

**QİYMƏT təklifinin qiymətinin təsviri** - Tender təklifinin tərkibinə malın öz dəyərindən başqa çəkilən digər xərclər, sığorta, nəqliyyat, çatdırılma, vergi rüsum və s. daxil olmalıdır.

**Təklifin qiymətinin hesablanmalı və ifadə edilməli olduğu valyuta: AZN**

**Müsabiqədə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların minimum sayı: 3**

**Müsabiqəyə buraxılış üsulu, o cümlədən satınalmaya qoşulma qaydası barəsində məlumat:**

Bu qanuna, digər normativ hüquqi aktlara istinadlar və bu sənədlərin əldə olunma yeri:
Dövlət satınalmaları qanunvericiliyi və digər aidiyyəti normativ hüquqi aktlar ilə dövlət satınalmalarının vahid internet Portalın Qanunvericilik hissəsində, Portalda fəaliyyət və qanunvericiliklə bağlı yaranmış suallarınızla bağlı dövlət satınalmalarının vahid internet Portalının "Tez-tez verilən suallar" bölməsinə baxmağınız tövsiyə olunur.

**Müsabiqənin, satınalmanın bağlanmasını tənzimləyən meyarlar:**

Satınalma müqaviləsinin bağlanması barədə qərar ən aşağı qiymət əsas götürülməklə qəbul edildikdə qiymət əsasında;

Qiymətləndirmə nəticəsində ən sərfəli sayılan təklif əsas götürülməklə malgöndərənlərə təqdim olunan qiymət və digər meyarlar əsasında.

**Satınalma prosedurlarına dair izahat almanın üsulu və yeri:**

Tender təklifinin baxılması, qiymətləndirilməsi və müqayisəsi zamanı, asanlaşdırmaq məqsədilə satınalan təşkilat öz mülahizəsinə əsasən istədiyi vaxt iddiaçıdan onun tender təklifləri barədə izahat verməsini xahiş edə bilər. İzahat barədə sorğu və onun cavabı Portal vasitəsilə həyata keçirilir. Sorğu tender təkliflərinin verilməsi müddətinin qurtarmasına azı 4 bank günü qalanadək verilməlidir. Satınalan təşkilat belə sorğulara tender təkliflərinin verilməsi müddətinin qurtarmasına azı 2 bank günü qalanadək cavab verir. Bu cavab sorğuverənin ünvanı göstərilmədən tenderin Əsas şərtlər toplusunu almış bütün malgöndərənlərə göndərilir.

**Malgöndərənlərlə vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsinin adı, vəsifəsi, ünvanı:**

Keçirilən satınalma ilə bağlı sual və ya şikayət olduqda satınalan təşkilat ilə satınalmanın iştirakçıları arasında yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əlaqə saxlanılır.

Könül Süleymanova - Satınalma üzrə menecer
**konul.suleymanova@amada.az**

**Şikayət vermək hüququ:**

Satınalan təşkilatın bu müsabiqənin həyata keçirilməsi zamanı qanunvericiliklə müəyyən olunmuş vəzifələrini yerinə yetirməməsi nəticəsində itkiyə və ya zərərə düşdüyünü bəyan edən malgöndərənin (podratçının) qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət vermək hüququ vardır.

Satınalma müqaviləsi qüvvəyə minənə qədər, şikayət ona əsas vermiş hallardan malgöndərənin (podratçının) xəbər tutduğu və ya xəbər tutmalı olduğu vaxtdan 15 bank günü ərzində yazılı şəkildə satınalan təşkilatın rəhbərinə verilir.

Şikayət onu vermiş malgöndərən (podratçı) ilə satınalan təşkilat arasında qarşılıqlı razılaşma yolu ilə aradan qaldırıla bilinmirsə, satınalan təşkilatın (və ya təsdiq edən orqanının) rəhbəri həmin şikayətin verildiyi vaxtdan 20 bank günü (bu Qanunun 50-1-ci maddəsinə əsasən keçirilən satınalmalara münasibətdə isə 10 bank günü) ərzində yazılı qərar çıxarır, qərarda onun səbəbləri əsaslandırılır və şikayət tam və ya qismən təmin edilirsə, vəziyyətin düzəldilməsi üçün görüləcək tədbirlər göstərilir.

Şikayət vermək hüququ olan malgöndərən (podratçı) satınalma müqaviləsi qüvvəyə mindikdə və ya satınalan təşkilat 10 bank günü ərzində qərar çıxarmadıqda və ya çıxarılan qərardan şikayət verən razı qalmadıqda 15 bank günü ərzində İqtisadiyyat Nazirliyinə (müvafiq olaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə), yazılı olaraq AZ1000, Bakı şəhəri, Ü. Hacıbəyov küçəsi, 84 ünvanına məktub və ya **office@competition.gov.az** elektron poçt ünvanına göndərməklə şikayətini edə bilər.

***Tender komissiyası***

Jurnalist araşdırması

# Taksi fəaliyyətində islahatlar başlayır

## Yeni tələblər, qaydalar nəyi dəyişəcək?

**Bakıda taksilərlə bağlı şikayətlər, həm sərnişinlərin, həm də sürücülərin artan narazılıqları bu sahədə tənzimləmələrin həyata keçirilməsinə, qanunda dəyişiklik edilməsinə zərurət yaratmışdı. Məsələ belə idi ki, sərnişinlər xidmətin keyfiyyətindən narazılıq edir, sürücülər isə qiymətin ucuzluğundan şikayətlənirdilər.**







Eyni zamanda kimliyindən, avtomobil idarə etmək səriştəsindən, sağlamlıq durumundan asılı olmayaraq, hər kəs taksi fəaliyyətinə əlavə gəlir mənbəyi kimi yanaşaraq, xarici aqreqatorların mobil tətbiqindən qeydiyyatdan keçərək şəxsi maşınları ilə boş vaxtlarında taksi sürücüsü kimi fəaliyyət göstərirdi.





### Qanunun pozulmasına görə cərimələr tətbiq ediləcək

Son zamanlar həmçinin taksi sürücülərinin müştərilərlə qeyri-etik davranışları, narkotik istifadə edərək maşın idarə etmə halları da artmışdı. Bütün bunlar nəzərə alınaraq, "Avtomobil nəqliyyatı haqqında" qanuna dəyişiklik edildi. Dəyişikliklərdə sərnişindaşıma fəaliyyətindən tutmuş sürücülərin işə götürülməsinə qədər müəyyən tələblər yer aldı. Qanuna əsasən, taksi sifarişi operatorları fərdi məlumatlarını dövlət qeydiyyatından keçirməli və bu məlumatların mühafizəsi ilə bağlı tələblərə riayət etməlidirlər.

Araşdırmalara əsasən, Azərbaycanda təxminən 40 min taksi fəaliyyət göstərir ki, onun 28 mini Bakının payına düşür. Taksilərin 90 faizi onlayn platformalar üzərindən fəaliyyət göstərir.

Qanuna edilən dəyişikliklərə görə, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi üçün 3 min manat rüsum ödəməlidir. Bundan əlavə, taksi ilə sərnişin daşımaq üçün qiyməti 125 manat olan buraxılış vəsiqəsi və qiyməti 25 manat olan buraxılış kartı əldə etməlidir. Taksi sifarişi operatoru tərəfindən minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi və müvafiq buraxılış kartı olmayan daşıyıcıya və ya sürücüyə xidmətin göstərilməsi qadağan edilib. Buraxılış vəsiqələri 7 il müddətinə verilir.

Həmçinin taksi sahəsində fəaliyyət göstərən şirkətlər avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasına, sürücülərin tibbi müayinəsinin təşkili barədə sənəd və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və ya tibb məntəqəsi ilə müqavilə, sürücünün sərxoşluq vəziyyətinin, narkotik vasitələrin, psixotrop maddələrin istehlakı hallarının müəyyən edilməsi üçün aparılan tibbi müayinənin nəticəsi barədə məlumatın daşıyıcılarda olmalarına nəzarət etməlidirlər.

Nəqliyyat sahəsində qanunvericiliyin pozulmasına görə yeni cərimələr də tətbiq ediləcək. Belə ki, icazəsi olmayan daşıyıcıya taksi sifarişi xidmətinin göstərilməsinə görə vəzifəli şəxslər on min beş yüz manat məbləğində, hüquqi şəxslər iyirmi min manat məbləğində cərimə ediləcək. Bundan başqa, icazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə vəzifəli şəxslər iyirmi min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimələnəcək.

Gediş haqqına gəldikdə isə sərnişin daşımaları taksometrin göstəriciləri və ya taksi sifarişi xidmətinə qoşulduqda, bu funksiyaları yerinə yetirən proqram təminatı vasitəsilə müəyyən olunan qiymət üzrə ödəniş əsasında yerinə yetiriləcək.

Bütün bu dəyişikliklər oktyabrın 1-dən qüvvəyə minəcək. Hazırda qanunvericiliyin tələblərinin yerinə yetirilməsi məqsədilə Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) Təlim-Tədris Mərkəzində təlimlər həyata keçirilir.

Bəs qanuna edilən dəyişiklik, qarşıya qoyulan yeni tələblər taksi fəaliyyəti sahəsindəki çatışmazlıqları aradan qaldıraraq həm sərnişini, həm də sürücünü razı salacaqmı?

### İslahatların nəticəsini növbəti il görəcəyik

Nəqliyyat eksperti Ərşad Hüseynov qəzetimizə açıqlamasında deyib ki, taksi fəaliyyətində nizam-intizam yaratmaq, bu sahədə problemləri həll etmək üçün qanunvericiliyə dəyişikliklər edildi. Belə ki, "Avtomobil nəqliyyatı haqqında", "Yol hərəkəti haqqında" qanunlara, İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər oldu. Əsas hədəf taksi fəaliyyəti sahəsində nizam yaratmaq, xidmətin keyfiyyətini yüksəltmək, bu sahədə dövlət tənzimləməsi və nəzarətini təmin etməkdir. Bu hədəflərə çatmaq üçün lazımi işlər görülərsə, taksi fəaliyyətindəki problemlər həll olunar. Dəyişikliyin əsas hədəflərindən biri taksi aqreqatorlarına, transmilli şirkətlərə hüquqi anlayış verilməsidir. İndiyədək qanunvericilikdə bu şirkətlərlə bağlı heç bir maddə yox idi. Taksi sifarişi operatoru termini tətbiq edilməklə həm yerli, həm də xarici şirkətlərə hüquqi status veriləcək. Onların taksi fəaliyyəti sahəsindəki öhdəlikləri, özlərinə dair tələblər, icazə sistemi, vəzifələrini icra etmədikləri təqdirdə barələrində sanksiyalar verilməsi nəzərdə tutulur. Taksi sahəsində islahatlar vacib idi.

Dəyişikliklərdə taksi sürücüləri, avtomobillərə dair tələblər öz əksini tapıb: "Taksi fəaliyyəti ilə məşğul olmaq üçün icazə sisteminin təkmilləşdirilməsi həyata keçirilir. Bundan sonra taksi fəaliyyəti üçün icazə vəsiqəsi və kartı veriləcək. Onların da dövlət rüsumları müəyyən olunub. Qanuna edilən dəyişikliklərin nə dərəcədə həyata keçiriləcəyindən asılı olaraq, taksi fəaliyyəti sahəsində keyfiyyət dəyişikliklərini görəcəyik. Qanun oktyabrın 1-dən qüvvəyə minəndən sonra mexanizmin işə düşməsi ilin sonuna kimi davam edəcək. Gələn il bu sahədə dəyişikliklərin nəticəsini müşahidə edəcəyik".

Ekspert hesab edir ki, islahatlar nəticəsində təsadüfi şəxslərin gündə 1-2 saat taksi fəaliyyəti ilə məşğul olmasının qarşısı alınacaq. Buna görə də taksilərin sayı azalacaq. Say azalanda, xidmət şərtləri ciddiləşəndə qiymətlərin qalxması ehtimalı gözləniləndir. "Əslində, keyfiyyətə təsir göstərəcək amillər taksi sayının azalması və qiymətin artması ilə bağlı deyil. Əsas amillər arasında taksi sifariş operatorlarına və sürücülərə, həm də avtomobillərə dair tələblərə ciddi riayət olunmasıdır. Bu tələblərə ciddi əməl olunsa, iş rejimi müəyyənləşsə, taksi sürücüləri xüsusi hazırlıq prosedurundan keçsə, onlara etik davranış və yol hərəkəti qaydaları ilə bağlı məsələlər öyrədilsə, xidmətin keyfiyyətinin yüksəlməsindən danışmaq olar. Keyfiyyət yüksələndə qiymətin də artması gözlənilәndir", - deyə o əlavə edib.

Nəqliyyat eksperti Aslan Əsədov isə bildirib ki, taksi fəaliyyəti sahəsində yeni tələblərlə bağlı işlərə artıq start verilib.

Taksi fəaliyyəti ilə məşğul olacaq şəxslərin qarşısında da müəyyən vəzifələr qoyulub. Yeni dəyişikliklər prosesə müsbət və mənfi təsir göstərə bilər. Müsbət tərəfi indiyə qədər bu sahədə olan çatışmazlıqların, narazılıqların aradan qaldırılması olacaq. Mənfi tərəfi isə sərnişinləri narahat edəcək tarif məsələsidir. Yəni qanuna dəyişikliklər qüvvəyə mindikdən sonra taksi şirkətləri də qiyməti qaldıracaqlar. Amma tələblərə əməl edilsə, xidmətin keyfiyyəti yüksələcək.

Ekspert düşünür ki, oktyabra qədər müəyyən işlərin görülməsi üçün kifayət qədər vaxt var. Bu müddət ərzində ictimai nəqliyyatın təşkilinə yenidən baxmaq, müəyyən prosesləri izləyib nizama salmaq olar. Bu işlərin daha sürətli fazaya keçməsi üçün addımların atılması, mütərəqqi işlərin görülməsi zəruridir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 196 (9363) 12 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycan həqiqətləri və erməni yalanları
Dövlət başçıları Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər
Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsinə əminlik ifadə olunub
Azərbaycan Argentinaya nota verib
ABŞ Dövlət Departamenti: "Qarabağdakı qondarma "prezident seçkiləri"ni tanımırıq"
Xalqımıza qarşı törədilmiş cinayətlərlə bağlı istintaq-əməliyyat tədbirləri davam edirlər
"TRT World" telekanalı Qarabağa Böyük qayıdışla bağlı veriliş yayımlayıb
Rumıniya Qarabağda keçirilən qondarma seçkiləri tanımır
Rusiya Qırmızı Xaç Cəmiyyətinin göndərdiyi humanitar yük avtomobili hələ də Bərdədə gözləyir

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# *Vladimir PUTİN:* "Ermənistan Qarabağı Azərbaycanın ərazisi kimi tanıyıb"

**Hayastanın Rusiya əleyhinə tutduğu mövqe Moskvanı təəccübləndirir və qıcıqlandırır. İrəvan bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır. Göründüyü qədərilə rəsmi İrəvan hərbi müttəfiqi Rusiyaya qarşı çıxaraq Qərbin verdiyi vədlərə güvənir. Hər halda Paşinyan hakimiyyəti nümayiş etdirdiyi xarici siyasətlə konkret seçim etdiyini göstərir, Rusiyanın xeyrinə olmayan bu istiqamətdə israrlı davranmağa çalışır.**



Elə bunların nəticəsidir ki, son günlər Nikol Paşinyan hakimiyyətinin atdığı bəzi addımlar və səsləndirdiyi bəyanatlar Rusiyada hiddətlə qarşılanır. NATO ilə birgə təlimlər keçirməsi, KTMT-dəki nümayəndəsini geri çağırması, Paşinyanın İtaliya mətbuatına verdiyi müsahibədə səsləndirdiyi fikirlər, Rusiyayönümlü erməni jurnalistlərin həbsi və s. Kreml tərəfindən ciddi narazılıqla qarşılanmaqla yanaşı, İrəvanın ünvanına təhdidlər yağdırılmasına səbəb olub.

Rusiya Prezidenti Vladimir Putin Hayastanın son günlərdə siyasi şoularına və Qarabağla bağlı iddialarına konkret arqumentlərlə reaksiya verib. Bu barədə o, Şərq İqtisadi Forumunda söz açıb. Bildirib ki, bu, baş verib və qərar Ermənistan rəhbərliyinin mövqeyidir. Həmçinin qeyd edib ki, xeyli vaxt, bəlkə də 10-15 il ərzində Ermənistana məqbul təkliflər verilsə də, güzəştə getməkdən imtina edən rəsmi İrəvan son nəticədə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyıb.

Rusiya Prezidenti əlavə edib ki, Praqa sənədindən sonra Qarabağın status məsələsi artıq aktual deyil: "Qarabağın status məsələsi artıq qaldırılmır, o, həll olunub. Bu, bizim yox, Ermənistan rəhbərliyinin qərarıdır".

Putin onu da vurğulayıb ki, humanitar komponent məsələsi hələ də aktualdır, çünki Rusiyanın sülhməramlı missiyasının mandatı fəaliyyətini davam etdirir.

Onu da əlavə edək ki, artıq Ermənistan ərazisində 9 günlük ABŞ-Hayastan hərbi təlimləri başlayıb. Bu, Rusiyanın vassalı olan ölkənin ABŞ ilə ilk belə təlimi, Kremlə qarşı demarşıdır. Gözlənildiyi kimi, təlim xəbəri Moskvanın qəzəbinə səbəb olub. Bununla bağlı Rusiya Xarici İşlər Nazirliyi (XİN) və Putinin mətbuat katibi səviyyəsində kifayət qədər sərt açıqlamalar verilib, İrəvana xəbərdarlıqlar edilib.

Təlim ərəfəsində - sentyabrın 5-də Ermənistan prezidenti Vaaqn Xaçaturyan baş nazir Nikol Paşinyanın təklifi əsasında ölkənin KTMT-dəki daimi nümayəndəsi Viktor Biyaqovu geri çağıraraq onu Niderlandda səfir və Kimyəvi Silahların Qadağan Edilməsi Təşkilatına nümayəndə təyin edib. Bundan bir neçə gün əvvəl isə Roma Əsasnaməsi ratifikasiya edilmək üçün Hayastan parlamentinə göndərilib. Bu isə o deməkdir ki, İrəvan Qərb ölkələri kimi, Rusiya Prezidentini hərbi cinayətkar kimi tanımağa hazırdır və əgər Rusiya Prezidenti İrəvana səfər edərsə, nəzəri olaraq orada həbs edilməlidir.

Bütün bunlarla yanaşı, Paşinyanın arvadı Anna Akopyan Kiyevə səfər edib. Bütün bu demarşlara görə sentyabrın 8-də Hayastanın Rusiyadakı səfiri Rusiya XİN-ə çağrılıb və ona etiraz notası təqdim olunub.

Cərəyan edən bu proseslər fonunda artıq Hayastanın siyasi dairələrində Paşinyan hakimiyyətinin məhz Rusiyanın deyil, Qərbin xeyrinə seçim etdiyini etiraf etməyə başlayıblar. Erməni politoloq Samvel Naumyan vurğulayıb ki, bir müddət öncə Paşinyan hakimiyyətindən seçim etməsi tələb olunub. Baş nazir isə Qərbin yanında yer almağa üstünlük verib.

Hayastanın təhlükəsizlik maraqlarının böyük risk qarşısında olduğunu vurğulayan erməni politoloq bildirib ki, indi rəsmi İrəvan Rusiyanın təsir mexanizmlərini zərərsizləşdirməyə çalışmaq məcburiyyətində qalıb. Bu baxımdan rəsmi İrəvanın təxminən Saakaşvili dövründə Gürcüstanın getdiyi yoldan keçməyə cəhd göstərdiyi müşahidə olunur. Bu, Hayastana həmin dövrdə Gürcüstanın üzləşdiyindən daha təhlükəli risklər, kataklizmlər vəd edir. Hayastan həqiqətən ciddi hərbi-siyasi risklərlə üz-üzə qalıb. Kremlin Paşinyan hakimiyyətinin Qərbin xeyrinə seçimi ilə barışacağı qətiyyən inandırıcı görünmür. Böyük ehtimalla Rusiyanın yaxın vaxtlarda Hayastana təzyiq prosesi intensiv xarakter almağa başlayacaq. Çünki Qərbin Hayastanda peyda olması Rusiyanın geopolitik maraqları ilə yanaşı, hərbi mənafelərinə də sarsıdıcı zərbə vəd edir.

Beləliklə, gedən proseslər Hayastanın sürətlə məhvinə doğru yaxınlaşdığını bir daha təsdiqləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5519**
**Sifariş 2329**

**Qiyməti 40 qəpik**